**Bakı Mühəndislik Universiteti**

**Təhsil müəssisəsinin əmtəə nişanı**

**Bakı Mühəndislik Universiteti**

# İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında HESABAT

**Hesabat Bakı Mühəndislik Universitetinin**
**Elmi Şurasının**
**(07/07/2023) tarixli iclasının qərarı ilə**
**təsdiq edilmişdir.**

**Tarix** 07.07.2023

**İmza** ____________
(müəssisənin rəhbəri)

**M.Y** ____________

**Xırdalan 2023**

**Mündəricat**

**I. Giriş**
1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki
3. Öncəki akkreditasiya qiymətləndirilməsi zamanı təhsil müəssisəsinə verilmiş tövsiyələrin icra vəziyyətinə dair

**II. Təhsil müəssisəsinin özünütəhlili**
4. Özünütəhlil qiymətləndirilməsinin icmalı
5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri
6. Təşkilat komissiyasının gəldiyi nəticələr və qeydlər

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

## I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Bakı Mühəndislik Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Universitet ilk dəfə akkkreditasiyadan keçir |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | |
| Təhsil müəssisəsinin rəhbəri | Prof. Havar Məmmədov |
| Fakültələrin sayı | 4 |
| Kafedraların sayı | 21 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 37 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 18+1 MBA (27+6 MBA) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 10 (6 elm sahəsi üzrə) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalanların sayı**<br>Bakalavriat: 4486<br>Magistratura: 405<br>Doktorantura: 21<br>Elmlər doktorluğu proqramı üzrə: yoxdur |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 261 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 176 (54/122) |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@beu.edu.az |
| Müəssisənin hüquqi ünvanı | Xırdalan, H. Əliyev 120 |
| Müəssisənin faktiki ünvanı | Xırdalan, H. Əliyev 120 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | Elektron poçt ünvanı |
|---|---|---|---|
| 1 | Prof. Havar Məmmədov | rektor | rector@beu.edu.az |

| | | | |
|---|---|---|---|
| 2 | Prof. Həmzağa Orucov | prorektor | horucov@beu.edu.az |
| 3 | Dr. Bayram Hüseynzadə | prorektor | bhuseynzada@beu.edu.az |
| 4 | Dos. Elçin Süleymanov | prorektor | elsuleymanov@beu.edu.az |
| 5 | H.ü.f.d. Mikayıl Zeynalov | prorektor | mzeynalov1@beu.edu.az |
| 6 | Vüqar Həsənov | prorektor | vhasanov@beu.edu.az |
| 7 | Prof. Manafəddin Namazov | prorektor | mnamazov@beu.edu.az |
| 8 | Sevil İmanova | KT şöbəsinin müdiri | simanova@beu.edu.az |
| 9 | Dos. Mayis Əzizov | dekan | mezizov@beu.edu.az |
| 10 | Dos. Elşad Abdullayev | dekan | elabdullayev@beu.edu.az |
| 11 | Dos. Hüseyn Mirzəyev | dekan | humirzeyev@beu.edu.az |
| 12 | Prof. Afər Əlifov | dekan | aalifov@beu.edu.az |
| 13 | Prof. Mahir Bəşirov | Magistratura və doktorantura şöbəsinin müdiri | mbashirov@beu.edu.az |
| 14 | Avtandil Xasiyev | Metodiki işlər şöbəsinin müdiri | axasiyev@beu.edu.az |
| 15 | Ramil Hacıyev | Tədris hissəsinin müdiri | rhaciyev@beu.edu.az |
| 16 | Qürbət Məmmədov | Baş hüquqşünas | qmemmedov@beu.edu.az |
| 17 | Cənnət Əliyev | İR- müdiri | caliyev1@beu.edu.az |
| 18 | Gülçöhrə İbrahimova | Departament müdiri | gibrahimova@beu.edu.az |
| 19 | Kəmalə Yusifova | Metodiki işlər şöbəsinin baş mütəxəssisis | keyusifova@beu.edu.az |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | **Komissiyanın üzvü** | **Fəaliyyət** |
|---|---|---|
| 1 | Prof. Havar Məmmədov | İstiqamətlərə görə məsul şəxslərin təyini, ümumi prosesə nəzarət, sənədin təhlili, sənədin təsdiq edilməsi |
| 2 | S.e.ü.f.d. Bayram Hüseynzadə | 1. 5.5. alt istiqamətin hazırlanmasında iştirak etmək |
| 3 | Dos. Elçin Süleymanov | 1. 4-cü istiqaməti hazırlamaq<br>2. 1 və 2-ci istiqamətin hazırlanmasında iştirak etmək |
| 4 | H.ü.f.d. Mikayıl Zeynalov | 1. 5-ci istiqamətin hazırlanmasında və sistemə daxil edilməsində iştirak etmək.<br>2. 6-cı istiqaməti hazırlamaq.<br>3. 6,7,12 nömrəli cədvəllərin hazırlanmasında iştirak etmək |

| | | |
|---|---|---|
| 5 | Sevil İmanova | 3. 2 ci istiqaməti hazırlamaq<br>4. KTŞ fəaliyyətlərini əks etdirən digər istiqamətlərdə əks olunan indikatorları cavablandırmaq.<br>5. Strukturlar arası və komissiyanın üzvləri arasında əlaqəni tənzimləmək<br>6. Sənədlərin toplanmasını təmin etmək |
| 6 | Prof. Afər Əlifov | 3 ci istiqamətin hazırlanmasında iştirak etmək |
| 7 | Dos. Mayis Əzizov | 1. 3-cü istiqamətin hazırlanmasında iştirak etmək |
| 8 | Cənnət Əliyev | 1. 5-ci istiqamətin hazırlanmasında iştirak etmək. |
| 9 | Gülçöhrə İbrahimova | 1. 3-cü istiqamətin hazırlanmasında iştirak etmək<br>2. Akkreditasiyaya aid olan 2 və 9 nömrəli excell fayllarının doldurulması. |
| 10 | Ramil Hacıyev | 1. 3-cü istiqamətin hazırlanmasında iştirak etmək<br>2. Bakalavriat səviyyəsi üzrə tələbələrə aid cədvəlləri (excell 3, 5) və sənədləri hazırlamaq |
| 11 | Prof. Mahir Bəşirov | 1. 3-cü istiqamətin hazırlanmasında iştirak etmək<br>2. Magistratura səviyyəsi üzrə tələbələrə aid cədvəlləri (excell 3, 5) və sənədləri hazırlamaq |
| 12 | Qürbət Məmmədov | 1. 5.1 alt istiqaməti hazırlamaq |
| 13 | Dos. Hüseyn Mirzəyev | 3-cü istiqamətin hazırlanmasında iştirak etmək |
| 14 | Dos. Elşad Abdullayev | 3-cü istiqamətin hazırlanmasında iştirak etmək |

## 3. Öncəki akkreditasiya qiymətləndirilməsi zamanı təhsil müəssisəsinə verilmiş tövsiyələrin icra vəziyyəti

**Bakı Mühəndislik Universiteti 2017-ci ilin noyabr ayında yaranmışdır. Universitetin yarandığı gündən ilk dəfə akkreditasiyadan keçdiyi üçün öncəki akkreditasiya qiymətləndirilməsi mövcud deyil.**

# II. Təhsil müəssisəsinin özünütəhlili

## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Bakı Mühəndislik Universitetinin Özünütəhlil Hesabatı Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-176 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Bakı Mühəndislik Universitetinin Özünütəhlil Hesabatı Elmi Şuranın **25.04.2023-cü il tarixli 03/2023 nömrəli** protokolu ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

---

**1. STRATEJİ İNKİŞAF**

1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

**1.1.1.ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlıq vəziyyəti**

Bakı Mühəndislik Universitetinin qısa və ortamüddətli dövr üçün strateji inkişaf planı mövcuddur. Universitet Elmi Şurasının **29. 05. 2018 -ci il tarixli BMU-15000-000/014 saylı iclasında** Elmi Şuranın **Universitetin özünütəhlil hesabat komissiyasının yaradılması ilə bağlı** qərarı ilə təsdiq olunmaq üçün Elm və Təhsil Nazirliyinə göndərilmişdir. 2020–2023-cü illəri əhatə edən Strateji İnkişaf Proqramı Bakı Mühəndislik Universitetinin həm respublikadaxili, həm də xarici ölkələrin elm, təhsil sahələrinə uyğunlaşdırılmasına şərait yaradır.

Yeni yaradılmış universitet kimi BMU-nun Strateji İnkişaf Proqramı perspektiv dövr üçün qarşısında duran əsas məqsəd, vəzifə və konkret istiqamətləri formalaşdırmaqla ölkənin təhsil bazarında onun rəqabətqabiliyyətliliyinin təmin edilməsini və inkişaf etmiş modern universitetin yaradılmasını nəzərdə tutur.

Strateji İnkişaf Proqramı aşağıdakı prioritet istiqamətləri əhatə etməklə işlənib hazırlanmışdır:

1. Qısa və ortamüddətli dövrdə elm və təhsil sahəsində nailiyyətlərin əldə edilməsini təmin edən faktorların müəyyənləşdirilməsi üçün BMU-nun daxili və xarici mühit amillərinin təhlili.
2. BMU-nun Strateji İnkişaf Proqramında nəzərdə tutulan məqsəd və istiqamətlərin əsas göstəricilərinin müəyyən edilməsi və onların əsaslandırılması.
3. Məqsədyönlü vəzifələrin müəyyənləşdirilməsi.
4. Qarşıya qoyulan vəzifələrin icrasına mütəmadi nəzarətin həyata keçirilməsi.

Birinci iki mərhələnin strateji əsası BMU-nun inkişafı ilə bağlı strateji məqsədlər və onların əsaslandırılmasını, 3-cü və 4-cü mərhələlər isə BMU-nun bu strategiyadan irəli gələn missiyasının həyata keçirilməsini nəzərdə tutan cari işləri özündə əks etdirir.

**1.1.2.BMU-nun SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsəd və hədəflərinə uyğunluğu**

Bakı Mühəndislik Universitetinin missiyası təhsilin bütün səviyyələri və formaları üzrə dünya standartlarına uyğun təhsil, tədqiqat və innovasiya sahəsində fundamental biliklərə, tədqiqat vərdişlərinə yiyələnmiş, milli və beynəlxalq əmək bazarında rəqabətədavamlı, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksək ixtisaslı məzun və kadr hazırlamaqdan ibarətdir.

Tədris prosesinin, elmi-tədqiqat və innovasiya fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, müəssisələrlə əlaqələr və karyeranın, sosial və ictimai, həmçinin maliyyə-iqtisadi fəaliyyətləri inkişaf etdirilməsi, universitet infrastrukturunun təkmilləşdirilməsi müəyyən edilən missiyanın fəaliyyət istiqamətlərini təşkil edir. Akademik və administrativ mobillik imkanlarını araşdırmaqla universitet əməkdaşlarının daimi inkişafı yollarını təbliğ etmək, beynəlxalq proqram və layihələrdə rəhbər və tərəfdaş qismində iştirak etmək, tədris-metodiki vəsaitin təminatı və elmi-tədqiqat işləri sahəsində əməkdaşlıq imkanları yaratmaqla əlaqələrin inkişafının həyata keçirilməsini təmin etmək BMU-nun SİP-də müəyyən edilən missiyasının əsas məqsəd və hədəflərinə uyğundur.

**1.1.3.SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu**

Qloballaşma ali təhsilin ixtisaslaşması və beynəlmiləlləşməsi üçün əsas elementlərdən biridir. BMU həm bakalavriat, həm magistratura, həm də doktorantura səviyyələrində təhsil alanlara beynəlxalq standartlara uyğun keyfiyyətli təhsil verilməsinə, iqtisadiyyatın, o cümlədən,

rəqəmsal iqtisadiyyatın müasir inkişaf mərhələsində rəqabətədavamlı məzun və kadr hazırlığının aparılmasına və təkmilləşdirilməsinə istiqamətlənmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, əmək bazarının, iqtisadiyyatın tələbləri, eləcə də, ölkəmizin insan kapitalının formalaşması baxımından BMU-nun təhsil sisteminin modernləşdirilməsi SİP-də mühüm hədəf seçilmişdir.

Universitet əmək bazarının tələblərinə uyğun olaraq məzunların bazara çıxışının təmin olunmasına, işəgötürənlərin məzunların konkret peşə tələblərinə zəmanət verməklə yüksək keyfiyyətli təhsil mərkəzinə çevrilməyə təşəbbüs göstərir və rəqəmsal platformalardan istifadə etməklə iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğun yeni iş yerlərinin yaradılması üçün imkanlar axtarır.

**1.1.4.SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu**

BMU-nun əsas fəaliyyət prinsipi inkişaf, keyfiyyət ənənələrinə sadiqlik nümayiş etdirən kollektivdə təhsil mədəniyyəti formalaşdırmaqdan ibarətdir.

Ali təhsil sisteminin beynəlmiləlləşməyə başladığı dövrdə Bakı Mühəndislik Universiteti beynəlxalq standart və meyarlara uyğun tədris proqramları və metodları əsasında tədrisin təşkil olunmasına, rəqabətədavamlı məzun və kadr hazırlığının aparılmasına və təkmilləşdirilməsinə xüsusi önəm verir. BMU-nun 2020–2023-cü illəri əhatə edən Strateji İnkişaf Proqramı müəyyən prioritet istiqamətlərin qəbul edildiyi Dövlət Proqramları və Dövlət Strategiyası əsasında tərtib edilməklə ATM qarşısında qoyulan məqsəd və vəzifələrə uyğun olaraq müəyyən edilmişdir.

**1.1.5. SİP-də nəzərədə tutulmuş əsas strateji istiqamətlərə nail olunması üçün məqsəd və hədəflərin müəyyən edilməsi**

Strateji İnkişaf Proqramında müəyyən edilən əsas məqsəd və hədəflər aşağıdakılardan ibarətdir:

- BMU-nu beynəlxalq məkanda tanıtmaq, dünyanın və regionun nüfuzlu universitetləri, tədqiqat mərkəzləri və sənaye müəssisələri ilə əlaqələri genişləndirmək məqsədilə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrinin sayının artırılması;
- BMU-da tədris və təlim metodlarından istifadənin genişləndirilməsi, beynəlxalq elm və təhsil imkanlarından faydalana bilmək üçün lazımi mühitin formalaşdırılması məqsədilə əcnəbi mütəxəssis və ekspertlərin tədris prosesinə cəlb edilməsi;
- Rəqabətədavamlı məzun və kadr hazırlığının beynəlxalq standartlara uyğun aparılması və təkmilləşdirilməsi üçün beynəlxalq mübadilə proqramlarında tələbələrin iştirak sayının artırılması;
- BMU-nun elm və innovasiya potensialının artırılması məqsədilə dünya bazarının tələblərini öyrənmək üçün tədqiqatların aparılması, tərəfdaşlarla birgə tədqiqat işlərini həyata keçirərək beynəlxalq elmi-tədqiqat gücünün artırılması;
- Beynəlxalq standartlara uyğun tədris mühitinin formalaşması üçün beynəlxalq əlaqələrin genişləndirilməsi və beynəlxalq proqramlara tələbələrin cəlb olunması məqsədilə xarici tərəfdaş universitetlər ilə birlikdə yay məktəblərinin təşkili və İkili diplom proqramlarının həyata keçirilməsi;
- Universitetin beynəlxalq arenada tanınması və əcnəbi tələbələrin cəlb olunması məqsədilə beynəlxalq təhsil sərgilərində iştirak;
- Beynəlxalq təcrübəyə əsaslanaraq, tədqiqat fəaliyyətlərinin təşkili, birgə tədris proqramlarının planlaşdırılması, akademik və inzibati heyətin beynəlxalq təlimlərdə iştirakı məqsədilə beynəlxalq mübadilə proqramlarında iştirak sayının artırılması;

- Beynəlxalq tədqiqat şəbəkələrinin gücləndirilməsi vasitəsilə tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi, xarici təcrübənin öyrənilməsi məqsədilə, beynəlxalq layihələrdə qrant qalibi və tərəfdaş kimi iştirak sayının artırılması.

**1.1.6. SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması**

Universitetin Strateji İnkişaf Proqramında qısa və ortamüddətli dövr üçün görüləcək tədbirlər aşağıdakı kimi müəyyən edilmişdir:

- Ölkəmizdə təhsil siyasətinin formalaşdırılması və reallaşdırılması məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə strateji əməkdaşlıq münasibətlərini genişləndirmək;
- Tədris prosesinin inkişafı;
- Elmi-tədqiqat və innovasiya fəaliyyətinin təkmilləşdirilməsi;
- Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi;
- Müəssisələrlə əlaqələrin genişləndirilməsi və karyeranın inkişaf etdirilməsi;
- Universitetin sosial və ictimai inkişafı;
- Maliyyə-iqtisadi fəaliyyətlərinin inkişaf etdirilməsi;
- Universitet infrastrukturunun təkmilləşdirilməsi.

**1.1.7.SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi**

SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləri qarşıya qoyulan məqsədə və yerinə yetirilməsi nəzərdə tutulan vəzifələrə görə müəyyənləşdirilir:

a) təhsil fəaliyyəti sahəsində: akademik mobillik proqramında iştirak edən müəllimlərin sayının 1,5-2 dəfəyə qədər artırılması; təhsil proqramlarının peşə standartlarının tələblərinə 100% adaptasiya olunması; təhsil proqramlarının 10%-nin sertifikasiyalaşdırılmasının xarici steykholderlər tərəfindən icra edilməsi və s.

b) elmi-tədqiqat və innovasiya fəaliyyəti sahəsində: universitetin professor- müəllim heyəti tərəfindən Web of Science və Scopus məlumatlar bazasında indeksləşdirilən resenziyalı beynəlxalq jurnallarda hər 100 müəllimə 10 ədəd hesabı ilə nəşrlərin sayının artırılması; universitetin bazasında elm və texnilkanın prioritet inkişaf istiqamətləri üzrə hər il 10-15 beynəlxalq və ümumrespublika təyinatlı elmi-praktiki konfranslar, seminarlar, dəyirmi masaların təşkil edilməsi; elmi - tədqiqat işlərində iştirak edəcək tələbələrin sayının ümumi tələbə kontingentinin 35 - 40%-ə qədər artırılması; bütün elmi- pedaqoji kollektivin daha geniş formatda universietin tədqiqat və innovasiya fəaliyyətinə cəlb edilməsi məqsədi ilə 2030-cu ilə qədər professor - müəllim heyətinin yarısından çoxunun elmi - tədqiqat işlərində aktiv iştirakının təmin edilməsi; elmi-tədqiqat layihələrinin 30%-nin müəssisə və təşkilatların sifarişləri əsasında yerinə yetirilməsi və s.

c) beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi sahəsində: akademik mobil proqramlar üzrə təhsil alanların sayının artırılması: xarici ölkə universitetləri ilə ikili diplom üzrə təhsil proqramlarının reallaşdırılması: professor-müəllim heyəti və əməkdaşların beynəlxalq təkmilləşdirmə səviyyəsinin yüksəldilməsi; dünya təhsil sisteminə inteqrasiya mexanizminin inkişaf etdirilməsi və s.

**1.1.8.SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti**

Bakı Mühəndisliki Universitetinin Strateji İnkişaf Proqramına əlavə kimi təqdim edilən fəaliyyət planında 2020-2023-cü illərdə yerinə yetiriləcək tədbirlər, onların icra müddəti,

tədbirin həyata kecirilməsi üçün zəruri maliyyə vəsaitlərinin həcmi aşağıdakı istiqamətlər üzrə verilmişdir:

- Müasir tələblərə cavab verən və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması (Dövlət Proqramına əsasən );
- Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsini nəzərə alaraq, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsi üçün yeni təhsil sisteminin formalaşdırılması (Dövlət Strategiyasına əsasən);
- Təhsilin dayanıqlı və fərqli mənbələrdən maliyyələşdirilməsinin yeni mexanizminin yaradılması;
- Universitetin maddi-texniki bazasının gücləndirilməsi və s.

**1.1.9.SİP-in maliyyə təminatının BMU-da büdcə planlaşdırılmasında nəzərə alınması vəziyyəti**

Universitetin illik büdcə planlaşdırılması real islahatların aparılması məqsədilə SİP-də ayrı-ayrı illər üzrə yerinə yetirilməsi proqnozlaşdırılan inzibati - təşkilati xarakterli tədbirlər əsasında aşağıdakı istiqamətlər üzrə aparılır:

- BMU-nun strukturunun və ştatlarının optimallaşdırılması;
- Differensal əmək haqqı sisteminin formalaşdırılması;
- Sponsorluq, ianə və donor sisteminin qurulması;
- Sertifikat proqramları, dil kursları, hazırlıq kurslarının və digər təlimlərin təşkili;
- Biznes qurumları üçün ödənişli konsaltinq xidmətinin təşkili;
- BMU-nun təbliğ və xatirə əşyalarının satışı;
- Texnoparkın kirayə, ortaqlıq və s. gəlirləri;
- İşçilərin əməkhaqqlarının ölkənin orta əməkhaqqı və əmək bazarının tələbatına uyğun saxlanılmasını təmin etmək.

**1.1.10. SİP-in sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti**

İnformasiya cəmiyyəti universitetin istənilən fəaliyyət sahəsi üçün rəqabətədavamlı kadrların hazırlanması, innovativ texnologiyaların inkişafına şərait yaradan islahatların həyata keçiririlməsi, elmi yeniliklərin cəmiyyətə inteqrasiyası, əqli mülkiyyətin qorunması, beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi, universitetin vahid informasiya mühitinin formalaşdırılması, kadr potensialının inkişafı kimi məsələlərin diqqətdə saxlanılmasını tələb edir. BMU-da Texnoparkın nəzdində Texnoloji Transfer və Patent Ofisinin qurulması nəzərdə tutulur.

**1.1.11.Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması**

2020–2023-cu illəri əhatə edən Strateji İnkişaf Proqramının işlənilib hazırlanması zamanı daxili və xarici çağırışlara cavab olaraq universitetin bütün fəaliyyət istiqamətləri (təhsil proqramları, maraqlı tərəflərin - tələbələrin, valideynlərin, işə götürülənlərin, məzunların, professor-müəllim heyətinin, elmi-tədqiqat işlərinin, maliyyə - iqtisadi idarəetmənin, tədris metodiki işlərin, infrastrukturun və informasiya-texniki bazanın keyfiyyətinin yaxşılaşdırılması, kommunikasiya və sosial-tərbiyə siyasəti) üzrə innovasiya yönümlü dayanıqlı sistemin formalaşmasına xidmət göstərən mövcud vəziyyət nəzərə alınmışdır.

**1.1.12. SİP-də BMU-nun güclü və zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması**

**Güclü cəhətlər:**

- Kampus sisteminin mövcudluğu;
- Universitetdə ingilis dilində tədrisin və genişmiqyaslı beynəlxalq əlaqələrin mövcudluğu;
- Elektron Universitet İdarəetmə Sisteminin olması;
- Universitetin PMH-nin orta yaşının 45 olması;
- Professor-müəllim heyətinin seçimində beynəlxalq təcrübə, xarici dil və elmi-tədqiqat bacarıqlarının proritet götürülməsi;
- Çoxsaylı tələbə klublarının və dərnəklərin mövcudluğu;
- Məzunlarla əlaqə və karyera fəaliyyətlərinin səmərəli təşkili;
- Tələbə-müəllim mobilliyinin mövcudluğu: yerli və xarici ölkələrdə təcrübə imkanları;
- Müasir avadanlıqlarla təchiz olunmuş tədqiqat laboratoriyalarının mövcudluğu;
- Texnoparkın və İnnovasiya Mərkəzinin mövcudluğu;
- Yataqxana infrastrukturunun olması;
- Müntəzəm olaraq Gənc Tədqiqatçılar Konfransının və beynəlxalq səviyyəli konfransların keçirilməsi;
- İmpakt faktorlu jurnallarda nəşr aktivliyi;
- İmpakt faktorlu məqalələrə görə mükafatlandırma sisteminin mövcudluğu;
- “Journal of Baku Engineering University” elmi jurnalının AAK tərəfindən elmi ad və dərəcə verilərkən tövsiyə edilən dövri nəşrlər siyahısına daxil edilməsi.

**Zəif cəhətlər:**

- İdarəetmədə Beynəlxalq Keyfiyyət İdarəetmə Sistemi (İSO) sertifikatının olmaması;
- Auditoriya və bəzi tədris laboratoriyalarının çatışmazlığı;
- Əməkdaşların fəaliyyətinin differensial qiymətləndirmə sisteminin olmaması;
- Tədris və elmi-tədqiqat işlərində istifadə olunan texnoloji avadanlıqların bir hissəsinin köhnəlməsi və yenilənmə tempinin zəifliyi;
- Dövlət və özəl sektordan elmi tədqiqatlara yönəlik sifarişlərin alınmaması;
- Alternativ gəlir əldəetmə məqsədli xidmət mərkəzinin olmaması;
- Universitetin bazasında Litsey, Kollec, Peşə məktəblərinin olmaması;
- Universitetin şəhər mərkəzindən uzaqda yerləşməsi və nəqliyyat imkanlarının məhdudluğu;
- Beynəlxalq layihələrdə iştirakın və qrantların azlığı;
- Kitabxana və yeməkxana üçün xüsusi binanın, qapalı idman zalının olmaması və oğlanlar üçün yataqxana binasının yetərsizliyi;
- Gənc alim və mütəxəssislər, eləcə də, əcnəbi professor-müəllim heyəti üçün xidməti yaşayış evlərinin olmaması;
- Professor-müəllim heyəti içərisində elmi dərəcə və elmi adı olanların xüsusi çəkisinin azlığı;
- Aşağı balla qəbul olan tələbələrin sayının gedərək artması;
- Onlayn və distant təhsil infrastrukturunun olmaması;
- Beynəlxalq mübadilə proqramlarında əməkdaşların və tələbələrin iştirakının zəifliyi;
- Tələbələr içərisində əcnəbi tələbələrin xüsusi çəkisinin az olması;
- Əməkdaşlar içərisində əcnəbi mütəxəssis və ekspertlərin xüsusi çəkisinin az olması.

**İmkanlar:**

- BMU-nun cəmiyyət tərəfindən qabaqcıl universitet kimi qəbul olması;
- İş dünyasının universitetlərlə əməkdaşlığa artan marağı;
- Cəmiyyətin təhsilə artan marağı;
- Dövlət sifarişi əsasında qəbul planının artması;

- Azərbaycanın beynəlxalq nüfuzunun, ictimai-siyasi sabitliyinin, əlverişli coğrafi mövqeyinin, multikultural mühitinin olması səbəbilə əcnəbi tələbələrin ölkəyə marağının artması;
- "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində kadr potensialının artırılması;
- Qanunvericiliyin təhsilin müxtəlif səviyyə və formaları üzrə fəaliyyətə imkan verməsi.

**Təhdidlər:**

- Ali təhsildə rəqabətin getdikcə artması;
- Universitet büdcələrinin əsas hissəsinin təhsilhaqqı hesabına formalaşması;
- Xaricdə təhsil imkanlarının genişlənməsi səbəbindən tələbələrin xarici ölkələrdəki universitetlərə getməsi;
- Bəzi mövcud ixtisasların qlobal trendlərə cavab verməməsi;
- Təhsil, tədqiqat və biznes əlaqələrinin zəifliyi;
- Bəzi ölkələr tərəfindən diplomların tanınmaması.

**1.1.13 .SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirak vəziyyəti**

Strateji İnkişaf Proqramı müxtəlif hədəf qruplarının (rektor, prorektorlar, ayrı - ayrı struktur bölmə rəhbərləri, tələbələr və əməkdaşlar) tövsiyələri əsasında işlənib hazırlanmışdır.

**1.1.14.SİP-in icrası üzrə BMU-nun struktur bölmələrinin müəyyən edilməsi**

Strateji İnkişaf Proqramının icrası üzrə səlahiyyətlər müvafiq istiqamətlər üzrə prorektorlara və universitetin müvafiq struktur bölmələrinə verilir. Müxtəlif istiqamətlər üzrə proqram tədbirlərinin həyata keçirilməsinə və müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq üçün işçi qrupları yaradıla bilər. Proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin qiymətləndirilməsi və ona nəzarətin təşkili universitetin Elmi Şurası tərəfindən aparılır və Himayəçilər Şurasına məruzə edilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi

**1.2.1.SİP-in icrası üzrə BMU-nun struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırılması vəziyyəti**

Bakı Mühəndislik Universitetinin struktur bölmələrinin dövrü hesabatları 2020-2023-cü illər üzrə "Strateji İnkişaf Proqramı"nda nəzərdə tutulan "Fəaliyyət Planı" əsasında aparılır. Belə ki, burada ayrı-ayrı istiqamətlər üzrə struktur bölmələrinin üzərinə düşən vəzifələr göstərilir və Himayəçilər Şurası tərəfindən işlərin icrasına nəzarət edilir.

**1.2.2.SİP-in icrası üzrə BMU-nun struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirə vəziyyəti**

"Strateji İnkişaf Proqramı" üzrə Bakı Mühəndislik Universitetinin struktur bölmələrinin dövrü hesabatlarının müzakirəsi müvafiq struktur bölməyə nəzarət edən məsul şəxs tərəfindən həyata keçirilir.

**1.2.3.SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti**

Bakı Mühəndislik Universitetinin struktur bölmələrinin illik monitorinqi, "Fəaliyyət Planı"nın icrasına nəzarət Himayəçilər Şurası tərəfindən aparılır.

**1.2.4.SİP-in icrasının dövrü ( illik) monitorinqinin nəticələrinin müzakirə vəziyyəti**

Universitetin struktur bölmələrinin illik monitorinqinin nəticələrinin müzakirəsi, "Strateji İnkişaf Proqramı"nda nəzərdə tutulan "Fəaliyyət Planı"nın icrasına nəzarət universitetin rektoru tərəfindən təşkil olunur.

**1.2.5.SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti**

Universitetin struktur bölmələrinin illik monitorinqinin nəticələri müzakirə olunduqdan sonra müvafiq strukturlara məlumat verilir. Həmçinin məxfi olmayan məlumatlar İctimaiyyətlə əlaqələr şöbəsi tərəfindən sosial mediada, həmçinin Universitetin rəsmi veb saytında dərc olunur. Bununla da, maraqlı tərəflər üçün əlçatanlıq təmin olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1. Keyfiyyət təminatı siyasəti

**2.1.1. ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətinini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı**

Keyfiyyət sahəsində siyasət, ali rəhbərlik tərəfindən BMU-nun ümumi məqsədlərinə uyğun olaraq işlənib hazırlanmış və universitetin rektoru tərəfindən təsdiq olunmuşdur. Keyfiyyət siyasəti keyfiyyət sahəsində məqsədlərin müəyyən edilməsinin və bu məqsədlərin həyata keçirilməsinin gözlənilən nəticələrinin əsasını təşkil edir və Keyfiyyət Əl Kitabında öz əksini tapmışdır. Keyfiyyət siyasətinin tətbiq edilməsinin əsas vasitəsiçisi BMU-da fəaliyyət göstərən Keyfiyyətin Təminatı Şöbəsidir.

**Universitetin keyfiyyət siyasəti**

Bakı Mühəndislik Universiteti milli, mənəvi və ümumbəşəri dəyərlərə malik vətəndaş və öz ixtisasında yüksək bilik və bacarıqlara yiyələnmiş kadr hazırlığını qarşısına məqsəd qoymuşdur. Universitet daimi inkişaf prosesində keyfiyyət təminatının şərtlərini həyata keçirən müştəri məmnuniyyətinə əhəmiyyət verən bir müəssisədir.

**Keyfiyyət siyasətinin əsas strateji prinsipləri aşağıdakılardır:**

1. Tələbələrin, valideynlərin, müəllimlərin, digər təhsil işçilərinin, işəgötürənlərin, peşə təşkilatlarının və ictimaiyyətin razılığını təmin edən təhsil – idarəetmə və idarəetmə yanaşmasını həyata keçirmək.
2. Təhsil fəaliyyətinin idarə olunması proseslərinə diqqət yetirərək təkmilləşdirilməyə davamlı inkişafı təmin etmək.
3. Təhsildə insan dəyərlərini prioritetləşdirməklə milli və etik dəyərlərə sahib insan yetişdirmək.
4. Universitet – İş dünyası əməkdaşlığını yaxşılaşdırmaq və iş dünyasında ixtisaslı işçi qüvvəsi yetişdirmək.
5. İqtisadi, mədəni və sosial problemlərin həlli istiqamətində araşdırma aparmaq.
6. Distant təhsil və həyat boyu öyrənmə sistemini geniş şəkildə inkişaf etdirmək.
7. Beynəlxalq mübadilə və tələbə mübadiləsi layihələrində fəal iştirak etmək.

8. Bolonya sistemінə adaptasiya prosesini sürətləndirərək Avropa Təhsil Sahəsinə inteqrasiya etmək.

**Maraqlı tərəflərin prosesdə rolu:**

Keyfiyyət Təminatı Siyasəti sənədində maraqlı tərəflərin prosesdə iştirakı gözlənilən nəticələrin əldə olunmasında əhəmiyyət kəsb edir. BMU KT şöbəsi maraqlı tərəflərin prosesə cəlb olunması üçün tərəflərin məmnunluq səviyyəsinin və rəylərinin öyrənildiyini təmin edən müxtəlif sorğular keçirməkdə, onların bu mərhələdəki vəzifə və rollarını təyin etməkdədir. Aşağıda bu mərhələdə maraqlı tərəflərin rollarını qısa şəkildə belə xarakterizə edə bilərik:

BMU rəhbərliyi:

BMU rəhbərliyi keyfiyyət sahəsində hədəf və məqsədlərin müəyyən edilməsi və onların həyata keçirilməsində cavabdeh tərəf olaraq prosesdə iştirak edən maraqlı tərəflərin resurs təminatında məsuliyyət daşımaqdadır.

Universitet kollektivi:

Universitet kollektivi müəssisənin keyfiyyət təminatı üzrə siyasətinin reallaşmasında əhəmiyyətli rol oynayır. İstər struktur bölmələri, istərsə də professor-müəllim kollektivi qarşılarında duran vəzifə və öhdəliklərin keyfiyyətindən cavabdeh sayılırlar. Həmçinin universitetlə bağlı keçirilən rəy sorğularında kollektivin rəy və görüşləri keyfiyyətin təminatı və onun artırılmasında böyük rol oynamaqdadır.

Tələbələr:

Tələbələr tədris prosesinin əsas iştirakçılarıdırlar. Təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək kimi normalar qarşısında məsuliyyət daşıyırlar. Tələbələr universitetin təhsil və digər xidmətlərindən gündəlik yararlandıqları üçün verilən xidmətlərin ölçülməsində önəmli səs çoxluğuna sahibdirlər. Bu mənada KT şöbəsi tərəfindən hər ilə keçirilən müxtəlif anket sorğularında tələbələrin mövqeyi diqqətə alınır, universiet rəhbərliyinin hesabatında müzakirə edilərək bu istiqamətdə zəruri tədbirlər görülür.

Xarici tərəfdaşlar:

Ali təhsil müəssisəsində keyfiyyətin təminatında əhəmiyyətli rol oynayan tərəfdaşlar sırasında sadəcə daxili deyil, universitet xaricindən olan amilləri də qeyd etmək lazımdır. Bu mənada dövlət akkreditasiya orqanı, təhsil sahəsində əməkdaşlıq edilən xarici universitetlər, müxtəlif beynəlxalq layihələrin rolunu da unutmaq olmaz. Bu əməkdaşlıqlar çərçivəsində qarşıya qoyulan hədəflərə ən yüksək göstəricilərlə nail olmaq keyfiyyətin tələbləri sırasındadır.

Əmək bazarı

İşəgötürənlərin tədris prosesinə cəlb edilməsi və fikirlərinin öyrənilməsi keyfiyyətin təminatı baxımından olduqca əhəmiyyətlidir. Bu mənada Keyfiyyətin Təminatı Şöbəsi BMU-nun keyfiyyət siyasətinə uyğun olaraq maraqlı tərəflər kimi işəgötürənlərin tədris prosesinə cəlb edilməsi və fikirlərin öyrənilməsi üçün sorğu keçirmişdir.

Sorğu istehsalat təcrübəsində olan buraxılış kurs tələbələrinin bilik və bacarıqlarının əmək bazarının tələblərinin yönəldilməsi və rəqabətədavamlı kadr hazırlığının aparılması məqsədi daşıyır.

Sorğuya aşağıda qeyd olunan link vasitəsi ilə daxil ola bilərsiniz.

https://pms.beu.edu.az/index.php?mod=anket&an=1&ank=73

**2.1.2. ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti**

Hər şeydən öncə qeyd etmək lazımdır ki, Bakı Mühəndislik Universitetinin keyfiyyət təminatı siyasəti sənədi universitetin strateji hədəflərini əhatə etməkdədir. Müəssisənin keyfiyyət təminatı siyasəti sənədi bütün maraqlı tərəflərin istək və arzuları nəzərə alınaraq hazırlanmışdır. Universitetin professor-müəllim, struktur heyəti, həmçinin tələbələri keyfiyyət təminatı siyasətində birbaşa iştirak etdikləri üçün hər bir əməkdaşı gördüyü işin, təhsilalanlar da öz növbəsində aldıqları təhsilin keyfiyyətinə görə məsuliyyət daşımaqdadırlar. Sənəd sadə olduğu qədər də hər kəs üçün əlçatandır. Ali təhsil müəssisəsində bütün sahələrdə keyfiyyət təminatının artırılması məqsədilə KT şöbəsinin təşkilatçılığı ilə professor-müəllim kollektivi, struktur heyət və tələbə kollektivi üçün müxtəlif səpkidə təlimlər verilməkdədir.

**2.1.3. ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi**

Bakı Mühəndislik Universiteti EMS sisteminə malik olan və onu uğurlu şəkildə tətbiq edən ali təhsil müəssisəsidir. Belə bir imkana malik olması keyfiyyətin təminatı siyasətinin uğurlu bir şəkildə aparılması üçün əlverişli üstünlük yaratmaqdadır. Müəssisənin əməkdaşları bu sahədə atılan hər bir addım, edilən hər bir yeniliklə o anda tanış ola bilirlər. KT şöbəsi tərəfindən hazırlanmış "Keyfiyyətin Əl Kitabı" (KƏK) Elektron Məlumat Sistemində keyfiyyətin təminatı siyasəti haqqında məlumatların yerləşdirildiyi önəmli sənədlərdən biridir. EMS sisteminin tərkibində müxtəlif modulların yer alması əməkdaşların keyfiyyət təminatı siyasəti barədə məlumatlı olmasına əsas verir. Buna başqa bir nümunə olaraq, daha öncə də qeyd etdiyimiz "Anket sorğuları" modulunu da göstərə bilərik. Mütəmadi şəkildə anketlərin təşkili, tələbə-müəllim, struktur heyətin bu anketlərdə iştirakı da öz növbəsində keyfiyyət anlayışına yanaşmanın əhəmiyyətini əks etdirir. Hər bir əməkdaş universitetin fəaliyyəti ilə bağlı gördüyü problemləri və keyfiyyətin daha da yaxşılaşdırılması üçün təkliflər verə bilər. Təklifləri KTŞ və KTK birgə müzakirə edərək aidiyyatı strukturlarla görüşür. Təkliflərlə bağlı müsbət rəy formalaşdıqda onlar həyata keçirilir. Eyni zamanda universitet daxilində istifadə edilən hər bir sənəd, EMS sistemində yerləşdirilərək əlçatanlığı təmin edilməktədir.

**2.1.4. Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)**

Universitet rəhbərliyi Keyfiyyət Təminatı Siyasətinin müəssisə daxilində səmərəli şəkildə həyata keçirilməsinin təminatçısıdır. Bu məqsədilə tələb olunan zəruri şəraitin yaradılması istiqamətində daimi işlər görülməkdədir. Keyfiyyət təminatı siyasəti istər təhsil, istərsə də idarəçiliyin hər bir sahəsində universitetin kollektivi tərəfindən dəstəklənməkdədir. Görülən işlərdə keyfiyyət göstəricilərinə görə məsuliyyət ilk növbədə hər bir universitet əməkdaşının üzərinə düşməkdədir.

BMU-nun strateji istiqaməti və hədəflərində 2020-2023-cü illərdə Universitet infrastrukturun təkmilləşdirilməsi istiqamətində müxtəlif işlər görülmüşdür. BMU KT şöbəsi tərəfindən universitetin kafedra müdirləri, inzibati struktur rəhbərləri, laborant və tyutorlar üçün müxtəlif istiqamətlərdə təlimlər təşkil edilmişdir. BMU-nun strateji planında 2020-2023-cu illər üçün hədəflədiyi fəaliyyətlərdən biri də universitetdaxili fəaliyyət, xidmət və proseslərin ISO tərəfindən təyin olunmuş standartlar əsasında həyata keçirilməsi, keyfiyyət idarəetmə sisteminin səmərəli tətbiqi, mövcud fəaliyyət, xidmət və proseslərin yaxşılaşdırılması və təkmilləşdirilməsidir. Bu məqsədlə universitetdə ISO sisteminin qurulmasına start verilmiş müəssisədə idarəetmənin səmərəliliyinin artırılması və tələbə məmnuniyyətinin yüksəldilməsi

istiqamətində ISO 9001:2015 keyfiyyət idarəetmə standartının tətbiqinə hazırlıq istiqamətində 2021-2022-ci tədris ilində bir sıra təlimlər keçirilmişdir:

- https://azedu.az/az/news/50288-bmu-da-idareetmenin-semereliliyinin-artmasi-istiqametinde-isler-heyata-kecirilir-
- https://beu.edu.az/az/article/bmu-da-keyfiyyet-anlayisi-ve-iso-9001-2015-in-esas-prinsipleri-movzusunda-telimler-kecirilir-1002
- https://beu.edu.az/az/article/bmu-da-tehsilde-keyfiyyetin-idare-edilmesi-movzusunda-telim-kecirilib-758

Burada Universitet infrastrukturun təkmilləşdirilməsi istiqamətində KT şöbəsi tərəfindən təşkil olunan "Anket sorğularını" da ayrıca qeyd etmək lazımdır. Bu məqsədlə müəssisənin Elektron Məlumat Sistemidə (EMS) keçirilən Tələbə məmnuniyyəti və Personel məmnuniyyəti anketləri universitet infrastrukturunun qiymətləndirilməsində olduqca əhəmiyyətli rol oynayır.

Tədrisin keyfiyyətinin artırılması istiqamətində görülən işlər içərisində təhsil proqramlarının hazırlanması və günün tələbatına uyğun təkmilləşdirilməsi dünyanın qabaqcıl ölkələrinin təcrübələrinə əsasən aparılır. Keyfiyyətin Təminatı Şöbəsi təhsilin keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə hər semestr tələbələr arasında Tədris prosesinin qiymətləndirilməsi (müəllimlər üzrə) anketini təşkil etməkdədir. Dərslərə görə müəllimlərin qiymətləndirilməsi tələbələrə ünvanlanan 10 sual üzərindən aparılır. Anket sorğusu universitetin Elektron Məlumat Sistemi üzərindən aparıldığı üçün hər kəsə açıqdır və anonim şəkildə keçirilir. Məlumatlar arxivlənərək istənilən vaxt müəllimlər tərəfindən əlçatanlığı təmin olunur. Hər sorğudan sonra əldə olunan yekun nəticəyə dair ümumi hesabat KT şöbəsi tərəfindən hazırlanaraq rəhbərliyə təqdim edilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

**2.2.1. ATM-in daxili keyfiyyət təminatı üzrə Komissiyasının yaradılması barədə əmr, onun təsdiq edilmiş əsasnaməsi və strukturu (əmrin nömrəsi-tarixi)**

Keyfiyyətin təminatı komissiyası Bakı Mühəndislik Universitetinin strateji planına əsasən mövcud fəaliyyət, xidmət və proseslərin keyfiyyətinin artırılması məqsədilə Universitet rəhbərliyinin **20 aprel 2021-ci il tarixli 2984 №-li əmrilə** yaradılmışdır. KT komissiyası inzibati struktur bölmələrin keyfiyyət idarəetmə fəaliyyətlərinin həyata keçirilməsində təmsil olunmasını və fəaliyyətlərin operativliyini təmin etmək, əsasnamədə qeyd olunan vəzifə və səlahiyyətləri yerinə yetirmək məqsədilə təşkil olunmuşdur.

KT komissiyasının strukturu, fəaliyyəti, vəzifə və səlahiyyətləri KT şöbəsinin əsasnaməsində yer almaqdadır.

**2.2.2. ATM-in daxili keyfiyyət təminatı üzrə Komissiyasının fəaliyyət planı və iş bölgüsü.**

BMU Keyfiyyətin Təminatı Şöbəsi KT komissiyası ilə birgə müzakirələr apararaq fəaliyyəti birgə tənzimləməkdədir. KT şöbəsi fəaliyyət planına uyğun olaraq KT komissiyasına məsələlərin müzakirəsini təqdim edərək təhlil və təkliflərini verməkdədir. KT şöbəsi qurulduğu gündən etibarən hər tədris ili üçün "Fəaliyyət planı"na uyğun fəaliyyətini həyata keçirir.

**2.2.3. ATM-in daxili keyfiyyət təminatı üzrə Komissiyasının hesabatları**

KT komissiyası yarandığı tarixdən etibarən keçirilən iclas protokolları mövcuddur. KT şöbəsi müxtəlif sənədlərinin müzakirəsi, rəy və təkliflərin alınması məqsədilə drive.google tətbiqi

üzərindən KT komissiyasının üzvləri ilə mütəmadi şəkildə virtual müzakirə sahələri yaratmışdır.

Hər il fərqli istiqamətlərdə KT şöbəsinin hesabatları Elmi Şurada müzakirə edilir. KT şöbəsi universitetin idarəetməsində yaranan problemləri və təklifləri mütəmadi olaraq həm Elmi Şurada, həm də rektorla görüşərək çevik qərarvermə mexanizmini istifadə edir.

**2.2.4. ATM-in daxili keyfiyyət təminatı üzrə Komissiyasının hesabatlarının müzakirəsi üzrə iclaslar, görüşlər, tədbirlər və s. (əmrlər, protokollar, press-relizlər, nəşrlər və s.)**

İclas protokolları, əsasnamələr, TKTA və eyni zamanda universitetdaxili təlimlər, Keyfiyyət Təminat komissiyasında müzakirə edilən məsələlər və digər müzakirəyə çıxarılan məsələlər, mətbuatda yayımlanan xəbərlər.

**2.2.5. ATM-in daxili keyfiyyət təminatı sistemində maraqlı tərəflərin iştirakını əsaslandıran iclaslar, görüşlər, tədbirlər və s. (protokollar, izahatlar, press-relizlər, nəşrlər və s.)**

ATM-də Universitet fəaliyyətinin nəticələrinə maraqlı olan daxili (təhsilalanlar, professor-müəllim heyəti və əməkdaşlar) və xairici (məzunlar, işəgötürənlər, qanunverici və icraedici orqanlar, tərəf müqabilləр) tərəflərin də iştirak etdiyi bir sıra təlim və tədbirlərə, görüşlərə imza atılmışdır.

**2.2.6. Keyfiyyət təminatı ilə bağlı ATM-in Özünütəhlil Hesabatları**

Universitet, Keyfiyyət İdarəetmə Sisteminin davamlılığını, səmərəliliyini və fəaliyyətini təmin etmək məqsədi ilə ildə bir dəfə Himayəçilər Şurasının təşkilatçılığı altında müəssisənin idarəetməsinə dair hesabat keçirir. KİK sədrinin də iştirak etdiyi bu hesabatda keyfiyyət siyasəti və keyfiyyət məqsədləri də daxil olmaqla Keyfiyyət İdarəetmə Sistemi ilə əlaqəli məsələlər müzakirə olunur. Hesabatlar universitet rektorunun göstərişi ilə Elmi Katib tərəfindən müzakirəyə çıxarılır.

**Hesabatlılıq və monitorinq resursları**

1. Sorğuların nəticələri, strukturlar tərəfindən hazırlanmış Keyfiyyət İdarəetmə Hesabatları;
2. Monitorinq nəticələri;
3. Prosesin işləməsi və xidmətə uyğunluğu barədə məlumatlar;
4. Düzənləyici və önləyici fəaliyyətlər (DÖF);
5. Rəhbərlikdə əvvəlki iclaslarda müzakirə olunmuş mövzularda çatışmazlıqların aradan qaldırılması ilə bağlı görülən tədbirlər;
6. Keyfiyyət İdarəetmə Sisteminə təsir edə biləcək dəyişikliklər;

Bundan başqa, son iki ildə SWOT analizi ilə təhlillər aparılaraq universitet rəhbərliyinə hesabatlar təqdim edilir.

**2.2.7. ATM-in daxili keyfiyyət təminatı sistemi barədə məlumatlandırılmanı təsdiq edən mənbələr (rəsmi istinadlar, məlumatlar, nəşrlər, press-relizlər və s.)**

Universitet Rəhbərliyi, keyfiyyət təminatının inkişaf etdirilməsi, tətbiq olunması və effektivliyinin daim təkmilləşdirilməsi məqsədi ilə:

- Hüquqi çərçivədə müştəri gözləntilərinin və tələblərinin yerinə yetirilməsinin vacibliyini işçilərə universitetdaxili təlimlərlə çatdırır;
- Davamlı olaraq universitet idarəetməsinin nəzərdən keçirilməsi ilə bağlı toplantılar keçirir və resursları təmin edir;

- Keyfiyyət Əl Kitabı: Keyfiyyət təminat sistemi sənədi olan "Keyfiyyət Əl Kitabı", Bakı Mühəndislik Universitetinin İSO 9001:2015 Beynəlxalq Standartlarının tələblərinə əsasən işlənib hazırlanmış keyfiyyət menecment sisteminin təsvirini özündə əks etdirir.

**2.2.8. Maraqlı tərəflərin məmnunluq səviyyəsinin və rəylərinin öyrənildiyini təmin edən keyfiyyət prosesi və əlaqəli sənədlər (sorğular, hesabatlar və s.)**

Maraqlı tərəflərin, xüsusən də tələbə və işçi heyətinin məmnunluğunu artırmaq, ehtiyaclarını və gözləntilərini qarşılamaq, təklif və rəylərini öyrənmək məqsədilə universitetdə Keyfiyyət Təminatı Şöbəsinin keçirdiyi anket sorğularına müraciət edilir. Bu anket sorğuları keyfiyyət anlayışına müxtəlif aspektlərdən yanaşmanı nəzərə alaraq hazırlanır. Universitetdə EMS (Elektron Məlumat Sistemi) geniş imkanlara malik olduğu üçün anket sorğularının keçirilməsi olduqca rahatdır və internet imkanları daxilində hər yerdə əlçatandır. Bu baxımdan PMS (personal məlumat sistemi) və TMS (tələbə məlumat sistemi) üzərindən sorğu keçirilməkdədir.

Tədris prosesinin qiymətləndirilməsi ilə bağlı indiyədək 9 anket sorğusu keçirilmişdir. "Tələbə məmnuniyyəti anketi", "Təcrübənin qiymətləndirilməsi anketi" də maraqlı tərəf kimi çıxış edən tələbələrin məmnunluğunu artırmaq, ehtiyaclarını və gözləntilərini qarşılamaq, təklif və rəylərini, problemlərini öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Təcrübənin qiymətləndirilməsi ilə bağlı keçirilən anket sorğusu isə maraqlı tərəf sayılan işəgötürənlər haqda, təcrübənin faydası, mövcud problemlərin aradan qaldırılması baxımından əhəmiyyət kəsb edir.

Anket sorğuları arasında, eləcə də, universitet əməkdaşlarının məmnuniyyəti anketini də qeyd etmək lazımdır. EMS üzərindən keçirilən 33 sualdan (3 açıq tipli) ibarət bu sorğuda bütün Universitet əməkdaşları iştirak etməkdədir. Sorğu ATM tərəfindən təşkil olunan sosial fəaliyyətlərin, təqdim olunan müxtəlif xidmətlərin və mövcud şəraitin qiymətləndirilməsi məqsədilə keçirilməkdədir. Sorğunun əhəmiyyəti, aparılan prosesin səmərəliliyi, məqsədlərə nail olma səviyyəsi və başlıca olaraq sorğu məhsulunun hazırlanması anket sorğusunun hesabat aktında öz əksini tapır.

**2.2.9. Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

Son iki ildə SWOT analizi ilə təhlillər aparılaraq universitet rəhbərliyinə təqdim edilir. Qarşılaşılan və görülən problemlər sistematik şəkildə həll edilir. Məqsəd proseslərin asan və əlçatanlığını təmin etməkdir.

**2.2.10. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

Universitet ilk dəfə akkreditasiyadan keçir.

**2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

Son beş ildə universitet maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi üçün fərqli hədəf kütlələrə ünvanlanan sorğular aparmışdır. Buraya tələbə, məzun, işəgötürənlər, fərqli yerli və xarici akademik sahədə olan əməkdaşlıq etdiyimiz təşkilatlar daxildir. Qeyd etməliyik ki, bu sorğuların bəziləri QS Beynəlxalq reytinq tərəfindən aparılmaqdadır. Və son 3 ildə universitet həm QS, həm də THE reytinq cədvəlində yüksəlməkdədir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

2.3. Keyfiyyət təminatı mədəniyyəti

**2.3.1. ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması**

Davamlı olaraq KTŞ tərəfindən korporativ elektron poçt vasitəsi ilə yeniliklər və dəyişikliklər əməkdaşlara çatdırılır. Hər hansı bir problem yarandıqda KT komissiyası ilə birgə həmin istiqamətdə məsul prorektorlarla müzakirələr aparılaraq həll yolları axtarılır.

KT şöbəsi universitet rəhbərləri üçün Keyfiyyət İdarəetmə sisteminin təşkili ilə bağlı təlimlər keçirmiş və mütəmadi olaraq hər bir prorektorla görüşlər keçirərək işin və prosesin yaxşılaşdırılması istiqamətində birgə müzakirə və təhlillər aparmaqdadır. Akkreditasiya və özünütəhlil hesabatının hazırlanması, sənədlərin əlçatanlığı ilə bağlı fərdi və komanda şəklində görüşlər həyata keçirilmişdir.

ATM rəhbərliyinin keyfiyyət təminatı sisteminin bütün mərhələlərində iştirakını təsdiq edən sənədlər və digər əsaslar.

KT Komissiyasınının iclas protokolları.

KT şöbəsinin universitetin Elmi Şurasındakı hesabatları.

KT şöbəsinin universitetin prorektorları ilə akkreditasiya mövzusu ilə bağlı görüşləri.

İSO sertifikatının əldə edilməsi ilə bağlı aparılan müzakirələr və ayrılan maliyyə vəsaiti.

Davamlı olaraq universitetdaxili tətbiq edilən normativ qaydalar, təlimatlar akademik və inzibati heyətlə çatdırılmaqdadır. Hər hansı bir qayda və ya təlimat işləyişə qoyulmadan əvvəl mütləq şəkildə həmin hədəf kütləyə təlimlər vasitəsilə çatdırılır.

**2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması**

Keyfiyyət təminatı müasir təhsilin prioritet mövzularından biridir. Səbəb isə keyfiyyət anlayışına son illər duyulan ehtiyacın daha da artmasından irəli gəlməkdədir. Bu isə öz növbəsində hər sahədə olduğu kimi təhsil sahəsində də rəqabətin artması ilə izah oluna bilər. Bu baxımdan hər sahədə olduğu kimi, təhsil müəssisəsində də keyfiyyət mədəniyyətinin formalaşması üçün keyfiyyətin təmin olunması vacibdir. Bakı Mühəndislik Universiteti 2020-ci ildən etibarən öncə Distant Təhsil və Keyfiyyətin Təminatı Mərkəzi (DTKT), daha sonra isə KT şöbəsi adı altında müəssisənin keyfiyyət təminatı sisteminin quruculuğuna başlamışdır. KT şöbəsində keyfiyyət mədəniyyətinin formalaşması üçün qoyulan əsas hədəflərdən aşağıdakıları qeyd etmək olar:

1. Şöbənin fəaliyyətinin əsas məqsədi universitetin keyfiyyət menecmenti sisteminin fəaliyyətini təşkil etmək;
2. Müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışını təmin etmək;
3. Universitetdə müştərilərin tələb və şərtlərinin yayılmasını təmin etmək;
4. Nəzarət mexanizminin təşkili.

Ölçmə, təhlil, təkmilləşdirmə prosedurunda – universitetin fəaliyyətinin səmərəliyinə və müştəri məmnuniyyətinə əmin olmaq üçün proseslərin və təhsil xidmətlərinin ölçülməsinin, tətbiq olunan ölçmə metodlarının təhlilinin, təkmilləşdirmə fəaliyyətinə nəzarətin, təkmilləşdirmə üzrə fəaliyyətin həyata keçirilməsi zamanı əldə olunmuş məlumatların təhlilinin, təkmilləşdirmə məqsədlərinə nail olmaq üçün mümkün həllərin axtarışının, təkmilləşdirmə üzrə təkliflərin hazırlanmasının təmin olunmasına yönəlmiş işlərin məcmusu əks etdirir.

**Ölçmə və təhlil**

- **Müştəri məmnuniyyəti**

Universitetin tədris xidmətinin göstərilməsi zamanı müştəri gözləntilərinin qarşılanmasının ölçmə və təhlil fəaliyyəti aşağıdakı metodlarla həyata keçirilir:

1. Müştəri ilə fərdi şəkildə üzbəüz görüşərək (tyutorlar, kafedra müdirləri, dekanlar, rektor, müəllimlər və əlaqəli inzibati nəzarətçilər keçirir);
2. Müştərilərlə qruplar şəklində üzbəüz görüşərək (kafedra və fakültə görüşlərində, ailə görüşlərində tyutorlar, kafedra müdirləri və dekanlar keçirir);
3. Anketlər (Keyfiyyət Təminat Şöbəsi);
4. Müştəri şikayətləri (tələbə, ailə şikayət ərizələri);
5. Müştərilərin universiteti seçmə səbəblərini araşdırmaq.

Universitet göstərilən xidmətlər müqabilində müştəri məmnuniyyətini ölçmək və təhlil etmək üçün aşağıdakı üsullardan istifadə edir:

1. Məzunların çalışdığı iş yerləri, müəssisə rəhbərləri ilə görüşüb onların işdəki müvəffəqiyyətləri haqqında məlumat alaraq (Karyera Planlama Departamenti həyata keçirir);
2. Universitet haqqında rəsmi qurumların qiymətləndirmələri;
3. Medianın universitet haqqındakı qiymətləndirmələri;
4. Dövlət sektorunda çalışan məzunların uğurlarından rəhbərliyin razılığı haqqında məlumatlar (Karyera Planlaması Departamenti tərəfindən aparılır);
5. Digər ali məktəblərdə magistr təhsilinə davam edən tələbələrlə bağlı məlumatlar (Karyera Planlama Departamenti həyatai keçirir);

Keyfiyyət Təminatı Şöbəsinin Monitorinq mərkəzi tələbə məmnuniyyəti sorğularının məlumat bazasını hazırlayır. Hər bir struktur özü ilə bağlı sorğu nəticələrini təhlil edir, qiymətləndirir və rəhbərliyə məlumat verir.

Rəsmi strukturlar tərəfindən edilən qiymətləndirmələrlə bağlı universitetin Tədris şöbəsi, İctimaiyyətlə Əlaqələr Şöbəsi tədris ilinin sonunda müəssisənin rəhbərliyinə yazılı hesabat təqdim edir. Digər üsullarla ölçülən, təhlil edilən xidmət keyfiyyəti və müştəri məmnuniyyətinin nisbəti bu metodu tətbiq edən strutkur tərəfindən tədris ilinin sonunda müəssisə rəhbərliyinə təqdim olunur. Bu barədə Keyfiyyətin Təminatı Şöbəsinin müdiri təqdim edəcəyi hesabatda məlumat verir.

Müştəri şikayətlərinin qiymətləndirilməsi prosesi, "Düzənləyici və Önləyici fəaliyyətlər" prosedurunda təsvir edilmişdir.

Hər semestr ərzində KT şöbəsi universitet əməkdaşları və tələbə kollektivi arasında müxtəlif səpkidə anket sorğuları təşkil etməkdədir. Keçirilən sorğular əməkdaşların, tələbələrin ehtiyaclarının, istək və təkliflərinin öyrənilməsi, narazılıqların ayrı-ayrı struktur şöbələrdə təhlil edilərək aradan qaldırılmasında əhəmiyyət kəsb edir. Anket sorğuları tam anonim şəkildə keçirildiyi üçün hər zaman yüksək qatılım müşahidə olunur. Aşağıda KT şöbəsində keçirilən anket sorğuları qeyd olunmuşdur.

- İşçilərin universitetlə bağlı ümumi anketi;
- Tələblərin ümumi anketi;
- Dərslərə görə müəllimlər anketi;

– Təcrübənin qiymətləndirilməsi

**2.3.3.Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər**

**İdarəetmənin məsuliyyəti**

- **İdarəetmə**

Keyfiyyət Siyasəti rəhbərlik tərəfindən hazırlanmış və dərc olunmuşdur; universitet rəhbərliyi Keyfiyyət İdarəetmə Sisteminin inkişaf etdirilməsi, tətbiq olunması və effektivliyinin daim təkmilləşdirilməsi məqsədi ilə:

- Hüquqi çərçivədə müştəri gözləntilərinin və tələblərinin yerinə yetirilməsinin vacibliyini işçilərə universitetdaxili təlimlərlə çatdırır.
- Davamlı olaraq universitet idarəetməsinin nəzərdən keçirilməsi ilə bağlı toplantılar keçirir.
- Resursları təmin edir.

**- Müştəri mərkəzlilik**

Universitetin müştəriləri tələbələr və onların ailələridir. Universitet keyfiyyət hədəfləri müəyyənləşdirmək üçün müştəri mərkəzli bir yanaşma nümayiş etdirir. Bu yanaşmanın tələbləri **Keyfiyyət Əl Kitabının 7.2.1 ve 8.2.1** maddələrində izah edilmiştir.

**2.3.4. Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti**

Universitet rəhbərliyi müəssisədə müvafiq ünsiyyət proseslərinin qurulmasını və keyfiyyət idarəetmə sisteminin effektivliyi nəzərə alınmaqla universitetdaxili ünsiyyət təlimatının həyata keçirilməsini təmin edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 3.TƏLİM VƏ TƏDRİS

3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

**3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti**

Hər il fakültə Elmi şuralarında faktiki qəbul təhlil edilir, kafedranın professor-müəllim heyətinin sayı və maddi-texniki baza imkanları, məzunların işlə təminatı nəzərə alınaraq ixtisaslar (ixtisaslaşmaların) üzrə növbəti tədris ilinə tələbə qəbulu proqnozu müəyyənləşdirilir və rektorluğa təqdim edilir. Fakültə Elmi şuralarından gələn təkliflər universitetin Elmi şurasında müzakirə edilərək yekun plan yerləri barədə qərar qəbul edilir və Elm və Təhsil Nazirliyinə təqdim edilir.

**3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimallıq vəziyyəti**

Ölkədə və dünyada gedən inkişaf və əmək bazarının tələbələri nəzərə alınaraq son illər BMU-da Elektron idarəetmə, Memarlıq mühitinin dizaynı, Kompüter elmləri, Elektrik və elektronika mühəndisliyi, İnformasiya təhlükəsizliyi, Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) kimi bir sıra yeni ixtisaslar (ixtisaslaşmalar) açılmış, bəzi ixtisaslara (ixtisaslaşmalara) (Maşın və mexanizmlər nəzəriyyəsi, Mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi,

Elektroenergetika mühəndisliyi, Elektrik mühəndisliyi, Sistem mühəndisliyi) tələbə qəbulu dayandırılmışdır. Bundan başqa ixtisaslar (ixtisaslaşmaların) üzrə tələbə qəbulunun sayı da əmək bazarının tələbatına uyğun olaraq tənzimlənmişdir.

**3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti**

Növbəti ilin tələbə qəbulu sifarişləri hazırlanarkən il ərzində iş dünyası ilə keçirilmiş görüşlərdə əldə olunmuş məlumatlar, təcrübə rəhbərlərinin müəssisələrdə olarkən əldə etdikləri rəy və təkliflər nəzərə alınır. Azərbaycan Respublikasının Hesablama Palatası, Dövlət İmtahan Mərkəzi, Maliyyə Nazirliyinin yanında Maliyyə Elm-Tədris Mərkəzi, Cahan Holding, Bizcon Consulting Azerbaijan, PMD Projects MMC, Veysəloğlu MMC, Norm ASC, BP, SOCAR, Azərtexnoline, Abşeron Logistika Mərkəzi, PAŞA Holding, UNİCO QSC, Azərsun Holdinq və digər müəssisə və təşkilatlarla keçirilmiş görüşlər zamanı onların verdiyi təkliflər tələbə qəbulu üzrə sifarişlərin formalaşmasında diqqətə alınır. Bu görüşlərdə xüsusən ingilis dilində tədrisin aparılmasının əhəmiyyətliliyindən formalaşan təkliflər yeni qəbul yerləri üzrə sifarişlərin verilməsində öz əksini tapmışdır.

**3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin, kreditlərinin tanınma və nəzərə alınma vəziyyəti**

BMU-ya qəbul olmuş subbakalavrların əvvəlki təhsildə qazandıqları kreditlərinin tanınması üçün fənlərin adlarının, kreditlərinin və məzmununun ixtisasın bakalavr səviyyəsində tədris olunan fənlərə uyğunluğu müvafiq kafedra tərəfindən araşdırılır. Məzmun və kreditləri uyğun gələn fənlərin krediti tanınır. Fənlərin kreditlərinin tanınması üçün kafedra müvafiq formaya uyğun Tədris işləri üzrə prorektora müraciət edir. Kreditlərin tanınması BMU-nun Elektron Məlumat Sistemində (EMS) Tədris hissəsi tərəfindən icra olunur. Universitetə köçürülən tələbələrin əvvəlki təhsildə qazandıqları kreditlər də eyni qaydada tanınır.

Müsabiqə əsasında universitet tərəfindən əcnəbi təhsilalanların qəbulu zamanı onların əvvəlki təhsil sənədlərinin tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) prosesində mövcud qanunvericiliyin tələbləri gözlənilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur.)

3.2. Təhsil proqramları

**3.2.1. ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi**

BMU-da ali təhsilin hər üç səviyyəsi üzrə kadr hazırlığı aparılır. Bakalavriat səviyyəsi üzrə 4 fakültədə 25 ixtisas (bunlardan 4 ixtisas həm də Koreyanın İNHA Universiteti ilə ikili diplom proqramıdır), magistratura səviyyəsi üzrə 19 ixtisas (33 ixtisaslaşma), o cümlədən, 6 MBA proqramı üzrə, doktorantura təhsil səviyyəsində isə 10 ixtisasda kadr hazırlığı aparılır.

**3.2.2. ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti**

BMU-da tədris olunan təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunluğu daim diqqət mərkəzindədir. Bu istiqamətdə görülən işlərə misal olaraq, BMU-da 4 mühəndislik ixitsası (İnformasiya texnoligiyaları, Elektrik mühəndisliyi, Elektronika mühəndisliyi və İnşaat mühəndisiliyi) üzrə təhsil proqramları Koreyanın nüfuzlu ali təhsil müəssisəsi olan İNHA Universiteti ilə birlikdə hazırlanmışdır. Maliyyə və mühasibat ixtisasları ACCA (The Association of Chartered Certified Accountants) tərəfindən 01 yanvar 2023 -31 dekabr 2027 tarixinə qədər akkreditə edilməklə bu təhsil proqramlarının əmək bazarının və cəmiyyətin

tələblərinə uyğunluğu öz təsdiqini tapmışdır. Qeyd olunlanlara əlavə olaraq digər ixtisaslarda da seçmə fənnlər tədris planlarına daxil edirlirkən əmək bazarının tələbləri gözlənilir.

### 3.2.3. ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

BMU-da təhsilin bütün səviyyələri üzrə ixtisas və ixtisaslaşmaların tədris planları dövlət standartlarına uyğun olaraq hazırlanmışdır. Belə ki, ixtisas və ixtisaslaşmaların tədris planları ARETN-nin 640 nömrəli, 30.09.2016-cı il tarixli, F-370 nömrəli, 28.07.2020-ci il tarixli,, F-354 nömrəli, 30.07.2020-ci il tarixli, F-386 saylı, 28.08.2020-ci il tarixli, F-463 nömrəli, 2022-cı il tarixli, magistratura ixtisaslarının dövlət standartları və ARETN-nin F-343 nömrəli, 09.07.2020-ci il tarixli, 1463 nömrəli, 31.08.2012-ci il tarixli, F-381 nömrəli, 21.08.2020-ci il tarixli, 640 nömrəli, 30.09.2016-cı il tarixli magistratura ixtisaslarının dövlət standartları və 13 avqust 2020-ci il tarixli, 370 nömrəli qərarları ilə təsdiqlənmiş bakalavriat ixtisaslarının dövlət standartlarında nəzərdə tutulmuş ixtisas fənləri tədris planlarında öz əksini tapmışdır. BMU-da mövcud ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunu təmin etmək məqsədi ilə qabaqcıl universitetlərin təcrübəsi öyrənilmiş və tədris planlarının seçmə fənlər blokunda nəzərə alınmışdır.

### 3.2.4. Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

“Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi (AzMKÇ)” AR Nazirlər kabinetinin 18 iyil 2018-ci il tarixli, 311 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bu sənəd bütün təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmışdır və milli kvalifikasiyaların beynəlxalq kvalifikasiyalarla uyğunluğuna xidmət edir. Kvalifikasiyalar “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq formal, qeyri-formal və informal təhsil nəticəsində əldə olunur.

BMU verilən kvalifikasiyaların keyfiyyətinin və beynəlxalq kvalifikasiyalarla müqayisə oluna bilmə aspektinin xaricdə daha geniş tanınması, insan resurslarının rəqabətqabiliyyətliliyinin və mobilliyinin artırılması yolu ilə təhsilalanların və əməkdaşların milli və beynəlxalq mobilliyini dəstəkləyir.

BMU-da Milli Kvalifikasiyalar Çərçivəsinin 6, 7 və 8-ci kvalifikasiya səviyyələri üzrə kadrlar hazırlanır. Kvalifikasiyalar müvafiq dövlət təhsil standartlarına əsaslanır. Belə ki, 6-cı səviyyəyə uyğun olaraq bakalavr diplomu, 7-ci səviyyəyə uyğun olaraq magistr diplomu verilir və 8-ci səviyyəyə uyğun olaraq fəlsəfə doktoru proqramı üzrə kadr hazırlığı həyata keçirilir. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırda universitetdə formal, qeyri-formal və informal təhsil imkanlarından yalnız birincisindən istifadə edilir.

### 3.2.5. Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

BMU-nun bütün ixtisaslar (ixtisaslaşmalar) üzrə 2020-2021-ci illərdə təsdiq olunmuş Təhsil proqramları əsasında mövcud qaydalara uyğun olaraq hazırlanmış və təsdiq edilmiş tədris planları mövcuddur. İxtisasların Təhsil proqramlarına uyğun olaraq hər bir fənnin təlim nəticələri müəyyənləşdirilmiş və vahid formada sillabusunun hazırlanması həyata keçirilmişdir. Təlim nəticələri təhsil proqramında verilmiş formaya uyğun hazırlanmış, təlim nəticələri matrisində isə fənlərlə təlim nəticələri arasında əks əlaqə göstərilmişdir.

### 3.2.6. Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Bakalavr təhsili proqramlarında ümumi fənlərə 30 AKTS, ixtisas fənlərinə 120 AKTS, universitet tərəfindən müəyyən edilən fənlərə 60 AKTS və təcrübə 30 AKTS (əvvəlki təhsil

proqramlarına görə 21 AKTS təcrübə, 9 AKTS dövlət attestasiyası) olmaqla cəmi 240 AKTS ayrılmışdır.

Magistr təhsili proqramlarında "Texniki və texnoloji ixtisaslar qrupu" və "Humanitar və sosial ixtisaslar qrupu"na aid olan ixtisaslarda humanitar fənlər bölümünə 14 AKTS, ixtisas (ixtisaslaşma) fənlər bölümünə 52 AKTS, universitet tərəfindən müəyyən edilən fənlərə 24 AKTS, təcrübəyə 12 AKTS və magistr dissertasiyasının hazırlanmasına 18 AKTS olmaqla cəmi 120 AKTS ayrılmışdır.

Magistr təhsili proqramlarında "İqtisadiyyat və idarəetmə ixtisasları qrupu"nda ixtisas (ixtisaslaşma) fənlər bölümünə 60 AKTS (o cümlədən, universitet tərəfindən müəyyən edilən fənlərə 12 AKTS), elmi-tədqiqat işləri bölümünə 60 AKTS (bunlardan təcrübəyə 12 AKTS, tədqiqat işinin aparılmasına 12 AKTS və magistrlik dissertasiyasının hzırlanması və müdafiəsinə 36 AKTS) olmaqla cəmi 120 AKTS ayrılmışdır.

Magistr təhsili proqramlarında "Biznesin idarə edimәsi" ixtisasının MBA proqramı üzrə isə ixtisas (ixtisaslaşma) fənlər bölümünə 90 AKTS olmaqla cəmi 90 AKTS ayrılmışdır.

**3.2.7. Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu:**

Tədris planları Dövlət Standartlarında öz əksini tapan ümumi və ixtisas fənlərinə əsasən tərtib olunmuşdur (150 AKTS). Seçməli fənlər bloku (60 AKTS) əmək bazarının ehtiyacı, ixtisasların (ixtisaslaşmaların) xüsusiyyətləri, mövcud maddi-texniki baza nəzərə alınaraq, kafedraların təklifi əsasında tərtib olunmuşdur. Tədris planlarının tərtibi zamanı fənlərin məntiqi uzlaşması və ardıcıllığına diqqət olunmuşdur.

**3.2.8. Həftəlik auditoriya və auditoriyadankənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu:**

Dərs saatlarının bölgücü mövcud qayda və tələblərə uyğun aparılmışdır. Belə ki, illik işçi tədris planlarında hər semestr 30 AKTS olmaqla, həftəlik orta hesabla bakalavriatda 23, magistraturada 16 auditoriya saatı nəzərdə tutlmuşdur. Ümumi olaraq, BMU-da dərs saatlarının bölgüsü AKTTS-yə uyğun aparılmışdır. Auditoriyadan kənar saatların miqdarı fənnin AKTS və auditoriya saatlarına uyğun olaraq, “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 saylı qərarına əsasən müəyyən edilir.

ETN tərəfindən təsdiq olunmuş təhsil proqramlarında bəzi fənlərə verilən AKTS-lər fənnin mənimsənilməsi üçün tələb olunan saatlar Avropanın qabaqcıl universitetlərinin tədris proqramlarından ciddi fərqlənir (məsələn, mikro iqtisadiyyat, makro iqtisadiyyat, ekonometrika, sərt bacarıqlar, statistika və s.)

**3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı**

Təhsil proqramları BMU-nun web saytında https://beu.edu.az/az/page/tehsil-proqramlari-357 yerləşdirilmişdir. Bununla da təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı təmin olunmuşdur.

**3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti**

Təhsil proqramları ETN tərəfindən təşkil olunmuş komissiya tərəfindən hazırlanır. BMU-da seçmə fənlərin müəyyən edilməsində universitet-sənaye əməkdaşlığı çərçivəsində müəssisələrdən tədrisə cəlb olunmuş mütəxəssislərlə aparılan müzakirələr, işəgötürən müəssisələrə təşkil olunan ekskursiyalar nəticəsində əldə olunmuş məlumatlar nəzərə alınır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur.)

3.3. Tədrisin təşkili

**3.3.1. Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti**

İxtisasların (ixtisaslaşmaların) tədris planları Təhsil proqramlarına uyğun olaraq, kredit sisteminin tələbləri nəzərə alınmaqla tərtib edilib, Tədris-Metodiki şurada müzakirə olunaraq ( 28.10.2020-ci il tarixli iclasın 15 №li protokolu ) Universitetin Elmi Şurasında ( 24.11.2020-ci il tarixli iclasın 37 nömrəli protokolu) təsdiq edilib.

**3.3.2. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti**

Bütün ixtisaslar (ixtisaslaşmalar) üzrə tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki və tədris illəri üzrə işçi tədris planları mövcuddur.

**3.3.3. Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti**

Bakalavr təhsil səviyyəsində ümumi fənlərə 30 AKTS, ixtisas fənlərinə 120 AKTS, universitet tərəfindən müəyyən edilən fənlərə 60 AKTS və təcrübə 30 AKTS (əvvəlki təhsil proqramlarına görə 21 AKTS təcrübə, 9 AKTS dövlət attestasiyası) olmaqla cəmi 240 AKTS ayrılmışdır.

Magistr təhsili səviyyəsində "Texniki və texnoloji ixtisaslar qrupu" və "Humanitar və sosial ixtisaslar qrupu"na aid olan ixtisaslarda humanitar fənlər bölümünə 14 AKTS, ixtisas (ixtisaslaşma) fənlər bölümünə 52 AKTS, universitet tərəfindən müəyyən edilən fənlərə 24 AKTS, təcrübəyə 12 AKTS və magistr dissertasiyasının hazırlanmasına 18 AKTS olmaqla cəmi 120 AKTS ayrılmışdır.

Magistraturanın təhsil proqramlarında "İqtisadiyyat və idarəetmə ixtisasları qrupu"nda ixtisas (ixtisaslaşma) fənlər bölümünə 60 AKTS (o cümlədən universitet tərəfindən müəyyən edilən fənlərə 12 AKTS), elmi-tədqiqat işləri bölümünə 60 AKTS (bunlardan təcrübəyə 12 AKTS, tədqiqat işinin aparılmasına 12 AKTS və magistrlik dissertasiyasının hzırlanması və müdafiəsinə 36 AKTS) olmaqla cəmi 120 AKTS ayrılmışdır.

Magistr təhsili proqramlarında "Biznesin idarə ediməsi" ixtisasının MBA proqramı üzrə isə ixtisas (ixtisaslaşma) fənlər bölümünə 90 AKTS olmaqla cəmi 90 AKTS ayrılmışdır.

**3.3.4. Tədris planında ümumi və ixtisas fənlərin arasında balansın saxlanılması vəziyyəti**

Tədris proqramında nəzərdə tutlmuş 12.5 % lik ümumi fənlər və 50% ixtisas fənləri BMU-da olan ixtisasların tədris planlarında öz əksini tapmışdır.

**3.3.5. Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

İxtisasların ETN tərəfindən təsdiq olunmuş Təhsil proqramlarında təlim nəticələri aydın göstərilmişdir. Bu sənəddə müəyyən edilən fənlərin təlim nəticələri öz əksini tapmışdır. Fənn proqramları həmin təlim nəticələri əsasında ixtisasların xüsusiyyətləri nəzərə alınaraq hazırlanır. Seçmə fənlərin təlim nəticələri isə ixtisas kafedraları tərəfindən tərtib edilir və onlar əsasında fənn proqramları hazırlanır. Fənn proqramlarının kafedra iclaslarında, fakültənin Elmi şurasında və universitetin tədris-metodiki şurasında müzakirə olunaraq uyğunluğu yoxlanılır və təsdiq olunur. Bəzi hallarda digər universitetlər tərəfindən hazırlanmış fənn proqramlarından istifadə olunur.

**3.3.6. Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Fənn proqramları əsasında fənni tədris edən müəllimlər tərəfindən sillabuslar hazırlanır. Semestrlər üzrə hazırlanmış sillabuslar kafedraya təqdim olunur, kafedra iclaslarında müzakirə və təsdiq edilir. Təsdiq olunmuş sillabuslar Google Classroom platforması vasitəsi ilə tələbələrlə paylaşılır.

**3.3.7. Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

Təhsil proqramlarındakı ümumi fənlər, ixtisas fənləri və universitet tərəfindən müəyyənləşdirilən fənlər semestrlər üzrə 30 AKTS-lik və fənlərin məntiqi ardıcıllığı gözlənilərək fənnlərin sayı müəyyənləşdirilir. Semestrdə tədris olunan fənlərin sayı orta hesabla 5-6, həftəlik auiditoruya saatı 22-23 saat təşkil edir. Həftəlik ümumi dərs yükü 30 AKTS olduğuna görə tələbənin dərsdənkənar məşğələlərə kifayət qədər vaxtı qalır.

**3.3.8. Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

BMU-da tələbələrin istifadə etdiyi elektron məlumat sistemindəki şəxsi kabenitlərindən tədrislə bağlı bütün məlumatları əldə etmə imkanları vardır. Tələbələr təhsil aldıqları müddət ərzində ixtisaslarının tədris planları haqqındakı məlumatları (tədris planında semestrlər üzrə nəzərdə tutulmuş fənnlər sayı, müvafiq kreditləri və fənləri tədris edəcək müəllimlərin adları) əldə edəbilirlər. Hər bir tələbə tədris ilinin sonunda növbəti tədris ili üçün elektron məlumat sistemindən (TMS) özünün fərdi tədris planını təsdiqləyir və hər semesterin əvvəlində bu tədris planı üzərində dəyişiklik edə bilirlər.

**3.3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

İxtisasın (ixtisaslaşmanın) illik işçi tədris planı elektron sistemdə tədris planın ilə bərabər yerləşdirilmişdir. Bu işçi tədris planları tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmışdır. İşçi tədris planlarında hər tədris ilində tədris olunacaq fənlərin adları, dərsin növü, fənlərin kreditləri öz əksini tapır. İllik işçi tədris planları dörd illik hazırlandığından bu sənəddə tələbələrin sayı qeyd olunmur.

**3.3.10. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

EMS-də kafedranın tədris yükü müəyyən olunduqdan və fənləri tədris edən müəllimlər təyin edildikdən sonra müəllimin illik işçi tədris planı sistem tərəfindən avtomatik formalaşır. Bu illik işçi tədris planında hər semester üçün müəllimin tədris etdiyi fənlər, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarı və dərs üçün qeydiyyatdan keşmiş tələbələrin sayı öz əksini tapır.

**3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

Tədris planında fənlərin mühazirələr, seminarlar, praktik məşğələlər və laboratoriya dərsləri şəklində keçirilməsi öz əksini tapır. Bu bölgüdə ixtisasın və fənnin xüsusiyyətləri nəzərə alınır.

Mühazirə dərsləri ilə birlikdə mühəndislik və bəzi pedaqoji ixtisaslarda laboratoriya və praktik məşğələlər, iqtisadiyyat istiqaməti olan ixtisaslarda isə seminar dərslərinə üstünlük verilir.

**3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti**

BMU-da kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə kömək göstərilməsi məqsədi ilə akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil edilir. Tyutorlar bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan ali təhsilli şəxslər arasından seçilir və rektorun əmri ilə təyin olunur. Tyutorlar tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar, tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edirlər, tələbələrin fərdi tədris planlarının tərtibi üçün onlara məsləhətlər verirlər, ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planlarının tərtibində iştirak edirlər, tələbələrə fərdi tədris planlarında dəyişikliklər aparmasına yardım göstərir və yay semestrinin təşkilində iştirak edirlər. Kafedralar tərəfindən məsləhət xidməti cədvəlləri tərtib olunur və buna əsasən məsləhət xidməti təşkil olunur.

**3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti**

Tələbənin sərbəst işi – tələbənin tapşırıqları müəllimin rəhbərliyi ilə sərbəst və auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir. Tələbələrin sərbəst işlərinin qiymətləndirilməsi AR TN 1060 saylı, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə”nin tələblərinə uyğun olaraq həyata keçirilir. Tələbənin sərbəst işinin növü və forması (fərdi,komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Kredit sistemi ilə tədrisin təşkilində tələbənin sərbəst işi mühüm əhəmiyyət kəsb etməklə, mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Sərbəst işin ümumi qiymətləndirmədəki payı 10 % təşkil edir. Tələbələr hər semestr bütün fənlərdən sərbəst iş hazırlayırlar.

**3.3.14. Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili**

İstehsalat və pedaqoji təcrübə AR Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli, 221 nömrəli qərarı ilə təsdiq edilmiş Əsasnaməsi ilə tənzimlənir. Tədris planında nəzərdə tutulan təcrübə ilə yanaşı, müəssisələrin digər vaxtlarda elan etdikləri könüllü təcrübə proqramlarında tələbələrimizin iştirakını təmin etmək üçün davamlı iş aparılır.

Tədris planında nəzərdə tutulan istehsalat və pedaqoji təcrübənin təşkilinə sentyabr ayından başlanılır. Bununla əlaqədar onlarla müəssisələrə müraciətlər olunur. Keyfiyyətli təcrübə yerlərinin təşkili üçün daha çox ixtisasa uyğun olaraq müvafiq dövlət qurumları, sənaye müəssisələri, banklar və s. müəssisələrlə müqavilə bağlanılır.

Fakültələrdə təcrübəyə göndəriləcək IV kurs tələbələri və onlara təyin olunan rəhbər müəllimlərə təcrübə barədə ətraflı məlumat verilir, təlimlər təşkil olunur.

Müraciət olunan müəssisələrdən verilən təcrübə yerləri ixtisas kafedralarına təqdim olunur. Yanvar ayının sonuna tələbələrin təcrübə yerlərinin bölgüsü yekunlaşır. Müəssisələrə tələbələrin siyahısı, təcrübə rəhbərlərinin adları, təcrübənin qrafiki barədə göndərişlər təqdim olunur. Fevral ayının əvvəli dekanlıqlardan təcrübə şöbəsinə təcrübəyə buraxılan tələbələrin siyahısı olan təqdimatlar təqdim olunur və əmrləşdirilir. Tədris dilinin ingilis dilində olmasını nəzərə alaraq pedaqoji təcrübələr özəl liseylərdə təşkil olunur.

**3.3.15. Stajkeçmənin təşkili vəziyyəti**

Hesabat dövründə universitetin müəllimləri müxtəlif mübadilə proqramları ilə Almaniya, Cənubi Koreya, İtaliya, Rumıniya, Polşa və digər ölkələrdəki universitetlərdə ixtisasları üzrə akademik təcrübələrini artırmışdır. Erasmus+ layihəsi çərçivəsində Beynəlxalq Əməkdaşlıq

Şöbəsi əməkdaşları, o cümlədən akademik heyət Rektorlar Konfransının yaradılması (ECAR) qrant layihəsi çərçivəsində bir çox təlimlərdə iştirak etmişlər. 2017-ci ildə 47 nəfər, 2018-ci ildə 44 nəfər, 2019-cu ildə 59 nəfər, 2020-ci ildə 7 nəfər, 2021-ci ildə 12 nəfər, 2022-ci ildə 56 nəfər xarici ölkələrdə keçirilən təlim və konfranslarda iştirak etmişdir.

**3.3.16. Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti**

Kurs layihəsinin (işi) mövzuları fənn müəllimləri tərəfindən hazırlanır, kafedra iclasında müzakirə və təsdiq olunduqdan sonra tapşırıq formasında tələbələrə verilir. İlkin tapşırıq əsasında yerinə yetirilərək tamamlanmış kurs layihə işlərini fənn müəllimləri, layihə rəhbərləri yoxlayır və təsdiq edir.

Müdafiənin təşkili üçün kafedranın müəllimlərindən və ixtisas üzrə mütəxəssislərindən ibarət komissiya təşkil olunur. Komisiyanın sədri müdafiəyə gələn tələbələri qəbul edir, işi nəzərdən keçirərək komissiya üzvlərindən birinə göndərir, o isə işi bir daha yoxlayır və sual-cavab əsasında tələbəni qiymətləndirir. Komissiyanın katibi ər bir tələbənin ad və soyadını, qrup nömrəsini, fənnin adını, rəhbərin və işi qiymətləndirən komissiya üzvünün ad və soyadını xüsusi jurnalda (protokolda) qeyd edir.

Referatın mövzuları fənn müəllimləri tərəfindən təyin edilir və tələbələrə verilir. O, referatın qəbuluna və qiymətləndirməsinə görə məsuliyyət daşıyır.

**3.3.17. Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti**

BMU-da bakalavr və magistr səviyyələri üzrə yekun attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın , Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin , magistr səviyyəsi üzrə isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın və Azərbaycan Respublikası Təhsil Nazirinin 20.04.1998-ci il tarixli, 202 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”nin tələbləri çərçivəsində həyata keçirilir.

Buraxılış işlərinin və magistr dissertasiyalarının hazırlanması və müdafiəsinin təşkili müvafiq təlimatlara uyğun normativ tələbləri gözləməklə aparılır. Belə ki, bakalavriat və magistratura səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Yekun attestasiya bakalavr səviyyəsi üzrə buraxılış işi müdafiəsindən və ya ixtisas fənləri üzrə imtahanlardan, magistratura səviyyəsi üzrə isə magistrlik dissertasiyası müdafiəsindən ibarətdir.

BMU-da magistr dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclaslarında aparılır. İxtisaslaşdırılmış şuraların işinin təşkili Təhsil Nazirliyinin 10.11.98-ci il tarixli, 742 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış elmi şuralar haqqında” əsasnamənin tələblərinə uyğun həyata keçirilir.

Pandemiya dövrünün tələblərinə uyğun 2021-ci ildə Yekun Dövlət Attestasiyası “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 İyun 2021-ci il tarixli 158 №-li qərarına əsasən buraxılış işinin yerinə yetirilməsi tələbi qoyulmadıqda, tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən, nəzərdə tutulmuş

cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəq qiymət almış tələbə təhsil müddətində əldə etdiyi nəticələrə (ÜOMG-yə) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olub. Təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) uyğun olaraq yekun attestasiyanın qərarı ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) iştirak edib.

**3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti**

BMU-da imtahan sessiyası AR Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na, Elm və Təhsil nazirinin əmrinə və BMU rektorunun əmrinə əsasən təşkil olunur. İmtahan sessiyası müddətində rektorun əmri ilə təşkil olunan İmtahan qərargahı və Apellyasiya komissiyası fəaliyyət göstərir. İmtahanlar əsasən yazılı formada, bəzi fənlər üzrə test formasında təşkil olunur. İmtahan nəticələri imtahan keçirilən gün fənn müəllimi tərəfindən yoxlanılıb EMS-yə daxil edilir. Tələbələr daxil edilən qiymətləri şəxsi kabinetlərində görürlər. Tələbələrin apellyasiya müraciətləri operativ şəkildə araşdırılıb cavablandırılır. Sessiya yekunlaşdıqdan sonra imtahanların nəticələrinə dair yekun hesabatlar hazırlanıb Elm və Təhsil Nazirliyinə göndərilir. İmtahanların nəticələri fakültə və universitet elmi şuralarında müzakirə edilir.

**3.3.19. Yay semestrinin təşkili vəziyyəti**

Yay semestri təşkili AR Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun olaraq BMU rektorunun əmrinə əsasən təşkil olunur.

BMU Elmi şurasının qərarına əsasən ən azı 5 tələbə müraciət etdikdə fənn üzrə yay məktəbi təşkil edilir. Fənn üzrə qrup açılması üçün kifayət qədər tələbə müraciəti olmadıqda həmin fənni dinləmək istəyən tələbələr digər universitetlərə yönləndirilir.

**3.3.20. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası**

BMU-da tədris illəri üzrə kredit borcu yaranmış tələbələrin toplam sayına görə dəyişən dinamika müşahidə olunmuşdur. Belə ki, bakalavriat səviyyəsində 2017/2018-ci tədris ilində kredit borcu olan tələbələrin toplam sayı - 1248, 2018/2019-cu tədris ilində - 1635, 2019/2020-ci tədris ilində - 1121, 2020/2021-ci tədris ilində - 405, 2021/2022-ci tədris ilində - 1973, 2022/2023-cü tədris ilinin payız semestrində isə 634 nəfər olmuşdur. Magistratura səviyyəsində 2017/2018-ci tədris ilində kredit borcu olan tələbələrin toplam sayı - 28, 2018/2019-cu tədris ilində - 82, 2019/2020-ci tədris ilində - 107, 2020/2021-ci tədris ilində - 55, 2021/2022-ci tədris ilində - 62, 2022/2023-cü tədris ilinin payız semestrində isə 34 nəfər olmuşdur.

**Şəkil 1.** Bakalavriat səviyyəsində kredit borcu olan tələbələrin illər üzrə dinamikası




**Şəkil 2.** Magistratura səviyyəsində kredit borcu olan tələbələrin illər üzrə dinamikası




### 3.3.21. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Bakalavriat səviyyəsində 2017/2018-ci tədris ilində kredit borcu yaranmış fənlərin toplam sayı - 554, 2018/2019-cu tədris ilində - 520, 2019/2020-ci tədris ilində - 443, 2020/2021-ci tədris ilində - 418, 2021/2022-ci tədris ilində - 570, 2022/2023-cü tədris ilinin payız semestrində isə 336 fənn olmuşdur. Magistratura səviyyəsində 2017/2018-ci tədris ilində kredit borcu yaranmış fənlərin toplam sayı - 34, 2018/2019-cu tədris ilində - 55, 2019/2020-ci tədris ilində - 94, 2020/2021-ci tədris ilində - 68, 2021/2022-ci tədris ilində - 46, 2022/2023-cü tədris ilinin payız semestrində isə 43 fənn olmuşdur.

**Şəkil 3.** Bakalavriat səviyyəsində kredit borcu yaranmış fənlərin illər üzrə dinamikası




**Şəkil 4.** Magistratura səviyyəsində kredit borcu yaranmış fənlərin illər üzrə dinamikası




### 3.3.22. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

BMU-da bakalavriat və magistratura səviyyələrində tədris "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Ali təhsil pilləsinin dövlət standartı və proqramı", "Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları", "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi qaydaları", "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları" və digər normativ sənədlər əsasında təşkil olunur. Bu prosesdə normaların səmərəliliyinin izlənilməsi mütəmadi olaraq kafedralar, dekanlıqlar, Tədris hissəsi, Metodiki işlər şöbəsi və Keyfiyyətin təminatı şöbəsi tərəfindən aparılır. Müəyyənləşdirilmiş normalar bəzi hallarda tədrisin keyfiyyətinin təşkil olunmasına tam təminat vermir. İxtisasın xüsusiyyətindən asılı olaraq laboratoriya dərslərində tələbə sayı yalnız 25-dən çox olduğu halda qrupun yarım qruplara bölünməsi tələbi

bütün fənlər üçün optimal deyildir. Bəzi ixtisasların laboratoriya dərslərinin tələbə sayı 25-dən az olduğu hallardada bölünməsinə icazə verilməsi məqsədəuyğun olardı.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.4. Tədris metodları və üsulları

**3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti**

Tədris prosesi təşkil olunarkən tələbələrin tədris proqramlarında nəzərdə tutulan təlim nəticələrinin əldə edilməsi diqqətə alınır. İxtisasın xarakterindən asılı olaraq bu prosesdə müxtəlif metodlardan (innovativ, yaradıcı və interaktiv) istifadə olunur. Bu zaman tələbələrin zehni və əmək fəalliğına, müstəqilliyinə əsaslanan, tədqiqatçılıq və əməkdaşlıq şəraiti yaradılır, onların məlumatlanmasını, idrak müstəqilliyini, fikri fəallığını, yaradıcılığını artıran üsullar istifadə olunur. Layihələrin verilməsilə tələbələrin yaradıcı təfəkkürü, tədqiqatçılıq qabilliyyətləri inkişaf etdirilir. Universitetin auditoriyalarında elektron lövhələrin və proyektorların olması, həmçinin laboratoriya imkanları (kompüter, mexanika, kimya, biologiya, fizika və s.) bu metodların tətbiqini asanlaşdırır. Tədris prosesində metodların tətbiqi kafedra iclaslarında və ya təşkil olunmuş seminarlarda müzakirə olunur və təkmilləşdirilir.

**3.4.2. Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti**

Tədris prosesi zamanı tələbələrin elmi biliklərin müstəqil surətdə əldə edilməsi, problem qoyub onun həlli yollarını tapılması, bilikləri yaradıcı tətbiq etməsi diqqətə alınır. Tədrisin sadəcə elmi-nəzəri biliklər ilə deyil, onların əməli fəaliyyətdə tətbiqi də həyata keçirilir, nəzəri biliklər parktik işlər ilə möhkəmləndirilir. Tədris prosesində tələbənin əsasən mərkəzdə olması, onun fəal iştirakı təmin olunur. Tələbələrdə müstəqil işləmə bacarığı və məsuliyyət kimi xüsusiyyətlər inkişaf etdirilir. Bu prosesdə məqsəd müəllimdən bilik və bacarıqların tələbəyə köçürülməsi deyil, tələbələrin davamlı özünüidarəetmə qabiliyyətini inkişaf etdirmək, analitik təhlil, sərbəst düşünmə, verilən məlumat və öz düşüncələri arasında əlaqələrin yaradılması, nəzəri bilikləri praktiki yollarla dərinləşdirmək və qazandığı bilik və bacarıqları gələcək peşə fəaliyyətlərində tətbiq etməkdir.

**3.4.3. Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**

BMU-da yalnız tədrisin əyani təhsilalma forması mövcuddur. Bu təhsilalma forması imkan verir ki, tədris prosesində əyani şəkildə tədris metodları tətbiq olunsun. Laboratoriya imkanları, auditoriyaların texniki vəziyyəti və professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi buna imkan verir.

**3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti**

Hər bir fənnin və müəllimin tədris metodu açıq dərslərin qiymətləndirilməsi zamanı kafedra iclaslarında (bəzən genişləndirilmiş formada) müzakirə olunur, tövsiyələr verilir. Mühəndislik ixtisaslarında tələbələrin uyğun müəssisələrə ekskursiyaları təşkil olunur. Universitetdə və uyğun müəssisələrdə seminar və təlimlər təşkil olunur. Məzunlar və ixtisas üzrə mütəxəssislər tələbələrlə görüşdürülür. Tələbələr tədris nəticələrinə görə müxtəlif üsullarla (təşəkkür, sertifikat, mükafat və s.) həvəsləndirilir, motivasiya olunur. Tədris prosesində hər bir mövzunun təqdimatında təkcə əsas aspektlər deyil, məzmunu zənginləşdirən kiçik məsələlər də izah edilir, tələbələrdə maraq oyatmaq məqsədilə hər hansı bir yanaşma nümunə kimi verilir, həll edilən məsələnin əhəmiyyətini açıqlamaqla onlarda müstəqil işləmək yolu ilə məsələləri həll etmə bacarığı formalaşdırılır.

**3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**

Bakalavriat səviyyəsində tələbələrin fundamental nəzəri bilikləri mənimsəməsi ilə yanaşı, onların praktiki imkanlarını da gerçəkləşdirməsinə xüsusi diqqət yetirilir. Bunun üçün universitetin laboratoriya bazasından, tədris prosesinə cəlb olunan mütəxəssislərin potensialından rasional formada istifadə edilir. Magistratura tələbələrinin əksəriyyəti işləyir və tədris üçüncü növbə təşkil olunur. Bu ixtisas üzrə işləyən tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq, nəzəri və praktiki biliklərin uyğunlaşdırılmasına kömək edir. Amma bəzən müəllimlərin iş saatlarının artmasına, tələbələrin yorğunluğuna səbəb olur. Təhsilalanların ilkin fərdi potensialları, tədrisə və yeniliklərə meylləri nəzərə alınmaqla onlara verilən fərdi tapşırıqlar formalaşdırılır, onların arasında informasiya mübadiləsi, təcrübə bölüşdürülməsi təşkil etməklə bir növ yarış atmosferi yaradılır və hər bir fərdin uğur qazanmasına imkan yaradılır.

**3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**

Aktiv öyrənmə maddi texniki bazanın texniki səviyyəsindən, təhsil verənlərin potensialından və təhsil alanların öyrənmə həvəsindən, məsuliyyətindən asılıdır. Universitetin maddi texniki bazasının yenilənməsi mövcud olan maliyə potensialı və ondan sərbəst istifadə imkanlarına bağlıdır. Tədris prosesində istifadə olunan texnoloji vasitələrin və proqram təminatının müasir tələblərə uyğun təşkili daim nəzarətdədir. Tədris olunan fənlərlə bağlı materiallar və ədəbiyyatlar google classroom vasitəsi ilə tələbələrə çatdırılır, eyni zamanda tələbələrdə hazırladıqları tapşırıqları bu platforma vasitəsi ilə fənn müəllimlərinə ötürə bilirlər. Universitetdə mövcud olan laboratoriyalar (kimya, fizika, biologiya, mexanika, kompüter laboratoriyaları) yeni avadanlıqla təmin edilmiş, yeni laboratoriyalar (avtomatika, elektronika, elektrotexnika, kompüter laboratoriyaları və s.), dizayn və memarlıq studiyaları qurulmuşdur. Həmçinin mühəndislikdə müasir tətbiqi proqramlardan (məs. SCADA, KissSoft, Sap2000, ArchCAD, AnsysWorkbench, StaadPro, XSteel, Eviews və s.) tədris prosesində istifadə olunur. Fənlərinn tədris keyfiyyətinin qiymətləndirilməsində auditoriya ilə interaktivlik əsas tələb kimi irəli sürülür, təhsilalanları dərs vaxtı dialoqa cəlb etmək yolu ilə hər bir tələbənin tədris prosesinin tam hüquqlu iştirakçı olmasına şərait yaradılır.

**3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti**

BMU-da yeni təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilir.  Belə ki, mühazirələr Microsoft PowerPoint proqram təminatında elektron təqdimat formasında tədris olunur. Elektron təqdimatlar formasında hazırlnamış mühazirə dərsləri, müasir avtomatlaşdırılmış layihələndirmə üsulları, proqramlaşdırma və avtomatlaşdırmaya dair məşğələ dərsləri interaktiv lövhələrlə təmin olunmuş, müvafiq proqram paketləri yüklənilmiş kompüter siniflərində, tətbiqi məşğələ dərsləri isə xüsusi avadanlıqlarla təchiz olunmuş laboratoriya otaqlarında tədris olunur. Elektrik maşınları, müxtəlif ixtisaslar üzrə Fizika, Elektrik və elektronika, Avtomatlaşdırma üzrə dərslər xüsusiləşdirilmiş auditoriyalarda həyata keçirilir. Bəzi praktik dərslərin "Azərenerji" ASC-nin Tədris Mərkəzində keçirilməsi təşkil edilir. Bundan başqa BMU-da bütün  fənlərin mühazirə dərsləri elektron təqdimat formasında tədris olunur, bir sıra fənlərin tədrisində isə Matlab, ETAP və Digsilent PowerFactory proqram komplekslərinin bazasında virtual laboratoiyalardan istifadə olunur. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənmənin tətbiq olunması təşviq edilir və bununla bağlı bir sıra müvafiq tapşırıqlar verilmişdir.

**3.4.8 Tədris metod və üsullarının dövrü monitorinqi, preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

BMU-da tədris metodlarından tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilir. Belə ki, təhsilalanların fərdi tapşırıqları, buraxılış işlərinin və magistr dissertasiyalarının mövzuları əsasən müvafiq istehsalat sahələrindən götürülür və tətbiqi üzrə təkliflər verilir. Tədris prosesində ixtisas fənlərinin bəzi mövzuları xüsusi proqram təminatının əsasında nəzəri biliklərə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə etməklə tədris olunur. Tədris prosesində dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmaları kimi tədris metodlarına üstünlük verilir. BMU-da tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi işləri görülür. Bunun üçün sorğular keçirilir və sorğuların nəticələri təhlil olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.5. Təlim və tədris resursları

**3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəyönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti**

BMU-da elektron rejimdə işləyən, internet, intranet (lokal şəbəkə) və veb texnologiyalar infrastrukturuna əsaslanan, müxtəlif struktur bölmələr tərəfindən daxil edilən məlumatları əhatə edən və mərkəzləşdirən “AZUMİS” Azərbaycan Universitet Məlumat İdəarəetmə Sistemi adı altında Ədliyyə Nazirliyində qeydiyyata alınmış Elektron Məlumat Sistemi (EMS) mövcuddur. Dərs yüklərinin müəyyənləşdirilməsi, tələbələrin dərs qeydiyyatı, elektron jurnalın doldurulması, qiymətlərin daxil edilməsi, təqaüdlərin hesablanması üçün lazım olan məlumatların əldə edilməsi, tələbələrin təhsil haqlarının hesablanması, müxtəlif hesabatların əldə edilməsi və digər proseslər EMS-də həyata keçirilir. EMS-də müxtəlif struktur bölmələrin idarəetmə modulları, müəllim və əməkdaşların şəxsi kabinetləri (https://pms.beu.edu.az), tələbələrin şəxsi kabinetləri (https://my.beu.edu.az) mövcuddur. Tələbələr dərsə davamiyyət, qiymətləndirmələrin nəticələri, təhsil sahəsində qanunvericiliklər, universitetə daxil olma barədə turniket qeydləri, elanlar, dərs cədvəli, təhsil haqqı borcu və ödənişləri barədə məlumatları şəxsi kabinetlərindən əldə edirlər. Eyni zamanda tələbələr dərs qeydiyyatı (FTP-nin elektron tərtib edilməsi), təkrar imtahanlarda iştirak üçün müraciət, sənəd sifarişi, anketlərdə iştirak, kitab sifarişi və s. əməliyyatları şəxsi kabinetləri vasitəsi ilə icra edirlər. Müəllim və əməkdaşların səlahiyyətləri üzrə şəxsi kabinetlərindən elektron jurnal, qiymət daxil etmə, dərs cədvəli, tələbə məlumatları, hesabatlar, ixtisasların tədris planları, fənn məlumatları, kitabxana və s. altmodullara daxil olmaq imkanları mövcuddur.

**3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetinin 154 tədris auditoriyası mövcuddur ki, onların 120 ədədi mühazirə auditoriyasını, 24 ədədi laboratoriya otaqlarını, 10 ədədi isə seminar və iclas zallarını əhatə edir.

24 laboratoriya otağının 15 ədədi kompüter laboratoriyalarını, 9 ədədi isə digər tədris laboratoriyalarını əhatə edir. Auditoriyaların texniki təchizat vəziyyətini aşağıdakı cədvəldən də görmək olar. **Cədvəl 1 :** Auditoriyalar və onların texniki təchizat vəziyyəti

| Otağın növü / Avadanlıqlar | Tədris auditoriyalarında mövcud olan say | | Laboratoriyalarda mövcud olan say | | Digər tədris laboratoriyaları | | İclas və seminar zallarında mövcud olan say | | Kitabxana və oxu zallarında mövcud olan say | | ÜMUMİ CƏM | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | CƏMİ | | CƏMİ | | CƏMİ | | CƏMİ | | CƏMİ | | |
| Sinevizyon tipli proyektor | 38 | 87 | 12 | 14 | 5 | 6 | 7 | 9 | 0 | 0 | 116 | |
| İnteraktiv lövhənin proyektoru | 49 | | 2 | | 1 | | 2 | | 0 | | | |
| İnteraktiv lövhə | 83 | | 5 | | 1 | | 3 | | 0 | | 92 | |
| Kompüter | 0 | 80 | 358 | 363 | 48 | 53 | 4 | 7 | 12 | 12 | 422 | 515 |
| İnteraktiv lövhənin kompüteri | 80 | | 5 | | 5 | | 3 | | 0 | | 93 | |
| Otağın növünə görə proyektor cəmi | 87 | | 14 | | 6 | | 9 | | 0 | | 116 | |
| İnternetə çıxışı olan kompüterlərin sayı | 80 | | 363 | | 53 | | 7 | | 12 | | 515 | |
| İnternetə çıxışı olan auditoriyaların sayı | 118 | | 17 | | 16 | | 10 | | 0 | | 161 | |

**3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti**

Müəllimlər şəxsi kabinetlərindən tədris etdikləri fənlər üzrə tələbələrin dərslərdə iştirakı barədə məlumatları və aldıqları qiymətləri EMS-yə daxil edirlər. Daxil edilən məlumatlar sinxron olaraq həm də tələbənin şəxsi kabinetində görünür. 25 faizdən çox dərsdə iştirak etməyən tələbələrin fənn üzrə imtahana buraxılmaması prosesi də elektron jurnal vasitəsi ilə həyata keçirir.

**3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu**

Tədrisin təşkili prosesində EMS-dən, Google Classroom-dan istifadə olunur. Auditoriyalar texnika (kompüter, proyektor, ağıllı lövhələr və s.) ilə təchiz olunmuşdur. Təhsil proqramına və fənnin xüsusiyyətinə uyğun olaraq qeyd olunan vasitələrdən istifadə etməklə tədris təşkil olunur.

**3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti**

İnternetə çıxışı olan auditoriya və laboratoriya otaqlarının ümumi sayı 154-dür. Oxu zallarında tələbələrin istifadəsi üçün nəzərdə tutulan kompüterlərin sayı 18 ədəddir. İnzibati heyətdə 164 nəfər əməkdaş fəaliyyət göstərir ki, onların hər biri kompüterlə təmin edilmişdir. Professor-

müəllim heyətində 299 nəfər əməkdaş fəaliyyət göstərir ki, onların 160 nəfəri kompüterlə təmin edilmişdir Kompüter laboratoriyalarında, eləcə də tədris auditoriyalarında mövcud olan kompüterlərin hər biri qlobal internet şəbəkəsi ilə təmin edilmişdir. Sadalanan bütün resursların cari vəziyyəti işləkdir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu

Ümumilikdə auditoriya fondunun sahəsi 5241.51 kv.m təşkil edir. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu aşağıda təqdim edilən cədvəl formasındadır.

**Cədvəl 2.** Auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu

| Növbələr | Ümumi tələbə sayı | Ümumi kv.m | Bir tələbəyə düşən kv.m |
|---|---|---|---|
| I (bakalavr) | 2483 | 5241.51 m² | 2.11 |
| II (bakalavr) | 1968 | 5241.51 m² | 2.66 |
| III (magistr) | 406 | 5241.51 m² | 12.91 |

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

**Cədvəl 3.** Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

| İllər | Əsas bina | | | İqtisadiyyat binası | | | Texnopark | | | Xarici dillər kafedrası | | | Yeni bina | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Audit | İnzibati | Lab | Audit | İnzibati | Lab | Audit | İnzibati | Lab | Audit. | İnzibati | Lab | Audit | İnzibati | Lab |
| 2018/2019 | 28 | 87 | 12 | 27 | 58 | 5 | 10 | 5 | 13 | 29 | 13 | 0 | 0 | 0 | 0 |
| 2019/2020 | 28 | 87 | 12 | 27 | 58 | 5 | 10 | 7 | 11 | 29 | 13 | 0 | 0 | 0 | 0 |
| 2020/2021 | 28 | 87 | 12 | 27 | 58 | 5 | 9 | 8 | 11 | 29 | 13 | 0 | 0 | 0 | 0 |
| 2021/2022 | 28 | 87 | 12 | 27 | 58 | 5 | 9 | 8 | 11 | 29 | 13 | 0 | 0 | 0 | 0 |
| 2022/2023 | 28 | 87 | 12 | 27 | 58 | 4 | 11 | 5 | 11 | 29 | 13 | 0 | 27 | 19 | 15 |

Cədvəl 3-dən göründüyü kimi, 2018-2022-ci illərdə otaq fondunun əsasən sabit qalmışdır. 2022/23-cü tədris ilində isə yeni tədris korpusu istifadəyə verilmişdir. Otaq fondunun artırılması bir tələbəyə düşən sahənin artmasına səbəb olmuşdur. Bu da tədris prosesinin yaxşılaşdırılmasına səbəb olan amillərdən biridir.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Bakı Mühəndislik Universitetində kitabxana həm real, həm də elektron şəkildə fəaliyyət göstərir. BMU-nun kitabxana fondunda hazırda 106 minə yaxın kitab və jurnal mövcuddur. Kitabxana onlayn sistem əsasında fəaliyyət göstərir. Tələbələr və müəllimlər kitabları onlayn sifariş verməklə əldə edirlər. Sifarişlər maksimum 15 dəqiqə ərzində hazır olur. Sifarişin

qüvvədə olma müddəti 24 saatdır. Bu tədris ilində kitabxanadan 300 əməkdaş və dörd minə yaxı tələbə istifadə etmişdir. Bu əvvəlki tədris ilinə görə təqribən 10% daha çoxdur.

**3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası**

**Cədvəl 4**. Kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin artım dinamikası

| İllər | Daxil olan kitab sayı (son 5 ildə nəşr olunan) |
|---|---|
| 2019-2020 | 480 |
| 2020-2021 | 569 |
| 2021-2022 | 848 |
| 2022-2023 | 800 |

**3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası**

BMU-nun saytındakı (https://tms.beu.edu.az, https://pms.beu.edu.az) Tələbə Məlumat Sistemi və Personal Məlumat Sisteminə daxil olduqdan sonra kitab üçün daha əlçatan və online formada sifarişlər vermək mümkündür. Sistemdə oxucunun axtardığı kitabın bütün detalları qeyd olunur. Kitabın rəfdə və ya əldə olması haqqında məlumat da oxucunun diqqətinə çatdırılır. Əgər hansısa kitab sifariş olunubsa, dərhal növbəyə durmaq təklifi bildirilir. Sifarişlər maksimum 15 dəqiqə ərzində hazır olur. Onlayn sistem əsasında fəaliyyət göstərən kitabxananın əsas üstünlüklərindən biri də uzaq məsafədən, universitetdən kənarda öz oxucularına xidmət göstərmək imkanına malik olmasıdır. Bu vaxta qənaət etmək və istənilən məkandan sistemə daxil olmaq baxımından olduqca önəmlidir. BMU-nun kitabxana fondunda hazırda 1 milyona yaxın elektron resurs, həmçinin 106 minə yaxın kitab və jurnal mövcuddur. Bu kitabların əksəriyyəti ingilis və türk dillərindədir. Bununla yanaşı, alman, ərəb, rus, fransız və s. dillərdə olan kitablar da var. Fakültələrdə tədris olunan fənləri əhatə edən kitabxana fondunda bütün kitabların Pdf forması mövcuddur.BMU-nun kitabxanası, eyni zamanda məşhur Web of Science və EBSCOhost kimi elektron portalların üzvüdür. Cədvəl 4-dən də görüldüyü kimi, son beş ildə əsasən BP şirkətinin tərcümə edərək universitetlərə hədiyyə etdiyi dərsliklər olmaqla kitabxana fondu xüsusiylə xarici dərsliklərlə zənginləşmişdir. BP şirkətinin Azərbaycan dilinə tərcümə etdiyi bir çox kitab layihədə universitetimizin əməkdaşları da rol almışdır. Bakı Mühəndislik Universitetinin (BMU) kitabxana fondunun zənginləşdirilməsi və ən müasir dərs vəsaitləri ilə təmin edilməsi üzrə işlər davam etdirilir. Bu istiqamətdə növbəti addım BMU və Koreya Respublikasının İNHA Universiteti arasında icra olunan beynəlxalq ikili diplom proqramı çərçivəsində Dövlət Neft Fondunun ayırdığı vəsait hesabına atılıb. Eyni zamanda BMU da təhsil Nazirliyinin grantı hesabına Avtomatika və Elektronika ixtisası tədris

materyallarının gücləndirilməsi layihəsi çərçivəsində də kitabxanaya 20-yə yaxın xarici dərslik alınmışdır.

Cədvəl 4-dən də görüldüyü kimi, hər il kitabxana fonduna daxil olan kitab sayı 2019-cu ildən etibarən hər il əvvəlki illə görə 10-20 faiz həcmində artmişdir.

https://beu.edu.az/az/article/bmu-nun-kitabxanasina-yeni-nesrler-daxil-olub-1515

**3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası**

Elmi ədəbiyyat alınmasına, Elmi Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzindən, həmçinin Thomson açıq kitabxana şəbəkəsindən istifadə imkanı əldə etmək üçün və digər müvafiq istiqamətlərə illər üzrə aşağıdakı məbləğlərdə vəsait ayrılmışdır.

2018-ci ildə 23792,01 manat,

2019-cu ildə 14862,20 manat,

2020-ci ildə 7440,00 manat,

2021-ci ildə 93510,00 manat,

2022-ci il 74760,00 manat.

Eyni zamanda, 2023-cü ildə Açıq kitabxana şəbəkəsi Thomson üçün 42800 manat və BMU-İNHA ikili diplom proqramının icrası ilə bağlı 23800 manat dəyərində kitabların alınması nəzərdə tutulub.

**3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti**

BMU-da tədris prosesinin təşkiliylə əlaqədar olaraq 5 tədris korpusu fəaliyyət göstərir. Həmçinin akt zalları, yeməkxanalar, yataqxana, tədris kabinetləri və emalatxanalar, tibbi xidmət fəaliyyət göstərir. Tədrisin müasir üsullarla təşkili üçün auditoiyaların əksəriyyəti proyektorlarla, ağıllı lövhələrlə və digər lazımi avadanlıqlarla təchiz olunub. Universitetdə tədris vəsaitlərinin təminat bazasını yaratmaq və ondan səmərəli istifadə olunmasını təmin etmək məqsədilə aşağıdakı işlər görülür:

- Yeni dərsliklər və dərs vəsaitləri ehtiyaclarının müəyyənləşdirilməsi və təmin olunması;

- Universitetin əməkdaşları tərəfindən hazırlanacaq və ya tərcümə ediləcək tədris vəsaitlərinin perspektiv və cari planını tərtib etmək;

- Universitetdə mövcud olan və istifadəsinə ehtiyac duyulan dərslik və dərs vəsaitlərinin hər birindən minimum sayda universitetin mətbəəsində çoxaldılmasını təmin etmək.

BMU-da tədris laboratoriyaları müasir avadanlıqlarla təchiz olunmuşdur. Belə ki, hər tədris ilində tələbə kontingentinin sayının artması yeni-yeni rəqəmsal laboratoriyaların yaranmasına və bu laboratoriyaların yeni avadanlıqlarla təchiz olunmasını tələb edir. Laboratoriya bazalarının yenilənməsində və ya zənginləşdirilməsində universitet öz vəsaiti və tərəfdaş şirkət və müəssisələrin maliyyə dəstəyindən istifadə edir. Tərəfdaşımız BP şirkətinin maliyə dəstəyi ilə Kimya mühəndisliyi və Mexanika mühəndisliyi kafedralarında ən müasir avadanlıqlarla təchiz olunmuş yeni laboratoriya qurularaq müəllim və tələbələrin ixtiyarına verilmişdir. Universitetdə kompyuter laboratoriyaları mövcuddur. Kompyuterlər internet şəbəkəsinə qoşulmuşdur.

BMU-da Tələbə Məlumat və Personal Elektron sistemi fəaliyyət göstərir. Universitetdə Elektron Kitabxana fəaliyyət göstərir. Universitetin elektron poçt ünvanı və internetdə veb-səhifəsi mövcuddur. Bu baxımdan BMU-da təlim və tədris resurslarından istifadənin və yenilənmənin ümumi vəziyyəti qənaətbəxşdir.

**3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti**

Təhsil sistemində, o cümlədən, ali məktəblərdə geniş dünya görüşə malik, təşəbbüsləri, yenilikləri qiymətləndirməyi bacaran, nəzəri, praktik biliklərə yiyələnən, müasir təfəkkürlü, rəqabətqabiliyyətli kadrların hazırlanması təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan məsələlər diqqətə alınaraq, BMU-da təhsilin məzmununun, təlim prosesinin keyfiyyət və kəmiyyət baxımından yüksəldilməsi üçün elm və texnologiyadakı yeniliklərə uyğunlaşdırılması və bunun təhsilalanlar üçün əlçatanlığı əsas götürülməkdədir. Tədris prosesində istifadə olunan resurslar Google platformasıındakı “Google classroom”larında yerləşdirilərək təhsilalanlar üçün əlçatanlığı təmin edilmişdir.

**3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti**

Sağlamlıq imkanları məhdud olan təhsilalanlar üçün xüsusi tədris resurslarımız yoxdur. Lakin sağlamlıq imkanları məhdud olan (misal olaraq, görmə qabiliyyəti olmayan və ya çox zəif olan) tələbələrimiz üçün fərdi qaydada imtahanlar təşkil edilir və bu tələbələr ayrıca qiymətləndirilir.

**3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**

Fənlərin tədris porsesində istifadə edilən fənn proqramları, dərs vəsaitləri və dərsliklər müasir dövrin tələblərinə uyğunlaşdırılır. Tədris porsesində tələbələrə müəyyən təlimlər verilir. Buna misal olaraq, cari tədris ilində Hesablama Palatası tərəfindən verilən “Dövlət sektorunda audit” təlimləri nümünə göstərilə bilər. Həmçini tədris prosesində istifadə edilən texniki avadanlıqlar yenilənir və proqram təminatları təkmilləşdirilir

**Cədvəl 5.** İllərə görə çap olunmuş tədris resurslarının sayı ( 2019-2022)

| İllər | Dərs vəsaiti | Dərslik | Monoqrafiya | Fənn proqramları, metodik vəsaitlər |
|---|---|---|---|---|
| 2019 | 11 | 5 | 5 | 133 |
| 2020 | 7 | 6 | 2 | 138 |
| 2021 | 8 | 1 | 1 | 89 |
| 2022 | 18 | 3 | 3 | 80 |

Yuxarıdakı cədvəldə olan məlumatlardan da müşahidə etmək olur ki, tədris resurslarının təkmilləşdirilməsinə çalışılmışdır.

**3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu**

Universitetdə 3 mindən çox tələbənin üzv olduğu 49 tələbə klubu fəaliyyət göstərir. Onların bir qisminin fəaliyyəti pandemiya dövründə onlayn formada davam etdirilib. Hazırda bu klublar tələbələrin elmi, tədris və sosial fəaliyyətlərinin dəstəklənməsi, kordinasiya olunması istiqamətində müxtəlif tədbirlər (seminarlar, intellektual yarışmalar, sərgilər, görüşlər, təlimlər, kurslar və s.) həyata keçirirlər. Universitet rəhbərliyi tərəfindən bu tədbirlərin təşkili üçün lazımı köməklik göstərilir.

Bununla yanaşı, universitetdə 4 tələbə təşkilatı - Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, YENİ Klub və Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir.

Universitetdə tələbələrin fiziki tərbiyəsinə diqqət yetirilməsi məqsədilə İdman klubu yaradılıb. Qurumun fəaliyyət sahələrinə universitetdə təhsil alan idmançı tələbələri kluba cəlb etmək, tələbələr arasında idmanın müxtəlif sahələri üzrə yarışlar təşkil etmək, ölkə səviyyəsində keçirilən idman yarışlarında tələbələrin iştirakını təmin etmək daxildir. Klub tələbələrlə yanaşı, müəllimlər arasında da idman növləri üzrə yarışlar təşkil edir. Hər il sentyabr-oktyabr aylarında BMU-nun I kurs tələbələri arasında idmanın müxtəlif növləri üzrə seçmə yarışlar keçirilir. Bu yarışların məqsədi tələbələri fiziki tərbiyəyə yönəltmək və istedadlı tələbələri universitetdə fəaliyyət göstərən idman məşğələlərinə cəlb etməkdən ibarətdir. Futbol, voleybol, şahmat, stolüstü tennis, basketbol sahəsinə daha böyük maraq olduğu üçün tələbələr arasında hər ilin mart-aprel aylarında universitetdaxili turnir də keçirilir. Qalib olmuş komanda isə kubok və medallarla təltif olunur. Universitetin ayrıca idman kompleksi olmadığı üçün Abşeron Olimpiya İdman Kompleksi ilə müqavilə imzalanmış, tələbələrimizə idman məşğələlərinin, yarışların keçirilməsi təmin olunmuşdur.

**3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti**

Universitetdə psixoloji xidmət fəaliyyət göstərir. İl ərzində təqribən iki mindən artıq müəllim, əməkdaş və tələbəyə psixoloji xidmət göstərilir. Onlarla fərdi söhbətlər aparılır, psixoloji-maarifləndirici seminarlar keçirilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

**3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti**

Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı BMU üzrə cari və aralıq qiymətləndirmə metodları nəzərdə tutulub. Cari qiymətləndirməyə semestr daxilində keçirilən kollokviumlarda əldə edilən qiymətlər, həmçinin tələbənin sərbəst işindən (o cümlədən kurs işi və layihəsindən) aldığı qiymətlər daxildir. Aralıq qiymətləndirmə isə semestr sonu imtahanların nəticəsində formalaşır.

Təhsilalanların biliyk və bacarıqlarının qiymətləndirilməsi Elm və Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli, 1060a nömrəli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında” Əsasnaməyə əsasən yerinə yetirilir. 100 ballıq system ilə toplanmış balların müvafiq normalar üzə bölgüsündən tələbənin biliyi hərflərlə (A (əla), B (çox yaxşı), C (yaxşı), D (kafi), E (qənaətbəxş), F (qeyri-kafi)) qiymətləndirilir. Qiyməətləndirmə birbaşa electron sistemə daxil edilir. Tələbələrin (hətta

məzunların da) hər bir fənn üzrə müvəffəqiyyətinin nəticəsi elektron bazada saxlanılır və asanlıqla əldə edilə bilər.

**3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti**

Ümumi qiymətləndirmə mərhələli şəkildə formalaşır, hər bir mərhələ 100 ballıq şkala üzrə qiymətləndirilir və ölçülə bilən çəki əmsalına malikdir: a) davamiyyət – 0,1; b) semestr daxili fəaliyyət – 0,3; c) tələbənin sərbəst işi – 0,1; d) imtahan – 0,5.

İmtahanlar əsasən yazılı formada keçirilir, imtahan biletlərinə 5 sual salınır və hər biri 20 balla qiymətləndirilir. Tələbənin hər bir sual üzrə ölçüləbilən və etibarlı qiymətləndirilməsi üçün sualların geniş şəkildə, balın formalaşması üçün qiymətləndirmə meyarlarını əks etdirməklə tərtib olunması tövsiyə edilir. Tələbələrin kurs işi, layihəsi, referat, seminar və digər sərbəst işlər üzrə biliyinin qiymətləndirilməsi üçün dəqiq meyarlar vardır.

**3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti**

Bir qayda olaraq, imtahanlar yazılı şəkildə aparıldığına görə müəllim-tələbə təmasları olmur və qiymətləndirmə anonim şəkildə yazılı cavabların yoxlanılması ilə başa çatır. Məşğələ və seminarlarda qiymətləndirmə üz-üzə qaydada həyata keçirilir.

Pandemiya dövründə, tədrisin onlayn formada təşkili zamanı qiymətləndirmə prosesi məsafədən aparılmışdır. Bunun üçün elektron sistemdə xüsusi "İmtahan" modulu işlənilmiş və istifadə edilmişdir.

Kurs layihələri (işləri) və buraxılış işləri isə komissiyada açıq müdafiə nəticəsində qiymətləndirilir.

**3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti**

Azərbaycan Respublikası Elm və Təhsil nazirinin 1060 saylı, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə" dəki meyarlar diqqətə alınaraq hər bir təhsilalanın biliyi obyektiv qaydada qiymətləndirilir. İmtahan nəticələri ilə razılaşmayan hər bir tələbənin apellyasiya komissiyasına müraciət etmə hüququ vardır. Apellyasiya komissiyasında təhsilalanların iddiaları fənni tədris edən müəlimin və tələbinin iştirakı yenidən baxılıb qiymətləndirilir.

**3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti**

Təhsilalanların biliyinin qiymətləndirilməsində onların sərbəst işlərinin, o cümlədən, müəyyən fənnlər üzrə seçilmiş mövzuların qrup və ya fərdi qaydada hazırlayıb təqdim etmələrinin xüsusi əhəmiyyəti vardır. Tələbə fənni tədris edən müəllim ilə sərbəst iş mövzusunu seçir və semesterin sonuna qədər onu hazırlayıb təqdim edir. Bu da tələbələrin tədris olunan fənləri daha yaxşı mənimsənilməsinə və onların fərdi inkişafına müsbət təsir edir.

**3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti**

BMU-da təhsil alan hər bir tələbəyə Google domainli korporativ email (………@std.beu.edu.az) ünvanı verilir. Tədris və qiymətləndirmə effektivliyini artırmaq üçün informasiya kommunikasiya texnologiyalarından istifadə edilir. Bunun üçün Google Classroom platformasında hər bir fənn üçün rəqəmsal siniflər formalaşdırılır. Tələbələr sərbəst

işləri və semestr daxili fəaliyyət üzrə hazırladıqları tapşırıqları internet üzərindən oraya daxil edir, fənn müəllimi də orada qiymətləndirə bilər. Bu halda qiymətləndirmənin nəticəsi avtomatik olaraq tələbəyə göndərilir. İxtisasın xüsusiyyətindən asılı olaraq bəzi fənnlər üzrə biliklərin qiymətləndirilməsində müvafiq proqramlar istifadə olunur.

Semestr sonu imtahanlarda tələbələrin cavab kağızlarının kodlaşdırılması da elektron sistem vasitəsi ilə aparılır. Həmin kodlara görə tələbələrin nəticələri elektron sistemə daxil edilir, cari və aralıq qiymətləndirmə nəticələri əsasında yekun bal elektron bazada avtomatik hesablanır.

Tələbə imatahan nəticələri ilə bağlı bütün məlumatları universitetin elektron məlumat sistemindəki şəxsi kabinetindən əldə edir.

**3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti**

Sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi qiymətləndirmə üsulları nəzərdə tutulmamışdır. Amma BMU-da təhsilalan, görmə qabiliyyəti məhdud olan, bir tələbənin biliyi fərdi qaydada qiymətləndirilmişdir.

**3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

BMU-da cari qiymətləndirmə, yəni fənnlər üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsi qaydalara görə 3 (üç) dəfə (pandemiya dövründən etibarən müvəqqəti olaraq 2 dəfə) keçirilməsi nəzərdə tutulan kollokviumlardan (SDF-semester daxili fəaliyyət), tələbənin sərbəst işindən (FF- fərdi fəaliyyət) və davamiyyət nəticəsindən ibarətdir. SDF-lər əsasən fənlərin spesifikliyi nəzərə alınaraq yazılı və ya test tapşırıqları formasında keçirilir. Tələbənin sərbəst işinin mövzusu müəllim tərəfindən, sillabusdakı mövzulara uyğun tərtib edilir, bu zaman tələbənin istəyi də nəzərə alınır. Onların nəticəsi tələbələrin fərdi və ya qrup şəkində təqdimatları əsasında qiymətləndirilir.

BMU-da aralıq qiymətləndirmə, yəni fənlər üzr tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsi ildə 2 dəfə olmaqla qış və yaz imtahan sessiyası müddətində aparılır. İmtahanlar əsasən yazılı formada, bəzi fənlər üzrə test formasında təşkil olunur. Yazılı imtahanlar əvvəlcədən müəllimlər tərəfindən hazırlanmış sualların səviyyəsinə görə dörd ekvivalent variantlar formasında təqdim olunur ki, buda imtahanların rəqabətlilik prinsipi əsasında təşkil olmasına xidmət edir. İmtahanlarda köçürmə halları aşkar edildiyi zaman akt tərtib olunur, tələbə imtahandan kənarlaşdırılır və imtahan nəticəsi “0” qiymətləndirilir. İmtahan nəticələri imtahan keçirilən gün fənn müəllimi tərəfindən yoxlanılıb EMS-yə daxil edilir. Tələbələr daxil edilən qiymətləri şəxsi kabinetlərində görürlər. Tələbələrin apellyasiya müraciətləri operativ şəkildə araşdırılıb cavablandırılır. İmtahanların nəticələri fakültə və universitet elmi şuralarında müzakirə edilir.

BMU-da müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq, cari və aralıq qiymətləndirmələrin şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyətini tələbələrlə aparılmış sorğular əsasında qənaətbəxş hesab etmək olar.

**3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

BMU-da Yekun Dövlət Qiymətləndirilməsi sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun təşkil edilir və nəticələri məsul şəxslər tərəfindən EMS-yə daxil edilir. Universitet və fakültə elmi şuralarında və Keyfiyyətin təminatı Mərkəzində bilik və bacarıqların qiymətləndirilməsi sistemi təhlil olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur. BMU-da bakalavr və magistr səviyyəsi üzrə yekun attestasiyanın təşkili Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın, Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin, magistr səviyyəsi üzrə isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın və Azərbaycan Respublikası Elm və Təhsil nazirinin 20.04.1998-ci il tarixli, 202 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”nin tələbləri çərçivəsində həyata keçirilir. Buraxılış işlərinin və magistr dissertasiyalarının hazırlanması və müdafiəsinin təşkili müvafiq təlimatlara uyğun normativ tələbləri gözləməklə aparılır. Belə ki, bakalavriat və magistratura səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Yekun attestasiya bakalavr səviyyəsi üzrə buraxılış işi müdafiəsindən və ya ixtisas fənləri üzrə imtahanlardan, magistratura səviyyəsi üzrə isə magistrlik dissertasiyası müdafiəsindən ibarətdir. BMU-da magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclaslarında aparılır. İxtisaslaşdırılmış şuraların işinin təşkili Təhsil Nazirliyinin 10.11.98-ci il tarixli, 742 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış elmi şuralar haqqında” əsasnamənin tələblərinə uyğun həyata keçirilir.

**3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Təhsilalanların biliyinin qiymətləndirilməsi üç mərhələdə aparılır: cari, aralıq və yekun. Cari qiymətləndirmə tələbələrin dərsə davamiyyəti və semestr ərzində tədris fəaliyyətinə görə həyata keçirilir. Cari qiymətləndirmə sərbəst işlərin, laboratoriya işlərinin, kurs işi və kurs layihələrinin təhvil verilməsi ilə bərabər semestr ərzində iki və ya üç dəfə kollokvium (SDF) keçirilməsi ilə aparılır. Yekun qiymətləndirmə bakalavr səviyyəsində dövlət imtahanı və ya buraxılış işi müdafiəsi, magistratura səviyyəsində isə magistrlik dissertasiyası müdafiəsi formasında keçirilir. İmtahanlar mərkəzləşdirilmiş formada test, yazılı və xüsusui qabiliyyət tələb edən fənnlər üçün yaradıcılıq formasında aparılır. Magistratura səviyyəsində isə test və yazılı formada. Yazı işləri şifrələndikdən sonra xüsusi ayrılmış otaqlarda yoxlanma prosesi həyata keçirilir.

Hər imtahan sessiyasından öncə rektorun əmri ilə sessiyanın keçirilməsinə dair əmr imzalanır. Sessiyanın keçirilməsi üçün imtahan komisiyası, imtahan qərargahı, münaqişə komissiyası, nəzarət və s. bölmələr fəaliyyət göstərir. İmtahanlar test, yazılı və xüsusui qabiliyyət tələb edən fənlər üçün yaradıcılıq formasında aparılır. İmtahan variantları tərtib olunarkən sualların çətinlik dərəcəsinin müxtəlifiyinə diqqət olunur ki, bu da bilik və bacarıqların qiymətləndirilməsinin təkmilləşdirilməsinə xidmət edilir. Yazılı keçirilən imtahanlar bitdikdən dərhal sonra yazı işləri şifrələnməyə göndərilir. Yazı işləri şifrələndikdən sonra xüsusi ayrılmış otaqlarda yoxlanma prosesi həyata keçirilir. Yazı işlərini yoxlanılmasında ədalətin və obyektivliyin təmin olunması təmin olunur.

Sessiyanın yekunlarına dair hesabatlar fakültələrdə və universitetin Elmi şurasında müzakirə olunur.

**3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

BMU-da ali təhsilin bakalavriat, magistratura səviyyələri üzrə tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi (fulltime, parttime) ilə həyata keçirilir. Təhsil səviyyəsinin bitirilməsi aid müvafiq əsasnamə və qaydalar BMU-nun elektron

məlumat sistemindəki təbənin şəxsi kabinetində yerləşdirilmişdir. Akademik məsləhətçilər (tyutorlar) tələbələrə vaxtaşırı məsləhət verirlər.

Təhsil müddətində tələbə öz şəxsi kabinetindən qiymətləndirmə ilə bağlı bütün nəticələri, dərsə davamiyyətini izləyir, sessiyanın sonunda topladığı kreditləri və ümumi orta müvəffəqiyyət göstəricisini görə bilir.

**3.6.12. Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu**

BMU-nu bitirən məzunlara Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na əsasən diplom və diploma əlavə verilir. Təhsilə fasilə vermiş tələbələrə Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na əsasən müvafiq arayış verilir. Verilən sənədlərin qeydiyyatı aparılır və bu məlumatlar müvafiq elektron bazalara daxil edilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər

**3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti**

BMU-nun İnsan Resursları şöbəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Prezidentin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Əmək Məcəlləsini, Dövlət Hakimiyyəti Orqanlarında, İdarə, Təşkilat və Müəssisələrində Kargüzarlığın Aparılmasına dair Təlimatı, Azərbaycan Respublikasının müfaviq qanunlarını və normativ-hüquqi aktlarını, Elm və Təhsil Nazirliyinin Əsasnaməsini, kollegiya qərarlarını, əmr və sərəncamlarını, Universitetin Nizamnaməsini və onun fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktları, habelə şöbənin əsasnaməsini rəhbər tutaraq işini təşkil edir.

Tədris illərində tələbə qəbulunun nəticələrinə əsasən dərs yükünün dəyişməsi, universitetə perspektivli kadrların, o cümlədən, professor və müəllimlərin işə qəbulunun təmin olunması işinin şəffaf icra edilməsi məqsədi ilə vətəndaşlara e-mail (hr@beu.edu.az) və poçt vasitəsi ilə öz ərizə və CV müraciətlərinin edilməsi üçün imkanlar yaradılıb, həmçinin vakant yerlər barədə Abşeron – Xızı regional məşğulluq şöbəsinə məlumatlar verilmişdir.

Vakant olan seçkili vəzifələr barəsində "Ali təhsil müəsissələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları" haqqında Əsasnaməyə uyğun olaraq, müsabiqələr keçirilmişdir (2022-ci ilin noyabr ayında 37, 2023-cü ilin yanvar ayında isə 25 ştat üzrə). Müsabiqəndən keçmiş akademik heyyətlə 5 illik əmək müqaviləsi bağlanmışdır. Əmək qanunvericiliyinə, BMU-əsasnaməsinə, təlimat və qaydalara, rektorun əmrlərinə müvafiq olaraq işçilərin qəbulunun vaxtında rəsmiləşdirilməsi həyata keçirilir.

**3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti**

Universitetimizdə informasiya və kommunikasiya texnologiyaları ilə işləməyə, professor-müəllim heyətinin onlardan düzgün istifadə etmə bacarığına boyük önəm verilir. Akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsi məqsədi ilə KTŞ tərəfindən müxtəlif təlimlər verilir, yeni vəsaitlərin tədris prosesinə tətbiqi istiqamətində işlər görülür. Belə ki, yeni texnologiyalarının istifadə qaydaları ilə bağlı İnformasiya hesablama mərkəzi tərəfindən

təlimlər verilir. Bundan əlavə cari tədris ilində beynəlxalq əməkdaşlıq çərcivəsində təlimlər də təşkil olunub (məs., İsveçrədən KISSsoft şirkəti 2023-cü iln may ayında 3 təlim verilmişdir).

**3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti**

– 2020-2021-ci il tədris ilində Pandemiya və karantin şəraitində təhsil sahəsində innovasiyaların tətbiqinə zərurət yarandı. Bakı Mühəndislik Universiteti KT şöbəsi distant tədrisin təşkilində Classroom platformasının effektiv istifadə edilməsi məqsədilə müəllimlər, tyutorlar, laborant və tələbələr üçün Google Classroom platformasının istifadəsi qaydalarına dair təlimlər keçirmişdir. Elektron tədris, onlayn tədris platforması, elektron universitet idarəetmə sistemi və digər elektron xidmətlər BMU-da əvvəldən mövcud olmuşdur. Buna görə, həmin resurslardan pandemiya dövründə daha geniş şəkildə istifadə edilib. Pandemiyadan əvvəl də BMU-da tədrisin məsafədən təşkili təcrübəsi vardı. Sadəcə olaraq Google Classroom, Google Meet platformalarından yararlanaraq pandemiya dövründə daha da aktiv istifadə edilməyə başlanılmışdı. Əvvəllər də müəllimlər bu platformalardan fərdi şəkildə tələbələr üçün əlavə materialları təqdim etmək məqsədilə yararlanırdılarsa, pandemiya dövründən sonra bu platformanın imkanlarından daha geniş şəkildə istifadəsinə başlanılmışdır".

1. "Google Classroomda dərslərin açılması"
https://drive.google.com/file/d/1DpUy5j88D_A5JEulAYYJJS8SSn09O_fz/view?usp=drivesdk
2. "Google Classroom platformasının səmərəli istifadə qaydaları-1"
https://drive.google.com/file/d/1nU3CcGCE1JABZYBXmZ4f1HFx58GArQid/view?usp=sharing
3. "Google Calendar və Google Meet-in istifadəsi"
https://drive.google.com/file/d/1xjJlvR3kPuZh8opoIfH6r6stAP9C2Iaw/view

– İmtahanların onlayn şəkildə maksimum dərəcədə effektiv təşkili üçün qısa müddət ərzində onlayn imtahanların təşkili qaydaları hazırlanmış, müəllimlərin onlayn imtahan moduna hazırlıqlı olmaları üçün yeni proqramların silsilə təlimləri veilrmişdir.

4. “BMU-da təhsilin məsafədən effektiv təşkili ilə bağlı onlayn təlim”
https://beu.edu.az/az/article/bmu-da-tehsilin-mesafeden-effektiv-teskili-ile-bagli-onlayn-telim-396
5. “Müəllim kollektivi üçün Onlayn imtahanın təşkili”
https://drive.google.com/open?id=1jQSB7hox5LlqZF_LxQbxK4tMCouh2j-5
https://drive.google.com/open?id=1ZHDi1a0hG6PxgbApSzDx9slxreZufUH0
6. Google Forms-da “Quiz” in hazırlanması qaydası
https://drive.google.com/file/d/1UDQMLZpRnpH5cRTskg-hHC7FWaUsUlsH/view?usp=sharing
7. "Google Calendar və Google Meet-in istifadəsi"
https://drive.google.com/file/d/1xjJlvR3kPuZh8opoIfH6r6stAP9C2Iaw/view

– Bütün bunlarla yanaşı KT şöbəsi tərəfindən onlayn dərslərə nəzarət mexanizmi də hazırlanmışdır. Belə ki, Google Classroom platformasının verdiyi imkanlarından istifadə edərək qrafikə əsasən onlayn dərslərin onlayn nəzarəti təşkil olunmuşdur. KT şöbəsi keçirilən onlayn dərslərlə bağlı Universitet rəhbərliyinə gündəlik hesabatlar təqdim etmişdir. Aşağıdaki təlimlər məhz bu mexanizminin yaradılması üçün nəzərdə tutulmuşdur:

8. “Distant dərslərə nəzarət cədvəlinin doldurulması”
https://drive.google.com/file/d/1aittoiVM2iSlRBCpfR_6D1t9mayKeEYy/view?usp=sharing
9. “Distant dərslərdə nəzarət cədvəlinin doldurulmasında məsul şəxslərlə görüş”

https://meet.google.com/zht-fyog-gto

10.“Google calendarda dərslər üçün daimi linkin yaradılması” qaydası

https://drive.google.com/file/d/1aittoiVM2iSlRBCpfR_6D1t9mayKeEYy/view?usp=sharing

– Onlayn dərslərlə yanaşı, semestrdaxili fəaliyyətə (SDF) və semestrsonu imtahanlara (SSİ) nəzarət mexanizmi də KT şöbəsi tərəfindən hazırlanaraq tyutor və professor-müəllimlər üçün onlayn təlimlər şəklində keçirilmişdir:

11. “Tyutor və laborantlar üçün semestr sonu imtahanların distant təşkilinə nəzarət” təlimi

https://meet.google.com/qif-ucyg-rai

12. “Professor-müəllim heyəti üçün semestr sonu imtahanların distant təşkili” təlimi

https://meet.google.com/dkr-vgmn-svo

– Pandemiya dövründə dərslərin effektivliyini artırmaq, öyrətmə və öyrənmə prosesində diqqət və konsentrasiyanın artırılması məqsədilə Universitetin psixoloqunun dəstəyi ilə müəllim və tələbələr üçün KT şöbəsi tərəfindən silsilə təlimlər verilmişdir:

13.Distant tədris prosesində öyrətmə və öyrənmə psixologiyası (tələbələr üçün təlim)

https://beu.edu.az/az/article/distant-tedris-prosesinde-oyretme-ve-oyrenme-psixologiyasi-633

14.Distant tədris prosesində öyrətmə və öyrənmə (müəllimlər üçün təlim)

https://www.muallim.edu.az/news.php?id=15039

15.Distant tədris prosesində diqqət və konsentrasiyanın əhəmiyyəti (tələbələr üçün təlim)

https://beu.edu.az/az/announcement/distant-tedris-prosesinde-diqqet-ve-konsentrasiyanin-ehemiyyeti-movzusunda-telim-kecirilecek-93?fbclid=IwAR3Omfum7DQoQBI1YY4fWhcFIytmD7Q_x-LFc5LzQctQJl12rn2CMC48n2k

– KT şöbəsi Elm və İnnovasiya şöbəsi və Texnopark Mərkəzinin ortaq təşkilatçılığı ilə universitet tələbələri üçün “COURSERA FOR CAMPUS” təhsil proqramı keçirmişdir. Proqramın əsas məqsədi koronavirusdan təsirlənmiş ölkələrin təhsil müəssisələrinə COURSERA şirkəti tərəfindən təhsil sahəsində dəstək vermək, gələcək karyeranın qurulmasında tələbələrə kömək etmək idi. Qeyd olunan proqram çərçivəsində BMU tələbələri dünyanın ən qabaqcıl 18 universitet və şirkətinin 400 ixtisas üzrə 4262 onlayn kurslarına qatılmaq imkanı əldə edə bilmişdir.

16. “Coursera təhsil proqramının tətbiqi üçün Texnoparkla birgə təşkil olunmuş təlimlər”
https://beu.edu.az/az/article/bmu-telebeleri-ucun-odenissiz-tehsil-proqrami-679

– 2021-2022-ci tədris ili ərzində həftə sonları BMU tələbələri üçün müxtəlif mövzularda olunan onlayn təlimlər təşkil olunmuşdur:

17. “Müəllim-tələbə münasibətlərində pedaqoji və psixoloji məqamlar-1”
https://beu.edu.az/az/announcement/muellim-telebe-munasibetlerinde-pedaqoji-ve-psixoloji-meqamlar-movzusunda-telim-155

18. “Müəllim-tələbə münasibətlərində pedaqoji və psixoloji məqamlar-2”
https://tehsil.biz/news/az/23575/Mllim-tlb-mnasibtlrind-pedaqoji-v-psixoloji-mqamlar-2-adl-nvbti-tlim

– KT şöbəsi Universitetin Tyutor və Laborantlarının İKT bacarıqlarının artırılması, kredit sistemi ilə tədrisin təşkili mövzusunda təlimlər təşkil etmişdir:

19. Tyutor və laborantlarda İKT bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlim
https://beu.edu.az/az/article/ikt-bacariqlarinin-tekmillesdirilmesi-meqsedile-telim-teskil-olunub-906

20. Tyutor və laborantlar üçün "Kredit sistemi ilə tədrisin təşkili"
https://beu.edu.az/az/article/training-on-quot-organization-of-education-with-credit-system-quot-organized-for-tutors-and-laboratory-assistants-1131

– İmtahan nəzarətçilərinin təkmilləşdirilməsi məqsədilə KT şöbəsinin əməkdaşları tərəfindən təlimlər keçirilmişdir:

21. İmtahan nəzarətçiləri üçün təlim
https://muallim.edu.az/news.php?id=20799

**3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti**

Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma kurslarında iştirak mexanizmi mövcud deyildir. Lakin universitetdə ingilis dilinin tədrisinin keyfiyyətinin daha da artırılması məqsədilə Pedaqoji fakültənin Xarici dillər kafedrası ilə ABŞ səfirliyinin İctimai əlaqələr üzrə departamenti arasında gerçəkləşmiş "Akademik məqsədlər üçün ingilis dili" proqramı çərçivəsində "Layihə əsaslı öyrənmə və tənqidi pedaqogika", "ESL dərs planı", "TESOL metodologiyası", "Peşəkar inkişaf təlimləri və peşəkar öyrənmə şəbəkələrinin təşkili" və digər mövzularda təlimlər keçirilib. Təlimlər iki semestr müddətində davam edib. Təlimləri müvəffəqiyyətlə başa vuran əməkdaşlara sertifikatlar verilib. Təlim proqramı çərçivəsində müəllimlər müasir ingilis dili metodikası, tədris texnikaları və digər istiqamətlər üzrə dərsləri praktiki məşğələlərlə öyrənərək, tədris prosesində tətbiqinə başlamışdır. Həmçinin bəzi əməkdaşlar şəxsi təşəbbüslərilə ixtisas sahələrinə aid müxtəlif təim kurslarında iştirak etmişdir. İxtisasartırma kurslarına, təlimlərə və ya digər kurslara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı təqribən 30% təşkil edir.

**3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti**

Universitetin təşkilatçılığı ilə bəzi əməkdaşlar ixtisas sahələrinə görə beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etmişdir. İnformasiya texnologiyaları ixtisası üzrə universitetin 7 əməkdaşı Cənubi Koreyanın İNHA universitetində təşkil olunan təlimlərdə iştirak etmişdir (11 iyul – 1 avqust 2022). Təlimlərdə məqsəd qarşılıqlı təcrübə mübadiləsi etmək, professor-müəllim heyətinin bilik və bacarıqlarının, təhsil təcrübəsinin inkişaf etdirmək olmuşdur. Cari ilin iyul-avqust aylarında inşaat mühəndisliyi, elektrik və elektronika mühəndisliyi ixtisasları üzrə 20-yə qədər müəllimin də İNHA universitetində beynəlxalq səviyəli peşəkar təlim proqramında iştirakı planlaşdırılmışdır. Beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında, mübadilə proqramlarında iştirak etmiş akademik heyətin ümumi akademik heyətdə payı təqribən 10%-dir.

**3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti**

Akademik heyətin tədris bacarıqlarının qiymətləndirilməsi açıq dərslərin keçirilməsi, onların müzakirəsi, tələbələr ilə sorğuların aparılması və sorğu nəticələrinin təhlil edilməsilə aparılır. Bu zaman yaradıcı və innovativ tədris bacarıqlarının da tətbiqinə diqqət olunur. Cari tədris ilinin payız və yaz semestrində açıq dərslər keçirilmişdir.

Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mexanizmi hazırlanır və 2023/24 -cü tədris ilindən etibarən tətbiq olunması nəzərdə tutulur.

**3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**

Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" na, "Təhsil, təlim-tərbiyə müəssisələrini rəhbər, inzibati-təsərrüfat, tədris-köməkçi və digər işçilərinin tutduqları vəzifə ilə yanaşı ixtisasları üzrə dərs yükü (pedaqoji iş) aparmaları haqqında normalar"a, "Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə"yə, "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə" və "Təhsil müəssisələrinin pedaqoji işçilərin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin qərarına uyğun aparılır. Bir ştat müəllimin tədris yükü 550-600 saat (ən az 60% auditoriya saatı, 40% isə auditoriyadan kənar saatlar olmaqla) nəzərdə tutulmuşdur.

**3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**

Mühəndislik, Memarlıq və inşaat, İqtisadiyyat və idarəetmə fakültələrinin tələbələrinin bəzi dərsləri ("Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", "İngilis dilində işgüzar və akademik kommunikasiya", "Riyaziyyat", "Fizika" və s.) Pedaqoji fakültənin tərkibində fəaliyyət göstərən kafedraların (Azərbaycan dili və pedaqogika, Xarici dillər, İngilis dili, Riyaziyyat, Riyaziyyat-informatika, Fizika) professor-müəllim heyəti tərəfindən tədris olunduğundan Pedaqoji fakültə üçün professor-müəllim heyətinin tələbə sayına nisbəti böyük, digər fakültələr üçün kiçikdir. Ümumi universitet olaraq bu nisbət 1/16 təşkil edir ki, bu da standart nisbətə (1/15) çox yaxındır.

**Cədvəl 6.** Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti

| Fakültə | Professor-müəllim heyətinin tələbə sayına nisbəti |
|---|---|
| Mühəndislik | 1/26 |
| Memarlıq və inşaat | 1/14 |
| İqtisadiyyat və idarəetmə | 1/20 |
| Pedaqoji | 1/6 |

| | |
|---|---|
| Universitet üzrə | 1/16 |

**3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti**

Cari tədris ilində tədris prosesində iştirak edən professor-müəllim heyətinin təqribən 65%-nin əsas iş yeri BMU-dur. Digər əməkdaşlar isə Elm və Təhsil Nazirliyinin tabeliyində olan universitet və institutlardan, həmçinin əmək bazarından (sənaye müəsisələrindən, bank sektorundan, özəl sektordan və s.) dəvət olunur. Bununla da həm müəssisələrarası bilik və bacarıq inteqrasiyası təmin olunur. Universitetin şəhər mərkəzinə uzaqlığı da bəzən əməkdaşların daimi iş yeri kimi cəlb olunmasına maneələr törədir.

**3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**

BMU-da kadr hazırlığı aparılan ixtisaslar əsasən mühəndislik və iqtisadiyyat yönümlü ixtisaslardır. Bu səbəbdən universitetdə sənaye müəsisələrində, bank sektorunda və böyük özəl şirkətlərdə çalışan mühəndis, maliyyəçi və digər mütəxəsislərin tədrisə cəlb olunması kadr hazılığının keyfiyyətini artırır, tələbələrin nəzəri biliklərinin praktik fəaliyyət və əmək bazarının ehtiyyaclarına uyğunlaşdırılmasına kəmək edir. Təcrübələr göstərir ki, bu proses nəticəsində məzun olan tələbələr iş görüşmələrində üstünlük qazanır və iş həyatına tez uyğunlaşırlar. Pedaqoji ixtisaslarda isə tədrisə Elm və Təhsil Nazirliyinin tabeliyində olan institutlardan əməkdaşlar cəlb olunur. Onların tədrisə qoşulması ilə tələbələrin tədqiatçılıq bacarıqları daha da inkişaf etdirilir.

BMU-da tədris prosesində iştirak edən professor-müəllim heyətinin təqribən 35%-i kənardan cəlb olunur. Bu heyətə yarımştat və saathesablı şəkildə cəlb olunan əməkdaşlar daxildir.

**3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti**

BMU-da akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi mövcud deyil. Lakin ingilis dilində tədris aparan müəllimlərin əməkhaqqına elmi şuranın qərarı ilə müvafiq əlavələr edilir. Saathesabı ilə dərs deyən müəllimlərə əməkhaqqı xüsusi razılaşma ilə ödənilir.

**3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor- müəllim heyətinin mövcudluğu vəziyyəti**

BMU əməkdaşlarından 57 nəfər xarici ölkələrdə təhsil alıb. Bu da ümumi akademik heyətin 19 %-ni təşkil edir.

**Cədvəl 7.** Fakültələr üzrə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim heyətin sayı

| Fakültə (lər) | Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim heyətin sayı |
|---|---|

| | |
|---|---|
| İqtisadiyyat və idarəetmə | 37 |
| Memarlıq və inşaat | 7 |
| Pedaqoji fakültə | 8 |
| Mühəndislik | 5 |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.8. Tələbəyönümlü tədris

**3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi**

BMU-da təhsilalanlar hər tədris ilinin yaz semesterinin sonunda növbəti tədris ilinin payız semestri üçün elektron məlumat sistemindəki şəxsi kabinetlərindən dərslərini seçərək fərdi tədris planlarını tərtib və təsdiq edirlər. Sonrakı mərhələdə tyutor tələbənin fərdi tədris planını yoxlayır və uyğun olduğu halda təsdiq edir. Əgər hər hansı bir uyğunsuzluq aşkar edilərsə, tələbənin tərtib etdiyi fərdi tədris planı tyutor tərəfindən ləğv edilir və tələbəyə müvafiq düzəlişlərlə bağlı tövsiyələr verilir. Tələbə yenidən fərdi tədris planını tərtib edib və tyutor təsdiqləyir. Anoloji olaraq payız semestrinin sonunda yaz semestri üçün fərdi tədris planı tərtib olunur.

**3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi**

Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin yer aldığı xüsusi seçmə fənlər bloku mövcuddur. İxtisas qruplarında tələbələrin sayına əsasən seçmə fənlərin müvafiq tədris ilində açılması planlaşdırılır. Təhsilalanlar fərdi tədris planlarını tərtib edərkən seçmə fənlər blokundakı fənlərdən seçmə imkanı əldə edirlər.

**3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi**

Mövcud təhsil sistemində təhsilalanlara təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorlar) seçimi nəzərdə tutulmamışdır. Təlhsilalanlara təklif olunan dərs cədvəlləri akademik qruplara uyğun tərtib edildiyindən təhsilalanlar fərdi tədris planlarını tərtib edərskən təhsilverənləri seçmə imkanları olmur. Butün bunlarla birlikdə qismən də olsa, təhsilalanlar seçmə fənlər blokundan seçmə fənləri seçərkən təhsilverənləri seçmə imkanı olur.

**3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası**

Bakı Mühəndislik Universiteti tədrisin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, tədrisdə və idarəetmədə mövcud vəziyyəti qiymətləndirmək və bunun əsasında səmərəli tədbirlər həyata keçirmək məqsədilə müxtəlif istiqamətlərdə anket sorğuları

təşkil etməkdədir. Bu məqsədlə universitetin Elektron Məlumat Sistemində mövcud olan "Anket" modulunda hazırki və daha öncəki illərə aid müxtəlif anketlərin nəticələri əlçatandır.

– **Tədris prossesini qiymətləndirmə anket sorğusu:**

2017-2018-ci tədris ilindən başlayaraq hər semestr ərzində tələbələr arasında universitetdə keçirilən bütün fənlər üzrə "Tədris prossesini qiymətləndirmə" anket sorğusu keçirilməkdədir. Ümumi olaraq BMU-da müəllimlər üzrə tədris prosesinin qiymətləndirilməsi istiqamətində 9 anket sorğusu keçirilmişdir.

Bu sorğuda illərə görə iştirak edən respondent sayının inkişaf dinamikası:

2017-2018 anket üzrə ümumi tələbə sayı: 1863

2018-2019 anket üzrə ümumi tələbə sayı: 3504

2019-2020 anket üzrə ümumi tələbə sayı: 2278

2021-2022 anket üzrə ümumi tələbə sayı: 2647

2022-2023 anket üzrə ümumi tələbə sayı: 5961

Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsinin inkişaf dinamikası:

2017-2018 ortalama: 86.16

2018-2019 ortalama: 88.1

2019-2020 ortalama: 89.88

2021-2022 ortalama: 88.1

2022-2023: ortalama: 89.4

– **Tələbə məmnuniyyəti anketi:**

2022-2023-cü ildən etibarən universitetdə "Tələbə məmnuniyyəti" anket sorğusu keçirilməyə başlanmışdır. Bu anket sorğusunda iştirak edən respondentlərin sayı 3577 nəfər olmuşdur. Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsi 72.45% - dir.

– **Təcrübənin qiymətləndirilməsi anketi:**

2022-2023-cü ildən universitetdə ilk dəfə təcrübənin qiymətləndirilməsi ilə bağlı anket keçirilmişdir. Anketdə iştirak edən təcrübəçi tələbə sayı 549 olmuşdur. Sorğu təcrübə ilə bağlı universitet və müəssisə haqqında 16 sualdan ibarətdir. Anketin məqsədinə uyğun məmnunluq səviyyəsi 83.7% olmuşdur.

Məzunlarla əlaqələrin inkişaf etdirilməsi, hazırkı tədris keyfiyyətinin yüksəldilməsi, əmək bazarında məzunlarımızın qarşılaşdıqları problemlər, işsiz məzunların iş tapa bilməmə səbəblərinin öyrənilməsi, cari məşğulluq vəziyyətlərinin sistemdə yenilənməsi, məzunların məmnunluq səviyyələrinin ölçülməsi məqsədi ilə bir neçə istiqamətdə sorğular keçirilmişdir. Sorğular telefon və google form vasitəsilə keçirilmişdir. 2022-2023 tədris ili ərzində 2000-dən çox məzunla telefon, e-mail, sosial şəbəkələr, google form və fərdi şəkildə əlaqə saxlanılıb və elektron məlumatları yenilənərək cari vəziyyətləri analiz edilmişdir. Alınan məlumatlar universitetin elektron məzun bazasına yerləşdirilmişdir. Sorğularda müxtəlif illərin məzunları iştirak etmişdir və bəzi soğular hələ də davam edir.

1. “Məzun məmnuniyyət” sorğu anketi 81 nəfər (sorğu hələ də davam edir)

2. “Məlumatların yenilənməsi” sorğu 351 nəfər (sorğu hələ də davam edir)

3. "İşsiz məzun qalmasın!" sorğu anketi 142 nəfər

**3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası**

Müxtəlif illərin məzunları arasında sorğu keçirilmişdir və təklifləri alınmışdır. Təkliflərin bəzilərini reallaşdırırıq bəzilərinə gələcək illərdə reallaşdırılması üçün işlər görüləcək.

Sorğuda iştirak etmiş məzunların təkliflərinin bir hissəsini məzun illərinə görə qruplaşdırıb aşağıda nəzərinizə çatdırıram.

**2019**

Doğru sıralanmış və prioritetləşdirilmiş sillabus, tələbələrin iş həyatında lazım olacaq soft skillərini artırılması üçün imkanlar;

Real iş mühitində lazım olacaq dərslərin çoxluğu;

Layihələr üzərindən proqramların istifadəsinin öyrədilməsi;

Təcrübə;

Universitet tələbələrinin şirkətlərə ziyarəti və biznes əlaqələri.

Yiyələndiyin sahəyə aid və digər sahələrdə yeniliklərlə tanış olmaq.

**2020**

Daha çox praktik yönümlü dərslərin keçirilməsi, Azərbaycanda yaşadığımızı nəzərə alaraq Neft və Qaz sahəsinə diqqətin artırılması, İmkanı olmayan tələbələrə hər cəhətdən dəstək olunması;

Dərslərin düzgün bölgüsü ola bilər, müəllimlərin dərs deməsi çətin olduğundan dərs saatları eyni günə yığılırdı və heç effektiv olmurdu;

Laboratoriyada maddə azlığından tez-tez istifadə etməyin mümkün olmaması;

Elmi tədqiqatlara ayrılan maddi dəstək artırılmalı;

Bəzi yeni proqramlar tədrisə əlavə edilməli;

**2021**

Tədris proqramında ciddi islahatlar olmalıdır. İxtisas, kafedraya aidiyyatı olmayan fənlər salınır, bu da əlavə vaxt və enerji itkisidir;

Kənardan müəllim gəlib dərs keçməli olsa hardan gəldi seçilməsin. Müəllim hansı universitetdən gəlirsə elə o universitetin ənənəsini də özü ilə gətirir. Beynəlxalq şirkətlərdən, müəssisələrdən, real iş mühitindən çıxmış təcrübəsi bol kadrlar dərs keçəndə tələbəni həm daha gözəl başa sala bilir, həm də tələbənin dil biliyində ciddi təsiri olur (bizə bir neçə elə mütəxəssis keçmişdi ordan görmüşdüm);

Maddi texniki baza və buna paralel müəllimlərin praktikası gücləndirilməlidir. Laboratoriyalarda o qədər bahalı, universal avadanlıqlar var , ancaq qapısından keçəndə üzlərini görə bilirdik;

Daha çox praktiki dərslər, böyük şirkətlər ilə əməkdaşlıq, ikili diplom fürsəti;

İşlə təmin etmək;

Kimyəvi analiz qurğularının hər biri olmuş olsa daha gözəl olar;

Məncə, universitetdə sadəcə dərslər olmamalıdır. İş həyatına hazırlıq üçün fənn dərsindən əlavə proqram dərsləri olmalıdır. Necəki bəzi universitetlərdə var;

Praktika imkanları yaxşılaşmalı, şitkətlərdə işləyən müəllimlərə üstünlük verilməli, bütün ixtisaslarda ingiliscə təhsil olmalı əsas da mühəndislik.

**2022**

Mühazirələri yeni məlumatlar əsasında hazırlamaq, elektron vəsaitlərdən daha yaxşı istifadə etmək və ixtisas üzrə əsas ola biləcək proqramlar keçmək, ofis proqramlarını daha yaxşı öyrətmək (əsas olaraq Excel);

2-ci kursdan ixtisasa uyğun təcrübələrə yönləndirilmə olsa əla olar. İxtisasa uyğun proqramların əlavə dərslər salınaraq keçirilməsi (dərs müdətində bunu etmək mümkün olmur vaxt məhduddur);

İxtisas fənlərinini saatlarının çoxaldılması;

İngilis dilinin tədrisinin (foundation) bərpası. Müəllimlərin daha çox istehsalat yönümlü şəxslərdən seçilməsi. Tədris proqramından lazımsız fənlərin çıxarılması və keçirilən fənlərin praktiki məşğələsi;

Praktika yönümlü təhsil sisteminin qurulması. Universitetdə müəllim, tyutor yaxud laborant olaraq işləyəcək şəxslərin seçiminin diqqətli şəkildə aparılması(Təhsilləri,təhsil verəcəkləri ixtisas üzrə yetəri qədər biliklərə sahib olub-olmadıqlarının müəyyənləşdirilməsi, müvafiq sahədə iş təcrübələrinin araşdırılması). Müəllim olaraq işə götürüləcək şəxslərin pedaqoji cəhətdən yetərlilikləri (tələbələrlə davranış tərzləri və öyrətmə qabiliyyətləri) və ən son olaraq da insani keyfiyyətlərinin müəyyən edilməsi(məncə bu maddə də yetəri qədər önəmlidir);

Durmadan ixtisas açıb universiteti tipik dövlət universitetinə çevirirlər, çox tələbə zəif təhsildənsə az tələbə keyfiyyətli təhsil lazımdır;

İngilis sektoru tələbələrinə dərsdə azərbaycanca dərs keçilməməsi;

Yataqxananın bütün tələbələr üçün əlçatan olması;

Kafedranın inkişafı üçün yeni müəllimlər cəlb olunması;

İnternship imkanlarının artırılması, daha praktika yönümlü sillabusların olması;

Kimya mühəndisliyi üçün danışmalı olsam ingilis dilin öyrənmə mərhələsin daha sərt edərdim uşaqlar universiteti bitirdikləri zaman özlərin yetərli bir səviyyədə ingilis dili bilməsi təmin olunmalıdı. Kimya mühəndisliyində emal dərslərinə üstünlük verilməlidir. Bir çox lazımsız fənn keçilir onum yerinə neft emalı, su təmizləmə, yenilənə bilən enerji sahələri ııə bağlı dərslər əlavə edilməlidir və aspen hsysy və modelləmə dərslərinə daha çox önəm verilməlidir;

Xarici şirkətlər və digər xarici universitetlərlə daha çox əməkdaşlıq;

Xarici müəlliflərin son nəşr tədris kitablarının kitabxanada mövcudluğu;

İmtahan əvəzinə layihələrlə işləmək.

**3.8.6. Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti**

Bakı Mühəndislik Universiteti Keyfiyyətin Təminatı şöbəsi, 2021-2022 və 2022-2023-cü tədris illəri üzrə müxtəlif səpkidə anket sorğuları keçirmişdir. Anket sorğuları elektron formada, anonimlik tam şəkildə qorumaqla universitetin Personal Məlumat Sisteminin (PMS) Anket modulunda təşkil olunmaqdadır. Anket sorğusu intranet və internet üzərindən universitetin əməkdaşları, professor-müəllim və tələbə kollektivi üçün əlçatanlığı https://pms.beu.edu.az/index.php?mod=anket linki üzərindən təmin edilmişdir. Anket sorğusunun nəticələri sorğunun əlaqələndirdiyi hər kəs üçün açıq olur. Daha sonra nəticələr arxivlənərək qorunur və bu məlumatlar istənilən vaxt əldə oluna bilir.

**Tədris prosesinin qiymətləndirilməsi (müəllimlər üzrə)**

2021-2022-ci tədris ilində keçirilən anket sorğusunda tədris prosesinin qiymətləndirilməsi məqsədilə tələbələrə 11 sual ünvanlandırılmışdır. Anket sorğusunun nəticələri haqqında ümumi hesabat KT şöbəsi tərəfindən hazırlanaraq BMU rəhbərliyinə təqdim olunmuşdur.

1. **2021-2022**-ci tədris ilinin I və II semestrlərində universitetdə tədris prosesinin qiymətləndirilməsi üçün anket sorğuları keçirilmişdir. I semestrdə keçirilən anket sorğusunda 1963 tələbə iştirak etmişdir.

2. Eyni tədris ilinin II semestrində universitetin tədris prosesinin qiymətləndirilməsi ilə bağlı keçirilən anketdə iştirak edən tələbə heyətinin sayı 684 olmuşdur.

- **2022-2023**-cü tədris ilinin I və II semestrlərində universitetdə tədris prosesinin qiymətləndirilməsi ilə yanaşı, Tələbə məmnuniyyəti, Təcrübənin qiymətləndirilməsi məqsədilə də müxtəlif anket sorğuları keçirilmişdir.
    1. PMS-də universitetdə tədris prosesinin qiymətləndirilməsi məqsədilə I semestrdə keçirilən anket sorğusunda 2410 tələbə iştirak etdiyi qeyd olunub.
- Cari ilin II semestrində keçirilən müxtəlif anket sorğularının nəticələri aşağıdakı kimidir:
    1. Tədris prosesinin qiymətləndirilməsi (müəllimlər üzrə) üzrə sorğu keçirilmişdir. Anket yenilənmiş 10 sualdan ibarət olmuşdur. Bu anketdə iştirakçı tələbələrin sayı: 3351-dir.
    2. Tələbə məmnuniyyəti - Anketdə 37 sual qoyulmuşdur. Universitetin qiymətləndirilməsi məqsədilə tələbələr arasında keçirilən ümumi anketdə iştirakçıların sayı: 3561;
    3. İstehsalat və pedaqoji təcrübələrin qiymətləndirilməsi üzrə keçirilən anket sorğusunda 16 sual qoyulmuşdur. İştirak edən ümumi tələbə sayı: 537 olmuşdur.

Qeyd etdiyimiz kimi, KT şöbəsi tərəfindən keçirilən müxtəlif anket sorğuları universitetin rəhbərliyinə və əlaqədar struktur bölmə rəhbərləri ilə paylaşılmaqdadır.

**3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti**

Təhsilalanlar şikayət və təkliflərini, istətikləri zaman, ilk növbədə akademik məsləhətçilərinə edirlər. Sonra, lazım olarsa, dekana ərizə ilə müraciət edə bilərlər. Rektora birbaşa ərizə ilə müraciət edənlər də olur. Bu halda rektor ərizəni müvafiq prorektora və dekana yönləndirir. Rəsmi şikayətlər rəsmi olaraq cavablandırılır və sənədləşdirilir.

Tələbələr elektron poçt vasitəsilə də şikayətlərini bildirməkdə sərbəstdirlər. Bəzən də bu imkandan artıqlaması ilə istifadə edirlər. Eyni anda bir şikayəti onlarla ünvana göndərirlər.

İmtahan sessiyası müddətində universitet üzrə rəsmi Appelyasiya komissiyası təşkil olunur. İmtahan nəticəsindən narazı olan bütün tələbələr, müraciətləri əsasında, qərərgahda cavab kağızının yoxanılması ilə tanış edilir. Əgər yoxlamanın nəticəsindən tələbənin əsaslı narazılığı olarsa, o Appelyasiya komissiyasına ərizə yazır. Komissiya tələbənin iştirakı ilə yoxlamanın nəticəsini dəyərləndirir və müvafiq qərar verir.

**3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti**

Kredit sistemi ilə tədrisin təşkilində akademik məsləhətçilərin (tyutorların) rolu böyükdür. Onlar magistr dərəcəsinə malikdirlər və dekana tabedirlər. Dekanlıqda və ya müvafiq kafedralarda işləyirlər. İxtisas qruplarının tyutorlara təhkim olunmasında onların ixtisaslarının uyğunluğu nəzərə alınır. Tədris prosesinin bütün mərhələlərində, fənn və müəllim seçimindən başlayaraq müvafiq kreditləri qazananadək tyutorlar tələbələrlə sıx əlaqədə olurlar.

**3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti**

Akademik məsləhətçilər tələbələrlə əsasən qrup nümayəndələri, lazım gəldikdə isə birbaşa əlaqə saxlayırlar. Fakültənin dekan və dekan müavinləri, müvafiq kafedra müdirləri və akademik məsləhətçiləri qrup nümayəndələri ilə semester ərzində bir-iki dəfə ümumi yığıncaq formasında görüşürlər. Ayrıca qrup tələbələri ilə akademik məsləhətçilər mütəmadi görüşür, onların şikayət və təkliflərini dinləyir və dekana çatdırır.

Həm tələbələrin, həm də təhsilverənlərin istifadə etdikləri koperativ email hər iki tərəf arasında daha sürətli kommunikasiyanın təmin edilməsinə xidmət edir. Bundan başqa akademik məsləhətçi və qrup nümayəndələrinin daxil olduğu WhatsApp qrupları hər zaman onların arasında ümumi, interaktiv kommunikasiyanı təmin edir.

Pandemiya dövründə tələbələrlə Google Meet platforması vasitısilə onlayn kommunikasiya davamlı ilə həyata keçirilmişdir. Postpandemiya dövründə daha çox üzbəüz görüşlərə üstünlük verilsə də, zərurət yarandıqda online kommunikasiya imkanlarından istifadə edilir.

**3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti**

Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədrisi BMU-da nəzərdə tutulmayıb

**3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti**

Sosial həssas qrupa aid edilən tələbələrin qanunvericilikdə nəzərdə tutulan güzəşt və imtiyazlardan tam istifadəsi təmin edilir. Bundan əlavə onların Təhsil Tələbə Krediti Fondundan güzəştli (illik 2%) kredit əldə edərək illik təhsil haqqını ödəmək imkanları var.

**3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti**

Təhsilalanlara Universitet tərəfindən təqaüd ayrılmayıb

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi

**3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu**

Tədris planlarının hər tədris ilinin əvvəlində tədris metodiki şurada monitorinq aparılır və fakültələrdən gələn təkliflər əsasında zəruri dəyişikliklər aparılır.

**3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu**

Fənlərin fənn proqramları tərtib olunarkən bu fənnin tədris proqramlarında öz əksini tapan təlim nəticələri əsas götürülür. Bu proqramlar fənni tədris edən və təcrübəli müəllimlər tərəfindən hazırlanır. Sonrakı mərhələlərdə mütəxəssislərdən rəy alınır və kafedra iclaslarında müzakirə olunur. Bu mərhələlərdə fənn proqramlarının təlim nəticələrinə uyğunluğu nəzərdən keçirilir və təkmilləşdirilir. Sillabuslar hazırlanarkən və fənn tədris olunarkən tələbələrin təlim nəticələrini əldə etməsi diqqətə alınır. Semestr daxili və semester sonu qiymətləndirmələr, sərbəst işlərin təqdim olunması zamanı tələbələrdə bu bilik və bacarıqların formalaşması yoxlanılır. Tədris ilinin sonunda kafedradaxili müzakirələrdə bu məsələlər müzakirə olunur və ehtiyyac olarsa, növbəti tədris ilində bu fənlərin sillabusları hazırlanarkən bu məsələlər nəzərə alınır. İstehsalat və pedaqoji təcrübələrin nəticələrinin müzakirəsi zamanı tələbələrin tədris dövründə əldə etdikləri təlim nəticələrinin keçdikləri təcrübələrdə öz əksini tapması müzakirə olunur, ehtiyac yaranarsa yeni fənn proqramlarının tərtibində uyğun məsələlər diqqətə alınır.

**3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti**

Təhsil proqramlarının monitorinqi zamanı əsas istiqamət təhsil proqramının tətbiqi haqqında məlumat və rəylər toplamaqdır. Bu prosesdə həm təhsilalanların, həm də işəgötürənlərin fikirlərinin öyrənilməsi mühüm məsələ kimi diqqətdə saxlanılır. Hal-hazırda AR Elm və Təhsil Nazirliyi tərəfindən 2020-ci ildə təsdiq olunan tədris proqramları tətbiq olunur. Bu təhsil proqramları ilə təhsilə başlayan tələbələr 2023/24-cü tədris ilində məzun olur. Dörd tədris ili tam bitdikdən sonra toplanılan rəylər və müşahidələr əsasında ehtiyac olan tədris proqramlarının yenilənməsi və təkmilləşdirilməsi planlaşdırılır.

**3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti**

Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı mövcuddur. İxtisaslar üzrə təhsil proqramalarının məzmunu və mənimsənilmə səviyyəsi təhsilin nəticələrinə görə təhlil olunur, təhsilalanların hansı təhsil proqramlarına üstünlük verməsi izlənilir.

Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət olunur. Təlim nəticələrinə dair hesabatlar hazırlanır və təhlil olunur.

Təhsil proqranlarının monitorinqi nəticəsində daha üstün təlim metodlarının seçilməsi, məzmun baxımından bir sıra fənlərin (peçə hazırlığının seçmə fənləri) yenisi ilə əvəz olunması, qiymətləndirmə meyarlarına yenidən baxılması və s. kimi əmək bazarının tələblərini və informasiya texnologiyalarının müasir imkanlarının tətbiqini nəzərə almaqla ixtisasların peşə hazırlığının əsaslarını təşkil edir və burada əsas məqsəd təlim nəticələrinin əldə olunmasını təmin etməkdən ibarətdir.

Təhsil proqramları üzrə hazırlığın illik özünüqiymətlədirmə hesabatları hazırlanır və Universitetin Elmi şurasında müzakirə olunaraq təhlil edilir və müvafiq qaydada qiymətləndilir.

Universitetdə tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğun 2020-ci ildə müvafiq qaydada hazırlanaraq rəsmiləşdirilmişdir.

**3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti**

BMU-da təhsil proqramları ali təhsil üzrə dövlət proqramları, milli standartlar, cəmiyyətin, sənayenin, istehsalın və əmək bazarının tələbləri nəzərə alınmaqla hazırlanır. Təhsil proqramının məzmunu müvafiq ixtisaslar üzrə son tədqiqatlar və beynəlxalq təcrübələr nəzərə alınmaqla mütəmadi olaraq yenilənir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində təşkil olunan komissiya tərəfindən ali təhsil üzrə təhsil proqramları hazırlanıb təsdiq edildikdən sonra universitetdə yaradılan komissiya tərəfindən tədris planları hazırlanmışdır.Tədris olunan təhsil proqramlarının əmək bazarına və cəmiyyətin tələblərinə uyğun yenilənməsi ilə əlaqədar məzunlarının əmək bazarında iştirakının payı izlənilir. Bu məqsədlə Universitetdə təcrübə, müəssisələrlə əlaqələr və karyera departamenti fəaliyyət göstərir. Burada universitet məzunlarının işlə təmin olunması prosesi izlənilir, həmçinin regionda olan müəssisə və təşkilatlarla əməkdaşlıq edilir və onların iştirakı ilə hər il əmək yarmarkası keçirilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

**3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetində Müəssisələrlə Əlaqələr və Karyera Departamenti 31.03.2017 ci il tarixində yaradılmışdır. Departament BMU-nun struktur bölməsidir və birbaşa rektora tabedir. Departament Əsasnaməsinin verdiyi səlahiyyətlər çərçivəsində universitet-müəssisə, universitet-məzun və məzunlar arasında əlaqəni təşkil edir və ali təhsilin bütün səviyyələrində təhsilalanlar və məzunların karyera inkişafı və məşğulluğunun tənzimlənməsində yardım göstərir. Departament məzunlarla universitet arasında olan əlaqələri qoruyub saxlamaq və inkişaf etdirmək məqsədi ilə aşağıdakı fəaliyyətləri həyata keçirir:

1.Məzunlarının işlə təmin edilməsi məqsədi ilə özəl və dövlət qurumları ilə əməkdaşlığın qurulmasını və tələbələrin ixtisasları üzrə dövlət və özəl müəssisələrdə təcrübə keçmələrini və işlə təmin olunmasına köməklik göstərmək;

2. Tələbələrə karyera planlama fikrini aşılayır və onların karyeralarının inkişaf etdirmələrinə köməklik göstərir;

3. Müəssisələrlə əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə Karyera Günləri (seminar, konfranslar, forum və s.) təşkil edir;

4. Tələbələri təşkil olunmuş təlimlər vasitəsi ilə CV hazırlama, iş axtarma, işə müracət və müsabiqədə iştirak qaydaları haqqında maarifləndirir;

5. Tələbələrin praktiki təcrübələrini inkişaf etdirmək, dünyagörüşlərini artırmaq məqsədi ilə ixtisaslarına uyğun olaraq müvafiq müəssisələrə günlük təcrübə xarakterli gəzintilər təşkil edir;

6. Tədqiqat-araşdırma, kurs və buraxılış işlərinin, magistrantların dissertasiya mövzularının praktiki hissəsinin araşdırılması üçün tələbələrin müvafiq müəssisələrlə əlaqəsini təmin edir;

7. Yerli və beynəlxalq müəssisələrin təşkil etdiyi təqaüd proqramları haqqında tələbələri məlumatlandırır və bu proqramlarda iştirakına köməklik göstərmək;

8. Müəssisələrin müvafiq tələbə və məzunlara istiqamətli vakant vəzifələr üzrə kadr seçimi imtahanlarını təşkil edir;

9. Universitetdə müasir tədris texnologiyaları üzrə ekspert-məsləhət xidmətləri göstərmək məqsədi ilə müəssisələrin aparıcı mütəxəssisləri tərəfindən müxtəlif sahələrdə müvafiq dərslərin verilməsini (master-klass şəklində) təşkil edir;

10. Müəssisələrin zəngin istehsalat təcrübələrinin universitetdə istifadəsi, universitet müəllimlərinin və tələbələrinin müəssisələrin fəaliyyətinə cəlb edilməsi, ölkənin sahibkarlıq sektorunun elmi-tədris işlərinə cəlb edilməsi məqsədi ilə müəssisələrlə qarşılıqlı əməkdaşlıq müqavilələrin bağlanmasını təşkil edir ;

11. Məzunların iş həyatında qazanmış olduqları təcrübələri tələbələrə aşılamaq məqsədi ilə məzun-tələbə görüşləri təşkil edir ;

12. Məzunların statistik və cari vəziyyətlərini əks etdirən məlumat bazasını (Elektron Məzun Məlumat Sistemi) daim yeniləyir.

**Departamentin idarə olunması**

Departamentin işçi heyəti direktor və iki mütəxəssisdən ibarətdir və direktor tərəfindən idarə edilir.Direktor və departamentin digər əməkdaşları BMU-nun rektoru tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad edilir.

**Direktor:**

- Departamentin iş fəaliyyətinə nəzarət edir və onu təmsil edir;
- Departamentə aid olan sənədləri imzalayır;
- Departamentin işinə aid olan sənədlərin icrasını təşkil edir, yoxlayır və nəzarət edir;
- Departamentin əməkdaşlarının iş bölgüsünü aparır;
- Həvalə olunmuş vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi, hüquqların həyata keçirilməsi və məlumatların konfedensiallığı üçün şəxsən məsuliyyət daşıyır.

**Mütəxəssis:**

- Universitetin müəssisələrlə əlaqələrini qurmaq və inkişaf etdirmək;
- Tələbə və məzunların karyera qurmalarına köməklik göstərmək;
- Karyera günləri (seminar,konfranslar,forum) təşkil etmək;
- Tələbələrin ixtisaslarına uyğun olaraq müvafiq müəssisələrə günlük təcrübə xarakterli gəzintilər təşkil etmək;
- Tələbə və məzunların ixtisaslarına uyğun işlə təmin edilməsinə köməklik göstərmək.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Bakı Mühəndislik Universitetində tələbə və məzunlara karyera məsləhət xidmətləri Müəssisələrlə Əlaqələr və Karyera departamenti tərəfindən həyata keçirilir. Müəssisələrlə əlaqələr və karyera departamenti tələbə və məzunların karyeralarını inkişaf etdirmələrinə, iş dünyasına hazırlanmalarına, ixtisaslarına uyğun iş tapmalarına və iş həyatının hər pilləsində uğur əldə etmələrinə köməklik göstərir. Əmək bazarının tələblərinə uyğun keyfiyyətli kadr ehtiyacları universitet və sənaye arasında olan əməkdaşlığın artmasına təkan verən amillərdən

biridir. Məhz bu məqsədlə mütəmadi olaraq yerli və xarici müəssisələrin nümayəndələri ilə görüşlər keçirilir. Görüşlər zamanı təcrübə yerləri, işçi təminatı, master-klass, seminarlar, əməkdaşlıq müqaviləsi və müxtəlif əməkdaşlıq məsələlərində razılaşmalar əldə edilmişdir. **2017-2023** tarixlərində **70-dən çox** yerli və xarici müəssisənin ( "Bakı Tekstil Fabriki (BTF)" MMC, Paşa Bank, Abşeron Dövlət Aqrar İnkişaf Mərkəzi (DAİM), «Atəşgah» Sığorta Şirkəti, BP, Azercell Telecom MMC, Paşa İnşaat MMC, ATL İnfoTech MMC, Kapital Bank ASC, ASB Bank ASC, Basf Caspian MMC, Metak MM, Azertexnolayn MMC, North West Construction MMC, Kənd Təsərüffatı Nazirliyi, Sumqayıt Kimya Sənaye Parkı, Gilan Holding, "Azərbaycan Coca-Cola Bottlers LTD" MMC, Takeda Azərbaycan, LANDAU Məktəbi, PMD Projects, Deloitte, bakcell, KPMG, Carlsberg Azərbaycan, Avrora şirkəti, STP, BRAVO, Veysəloğlu şirkətlər Qrupu, Delta Group C.O MMC, Norm ASC, Grand Motors LLC, Azərbaycan Beynəlxalq Bankı, Neuron Texnologies, "Hospitalica Group" MMC, Edu Grata təhsil mərkəzi, RİSK Company, Norm ASC, Azerkosmos, Unico MMC, Azecolab, Mərkəzi Bank , Əmanətlərin Sığortalanması Fondu, Aztelecom MMC, MKT Coton MMC Technol, MİDA Əmlak Komitəsi və s) İnsan Resurları (İR) departamentinin əməkdaşları ilə görüşülmüş və 3-cü və 4-cü kurslara və məzunlara yönəlik bir sıra fəaliyyətlər icra edilmişdir.

- Müəssisələrlə əlaqələrin daimi olması məqsədi ilə Universitetimiz Aqrar Sığorta Fondu, Delta Group, Azertexnolayn MMC, Veysəloğlu Şirkətlər Qrupu, AMAK İctami Birliyi, ATL İnfo Tech MMC, Azgranata Ticarət və Dağıtım MMC və Sinteks Şikətlər Qrupu, "Sumqayıt Kimya Sənaye Parkı" MMC, "Takeda" MMC, "Halal-P" MMC, Aztelekom MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "Norm" ASC, "Azerbaijan Coca-Cola Bottlers" MMC, STP ilə Əməkdaşlıq Protokolları imzalamışdır.
- Tələbələrin praktiki təcrübələrini inkişaf etdirmək və iş yerləri ilə yaxından tanış olmaları məqsədi ilə müvafiq müəssisələrə **Günlük Təcrübə gəzintiləri** təşkil edilmişdir. **(**FAB Boya və Kimya Sənayesi MMC, Azərkosmos ASC, Azərkimya İstehsalat Birliyinin Etilen - Polietilen Zavodu, "Ulduz" şokolad fabriki, STP, Hövsan Aerasiya Stansiyası, "SOCAR Downstream Management" MMC, "SOCAR Polymer", "Az-Granata" Ağsu Şirə və Şərab emalı zavodu, Coca-Cola Bottlers MMC, Gilan Seramik Zavodu, Gilan Tekstil Park, RAM LTD, Socar, Azərsu ASC, Təmiz şəhər ASC, Azərenerji ASC, "Norm" ASC, Azərsu ASC-nin Mərkəzi Laboratoriyası, Azecolab MMC, SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodu, PMD Group MMC Hilton Garden layihəsi və s)
- BMU Memarlıq və inşaat fakültəsi, Mühəndislik, İqtisadiyyat və İdarəetmə fakültəsinin son kurs tələbələrinin 3 aylıq **istehsalat təcrübəsi** keçməsi üçün hər il 60-dan artıq yerli və beynəlxalq müəssisə və təşkilatlara əlaqə saxlanılaraq rəsmi məktublar yazılmış və ixtisaslara uyğun olaraq tələbələrə təcrübə yerləri təşkil edilmişdir.
- **Yerli və beynəlxalq müəssisələrin** (BMTM, "Bakı Tekstil Fabriki (BTF)" MMC, Abşeron Dövlət Aqrar İnkişaf Mərkəzi (DAİM), Azərbaycan Respublikasının Mərkəzi Bankı, Gulfstream, Carlsberg Azərbaycan, Azərtexnolayn MMC, PROES MMC, Technol şirkəti, Veysəloğlu Şirkətlər Qrupu MMC, Kapital Bank ASC, ATL, STP, Gilan Holding, P&G, Deloitte & Touch" LLC, North West Construction(Paşa İnşaat ), KPMG, Nömrə 1 uşaq Bağçası, Norm Sement Zavodu, Google, EY, AVRORA MMC, Paşa İnşaat MMC, , SOCAR AQS, Schlumberger şirkəti, ARDNŞ, Bravo Marketlər Şəbəkəsi, R.İ.S.K. Company, Landau Məktəbi, 166 Yükdaşıma və Logistika şirkəti, Carlsberg Azərbaycan Əmlak komitəsi**,** İnnovasiyalar Mərkəzi, BIRainy, Bp, AMAK, OBA Merketlər şəbəkəsi, Grand Motors MMC, Azerbaijan Coca-Cola Bottlers LTD, PMD Project, Pasha Capital İnvestment Company, Pasha Bank ASC, Prosol Azercell Telecom MMC, Azərbaycan Beynəxlaq Bankı ASC, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, "Araz Supermarket" MMC, EKVİTA, EVRASCON ASC-, Tabaterra QSC, Kristal Abşeron, "UNİ KO" QSC, Baku Electronics MMC, Ram Holdinqin "İnformasiya Texnologiyaları" şöbəsi, İceland MMC, "UNİCO" QSC, "SOCAR Polymer", Baku Holiday Travel, Fred's English, Universal

Group MMC , və s.) **təşkil etdiyi təcrübə proqramları haqqında tələbələr ilə görüşlər təşkil edilərək məlumatlatlandırılmış və tələbələrin bu proqramlarda iştirakı təmin edilmişdir.**

- Tələbələrə karyera fikrini aşılamaq üçün mütamadi olaraq **karyera seminarları təşkil edilmişdir.** (KPMG, Əmlak məsələləri üzrə dövlət komitəsi, Aztelekom MMC, Paşa İnşaat MMC, Bravo Marketlər Şəbəkisi, 166 Yükdaşıma və Logistika şirkəti, Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə yaradılmış "Aqrar İnkişaf Könüllüləri" hərəkatı, P&G, Deloitte & Touch" LLC, North West Construction, Əmrahbank ASC )
- Sənaye və xidmət müəssisələrinin ( HRcell, Dövlət Məşğulluq Agentliyi, Mərkəzi Bank, Paşa Şirkətlər Qrupu, E-manat MMC, Özgün Yapı MMC, İnnab Karyera Mərkəzi, Azərkosmos, Paşa Bank ASC, "AIESEC", Hrcell, Azerbaijan Coca-Cola Bottlers LTD, "UNİCO" QSC, "Azərkosmos", Deloitte Azerbaijan, bp, ABB İnnovasiya Mərkəzi-, Socar, Azertexnolayn MMC, Veysəloğlu Şirkətlər Qrupu, "Norm" ASC, "Grant Thornton Azerbaijan" şirkəti, IT talks, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası) aparıcı mütəxəssisləri tərəfindən tələbələrimiz üçün müxtəlif sahələrdə **master-klasslar** təşkil edilmiş və bu tədbirlərdə 400-dən artıq tələbə iştirak etmişdir.
- Yerli və beynəlxalq müəssisələrin **(**Schlumberger, "Norm" ASC, PROSOL, "Grant Thornton Azerbaijan", North West Construction (Paşa İnşaat), KPMG, Gilan Holding, Deloitte & Touch" LLC şirkəti**,** Veysəloğlu Şirkətlər Qrupu, Ramco QSC) "**İşə qəbul" imtahanının 1-ci mərhələsini BMU-da keçirmişdir.** İmtahanlarda 150-dən artıq tələbəmiz iştirak etmişdir.
- BMU tələbələrinin də müraciət edə biləcəyi yerli və beynəlxalq müəssisələrin təşkil etdiyi **təqaüd proqramları** haqqında tələbələr məlumatlatlandırmış və tələbələrin bu proqramlarla bağlı görüşlər təşkil edlmişdir; (Azersun holding, Paşa Holding, Azercell Telekom MMC, Petronas, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, "Tecnnest" Təhsil təqaüdü proqramı, TALANT Təqaüd Proqramı, Nova, Socar, Coca-Cola Bottlers MMC, BP, North- West Construction və s)
- 15.11.2018 tarixində Sənaye Mühəndisliyi Klubunun təşkilatçılığı və departamentinin dəstəyi ilə ilə **Karyera sərgisi** təşkil edilmişdir; ( Sərgidə 14-dən artıq şirkət və 500-ə yaxın tələbə iştirak etdi)
- 18.03.2019 tarixində DSMF ilə birgə **Karyera sərgisi** təşkil edilmişdir; ( sərgidə 73 müəssisə tələbə və məzunlara müxtəlif vakansiyalar üzrə ümumilikdə 543 iş yeri və 26 təcrübə proqramı təklif edib)
- 15.12.2022 tarixində DSMF ilə birgə **"Karyerada ilk addım"** adı altında karyera sərgisi təşkil edilmişdir; ( sərgidə 44-dən çox müəssisə 20-dən çox universitet və kollecin tələbə və məzunlarına 500-dən çox müxtəlif vakansiyalar təklif edib)
- 19.04.2023 tarixində tələbə və məzunlara "Düzgün CV hazırlama qaydaları" haqqında təlim keçirildi.Təlimçi HRcell şirkətinin rəhbəri Ağahüseyn Əliyev idi. Təlimin sonunda tələbələrin CV faylları təlimçi tərəfindən yoxlanıldı və səhvlərinə düzəlişlər olundu. Tələbələrə nümunə CV faylları göndərildi.
- 27.04.2023 tarixində İnsan Resursları üzrə mütəxəssis Saleh Həsənov tələbə və məzunlara "İş Müsahibəsi" haqqında təlim keçdi. Müsahibələr zamanı ən çox edilən səhvlər və müsahibə qaydaları haqda məsləhətlər verildi.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Müəssisələrlə Əlaqələr və Karyera departamenti tərəfindən məzunlarla əlaqə bir neçə istiqamətdə qurulur. 2018-ci ildən etibarən Elektron Məzun Məlumat Bazası yaradılmışdır. Bazada məlumatı yerləşdirilən hər bir məzunun cari məşğulluq vəziyyəti, İxtisası üzrə çalışıb çalışmadığı, əgər çalışmırsa səbəbləri qeyd edilir.

Müəssisələrdən gələn vakansiyalar məzunlarımız üçün yaratdığımız mezun@beu.az gmail ünvanı üzərindən gmail qrupda, həmçinin məzun məlumat bazasından müəssisələrin

göndərdikləri vakansiya istiqamətlərində uyğun ixtisasların məzunları filter edilərək onların şəxsi email ünvanlarına göndərilir. Hər il mütəmadi olaraq məzunlarımızın məşğulluq məlumatları analiz edilərək illik statistiklarının nəticələri rəhbərliyə təqdim edilir.

Məzun məlumat bazasında məzunlar daim izlənərək onlarla mütamadi olaraq telefon və email vasitəsylə əlaqələr qurulur. Bazadan məzun statistikası analiz edilərək bazada cari vəziyyətləri iş axtaran, hərbi xidmətdə olan, xarici ölkələrdə təhsil alan kimi qeydiyyatda olan məzunlarla yenidən əlaqə saxlanılaraq cari vəziyyətləri bazaya daxil edilir.

Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin təkmilləşməsi üçün istifadə etdiyimiz Elektron Məzun Məlumat Bazasında nümunədə göstərilən kimi məzunların cari vəziyyəti izlənilməkdədir və sistem davamlı analiz edilərək mütəmadi olaraq yenilənir.




https://pms.beu.edu.az/index.php?mod=alumni_info

Hal hazırda məzunlarımızın 61.1 % işləyir, 20.4% iş axtarır, 18.5% müxtəlif səbəblərdən (hərbi xidmət, analıq məzuniyyəti, öz istəyilə və s.) öz istəkləri ilə işləmir. Hal hazırda 400-dən artıq məzunumuz müxtəlif ölkələrdə oxuyur vəya əmək fəaliyyəti ilə məşğuldur.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Bakı Mühəndislik Universitetində tədris proqramlarına “Karyera planlaması”, “Yumşaq bacarıqlar (Soft skills)”, “Sərt bacarıqlar (Hard skills)” kimi fənlər əlavə edilmişdir.

Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi ilə bağlı məzunlarla sorğular keçirilir. Məzunlarla keçirilən sorğular həm birbaşa telefon vasitəsi ilə həm də elektron formlar vasitəsi ilə keçirilir. Həmçinin məzunların universitet vaxtı əldə etdikləri yumşaq və sərt bacarıqları ilə bağlı məzunlarımızın çalışdığı müəssisələrlə də sorğu keçirilir.

**Sorğuların inkləri aşağıdadır:**

1. "Universitet-iş dünyası əlaqələri" sorğu anketi https://forms.gle/SSwBsiZtHj1EvpTw7

2. “Məzun məmnuniyyət” sorğu anketi https://forms.gle/PXX8CyPcp8xyQ8JS9

3. “Məlumatların yenilənməsi” sorğu https://forms.gle/T4EvZNnpyuGJnreQ8

Departament tərəfindən keçirilən sorğularda məzunların təhsil aldıqları müddətdə əldə etdikləri biliklərin cari iş həyatındakı rolu yaxud çatışmazlığı, fənlərlə bağlı rəylərin öyrənilməsi, cari məşğulluq vəziyyətləri üzrə sualları əhatə edir.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Bakı Mühəndislik Universiteti ildən ilə böyüyür, məzunları ildən-ilə artır. Hər il artan məzun potensialını daha aktiv, koordinasiyalı, faydalı etmək üçün Müəssiələrlə Əlaqələr və Karyera departamenti ölkə daxili və xaricində olan məzunlarımızla daha sıx əlaqələr qurmağa çalışır. Dünyanın bir neçə ölkəsində, Amerika, Kanada, Kolumbiya, Rusiya, Almaniya, Avstralya, Sudan, Çexiya, Danimarka, Fransa, İngiltərə, İsveç, İtaliya, Meksika, Qazaxıstan, Yaponiya, Türkiyə və s. kimi məzunlarımız fəaliyyət göstərir. Məzun Gmail group (BMUmezunu@googlegroups.com) vasitəsilə məzunlarımıza universitetdəki ən son yeniliklərdən, fəaliyyətlərdən, vakansiyalardan, tədbirlərdən, seminarlardan xəbər veririk. Məzunlarımız bildiklərini, səmimi hisslərini, yeni xəbərləri və s. yazır. İşsiz məzunlarımızla tez-tez əlaqə saxlanılır. Yeni iş yerləri və vakansiyalardan xəbərdar edilir.Universitetə ziyarətə gələn qonaq məzunlar qarşılanır, lazımı məsləhətlər verilir, köməklik göstərilir və təklifləri alınır.

İşəgötürənlər-universitet-təhsil alanlar arasında əlqələrin qurulması üçün bir neçə istiqamətdə fəaliyyət göstəririk. Belə ki, müəssisələrdə olan vakansiya təcrübə, təqaüd proqramlarını tələbə və məzunlara operativ və dəqiq çatdırmaq üçün departamentin sosial media hesablarından (instaqram, facebook, fakültələr üzrə sinif nümayəndələrindən ibarət votsap qruplarda), 6000-dən artıq üzvü olan məzun gmail qrupumuzdan. Mütəmadi olaraq hər il 1000-dən çox məzunla telefon, elektron və fərdi şəkildə əlaqə saxlanılıb sorğular keçirilir və elektron məlumatları yenilənir.

Bundan əlavə olaraq, elanların ixtisaslar üzrə uyğunluğunu təsbit edərək müvafiq fakültə numayəndələri ilə birbaşa əlaqələndirilir. İşəgötürənlərlə birgə Karyera Sərgiləri, İnfosessiyalar, həmçinin işəqəbul imtahanlarının 1-ci mərhəsinin seçim prosesini univerfsitetdə keçiririk.

Bununla yanaşı, 2023/2024-cü tədris ilində BMU Məzunlar Asossiasiyasının yaradılması və məzunlarla əlaqələrin koordinasiyanın genişləndirilməsi ilə əlaqədar işlər davam etdirilməkdədir. Bu asossiasiyanın BMU Müəssisələrlə Əlaqələr və Karyera departamenti tərəfindən korrdinasiya edilməsi nəzərdə tutulur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 4. ELMİ TƏDQİQAT

4.1. Elmi-tədqiqat strategiyası

Bakı Mühəndislik Universitetində tədris prosesi ilə tədqiqat fəaliyyətinin vəhdətini təşkil edən elmi fəaliyyət fakültələr, kafedralar, laboratoriyalar və digər elmi strukturların bazasında elmin müxtəlif sahələri və istiqamətləri üzrə fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi tədqiqatlar aparılmaqdadır. Universitet aparılan elmi tədqiqat işlərinin nəticələrinin istehsalata və tədris prosesinə tətbiq olunmasını və monoqrafiyalar, elmi məqalələr, metodik vəsaitlər şəklində dərc olunmaqla və elmi konfrans və seminarlarda məruzə edilməklə yayılmasını təşkil edir. Universitetdə aparılan elmi tədqiqat fəaliyyəti tədris prosesinin ayrılmaz tərkib hissəsi olmaqla, universitetin vəsaitləri, qrantlar, müxtəlif fondlardan alınan vəsaitlər və digər mənbələr hesabına həyata keçirilir. Elmi fəaliyyət professor-müəllim heyətinin işinin tərkib hissəsidir və elmi tədqiqat işlərinin nəticələri professor-müəllim heyətinin vəzifələrə seçkisi və təyin olunması zamanı nəzərə alınır. Eyni

zamanda, hər il dekabr ayında il ərzində beynəlxalq istinad bazalarında indekslənən jurnallardakı nəşrlər universitet tərəfindən mükafatlandırılır.

**4.1.1. ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti**

Universitetdə elmi-tədqiqat strategiyası mövcuddur. Mahiyyət etibarı ilə tədqiqat universiteti modeli təhsil və elmi-tədqiqat fəaliyyətinin effektiv vəhdəti və inteqrasiyasından ibarətdir. Bu əsasda elmi tədqiqatlar professor-müəllim heyətinin fəaliyyətinin ayrılmaz tərkib hissəsi deyil, eyni zamanda vahid sosial-iqtisadi sistem kimi universitetin fundamental əsasını təşkil edir. Tədqiqat universiteti modelində təhsil prosesi fundamental və tətbiqi elmi tədqiqatların, eləcə də innovativ texnologiyaların inteqrasiyası əsasında bilavasitə elmi, maliyyə-iqtisadi və istehsal fəaliyyəti ilə müşahidə edilir. Elm və praktiki fəaliyyətin nəticələrinin bilavasitə tədris prosesinə tətbiqi təhsilalanların elmi-tədqiqat işlərinə cəlb edilməsi, elmin imicinin və populyarlığının yüksəldilməsinə kömək edir. Elmi tədqiqat strategiyası BMU-nun 2020-2023-cu illəri əhatə edən ümumi inkişaf strategiyasınında elmi tədqiqat hissəsində yer alır və 5 illlik inkişaf strategiyasına əsasən illik fəaliyyət planı hazırlanır. Strategiyada universitetin məqsədlərinə uyğun olaraq tədqiqat universitetinin yaradılması, tədqiqat potensialının artırılması, sahibkar universitet ideyasının reallaşması, universitet-sənaye əməkdaşlığının təmin olunması, texnopark və startap ekosisteminin yaradılması istiqamətində müddəalar yer almış və prioritet olaraq müəyyən edilmişdir.

**4.1.2.Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti**

Elmi-tədqiqat strategiyası mövcuddur. Mahiyyət etibarı ilə tədqiqat universiteti modeli təhsil və elmi-tədqiqat fəaliyyətinin effektiv vəhdəti və inteqrasiyasından ibarətdir. Bu əsasda elmi tədqiqatlar professor-müəllim heyətinin fəaliyyətinin ayrılmaz tərkib hissəsi deyil, eyni zamanda vahid sosial-iqtisadi sistem kimi universitetin fundamental əsasını təşkil edir. Elm və praktiki fəaliyyətin nəticələrinin bilavasitə tədris prosesinə tətbiqi təhsilalanların elmi-tədqiqat işlərinə cəlb edilməsi, elmin imicinin və populyarlığının yüksəldilməsinə kömək edir. Elmi tədqiqat strategiyası BMU-nun 2020-2023-cu illəri əhatə edən ümumi inkişaf strategiyasınında yer alan və inkişaf strategiyasına əsasən illik fəaliyyət planı hazırlanır. Həmçinin BMU-nun missiyasına və hədəflərinə, bu sahədə mövcud qanunvericilik, dövlət proqramları və strateji sənədlərin tələblərinə uyğun hazırlanmışdır. Strategiyada universitetin məqsədlərinə uyğun olaraq tədqiqat universitetinin yaradılması, tədqiqat potensialının artırılması, sahibkar universitet ideyasının reallaşması, universitet-sənaye əməkdaşlığının təmin olunması, texnopark və startap ekosisteminin yaradılması istiqamətində müddəalar yer almış və prioritet olaraq müəyyən edilmişdir.

**4.1.3.ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti**

Aşağıdakı strateji məqsəd və vəzifələri hədəfləyir:

Strateji məqsəd:

- universitetin elmi potensialından mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək üçün maksimum istifadə edilməsi;

- universitetin elmi fəaliyyətinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi;

- universitet alimlərinin respublika və dünya elm cəmiyyəti ilə sıx inteqrasiyasına nail olunması;

- universitet tədqiqatlarının kommersiyalaşmasını təmin edilməsi, əməkdaşların maddi rifah halının yüksəldilməsi və universitetin maddi - texniki bazasnın inkişaf etdirilməsi.

Strateji vəzifə:

- mütəxəssis hazırlığının bütün mərhələlərində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi ilə tədris prinsiplərinin reallaşdırılması;
- universitetdə hər bir kafedra üzrə elmi məktəblərin və tədqiqat qruplarının formalaşdırılması, onların maddi - texniki bazasının möhkəmləndirilməsi;
- universitetin yeni yaradılacaq elmi məktəblərində fundamental elmi tədqiqatların inkişaf etdirilməsi;
- Azərbaycan Milli Elmlər Akademiyası, ali təhsil müəssisələri və xarici elmi mərkəzlərlə elmi tədqiqat əlaqələrinin və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi;
- beynəlxalq, regional və ölkə səviyyəsində innovativ - elmi proqramlar və layihələrin reallaşmasında aktiv iştirak edilməsinin təmini;
- elm və texnologiyaların prioritet inkişaf istiqamətləri üzrə fundamental xarakterli elmi tədqiqatların spektrinin genişləndirilməsi;
- mühəndislik, memarlıq, iqtisadiyyat və informasiya - kommunikasiya texnologiyaları sahəsində aparıcı mövqeyə nail olunması;
- professor-müəllim heyətinin, tələbə və magistrantların, dissertant və doktorantların elmi tədqiqatlara cəlb edilməsi ilə onları tədqiqat aparmağa həvəsləndirən mexanizmin təkmilləşdirilməsi;
- universitetdə yüksək səviyyəli kadr hazırlığının istiqamətlərinin genişləndirilməsi, müxtəlif istiqamətlər üzrə dissertant və doktorantların sayının artırılması, onların elmi tədqiqat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi;
- elmi tədqiqatlarda monitorinqin təşkili və nəticələrin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi; elmi-tədqiqat işləri üzrə resurs və məlumatlar bazasının yaradılması, məlumatlar bazalarına əlçatanlığın təmin edilməsi,
- müasir tədqiqat avadanlıqları, alət və proqram vasitələri ilə elmi tədqiqatların təmin edilməsi;
- universitetdə elmi tədqiqatların yerinə yetirilməsinin sürətləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə bütün səviyyələrdə büdcə və büdcədənkənar vəsaitlərin, müəssisə və xüsusi səhmdarların vəsaitlərinin cəlb edilməsi üzrə fəaliyyətin aktivləşdirilməsi;
- əksər elmi tədqiqatların nəticələrinin əmtəəlik məhsul kimi kommersiyalaşdırılması;
- intellektual mülkiyyət hüququnun qorunması və informasiya təhlükəsizliyinin təmin edilməsi mexanizminin inkişaf etdirilməsi;
- intellektual mülkiyyətin kommersiyalaşdırılması, kommersiya menecmenti ilə bağlı alimlərə, tələbə və aspirantlara təlimlərin təşkil edilməsi;
- universitetin innovativ infrarstrukturunun (biznes inkubator, elmi-texnoloji park, texnologiyaların transfer mərkəzi, gənc sahibkarların inkişaf tədris mərkəzi, treyninq mərkəzi və s.) inkişaf etdirilməsi və onun regionun və bütövlükdə respublikanın iqtisadi və elmi məkanı ilə inteqrasiyasına nail olunması;
- tələbələrin innovativ fəaliyyəti üçün müvafiq infrastrukturu yaratmaq;
- Elmi tədqiqatların kommersiyalaşması;
- Universitetin beynəlxalq reytinqinə müsbət təsir edəcək elmi tədqiqat işlərinin artırılması.

**4.1.4.Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu**

– Elmi – tədqiqat və innovasiya fəaliyyətinin prioritet istiqamətləri

Universitetin elmi - tədqiqiat və innovasiya fəaliyyəti aşağıdakı məsələlərin həll edilməsinə istiqamətlənir:

- tələbələri konkret peşəkar fəaliyyət kompetensiyalarına uyğun tədqiqat qrupları tərəfindən aparılan və laboratoriyalarda yerinə yetirilən işlərə cəlb etməklə bakalavr və magistr proqramlarının mənimsənilməsi;

- universitetdə aparıcı elmi məktəbin yaradılması və inkişaf etdirilməsi;

- yüksək elmi nəticələrə nail olmaq üçün büdcə və büdcədənkənar maliyyə vəsaitlərinin cəlb və istifadə mexanizminin təkmilləşdirilməsi;

- elmi - tədqiqatların maddi - texniki bazasının inkişaf etdirilməsi;

- dissertant və doktorantlara elmi rəhbərliyin məhsuldarlığının artırılması;

- müasir innovativ iqtisadiyyatın və prioritet elmi istiqamətlərin vəzifələrinə uyğun dissertant və doktorantura üzrə ixtisasların spektrinin genişləndirilməsi;

- dissertant və doktorant hazırlığının büdcədənkənar formasının inkişaf etdirilməsi;

- beynəlxalq elmi proqramlarda, təcrübələrdə və mütəxəssis mübadiləsində iştirak etməklə xarici ölkələrin qabaqcıl elmi təcrübəsinin mənimsənilməsi;

- yüksək elmi nəticələrin əldə edilməsi məqsədilə professor-müəllim heyəti, tələbə və magistrantlar üçün real həvəsləndirmə sisteminin formalaşdırılması;

- universitetin perspektiv dövr üçün innovasiya infrastrukturunun inkişaf etdirilməsi;

- univeristetə mənsub intellektual mülkiyyət obyektlərinin bazara irəlilədilməsi və tətbiqi ilə əlaqədar olan innovasiya fəaliyyətinin inkişaf etdirilməsi;

- universitetin professor-müəllim heyəti, tələbələr, magistrantlar və müvafiq struktur bölmələri tərəfindən aparılan tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması ilə əlaqədar fəaliyyətin hərtərəfli müdafiə edilməsi;

- iqtisadiyyatın prioritet sahələrinin maraqları naminə universitetdə tətbiqi tədqiqat xarakterli işlərin həcminin artırılması və tətbiqi tədqiqatlar bazasının genişləndirilməsi;

- birgə təhsil proqramlarının təşkili, təhsil prosesinə biznes subyektlərinin aparıcı mütəxəssislərinin cəlb edilməsi, onların maddi - texniki potensiyalından və resurslarından istifadə ilə bağlı iqtisadiyyatın real sektoruna mənsub subyektlərlə əməkdaşlığın inkişaf etdirilməsi;

- tələbə və magistrantların təhsil prosesində əldə etdikləri fundamental elmi biliklərin praktiki reallaşması üçün onların tətbiqi xarakterli tədqiqatlarda iştirakının aktivləşdirilməsi və s.

**4.1.5.Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti**

– BMU-nun elmi-tədqiqat və innovasiya fəaliyyəti aşağıdakı prinsiplərə əsaslanır:

- praktikayönümlü tədqiqatların və ekspert - analitik işlərin prioritet inkişafı;

- aktual elmi tədqiqatların aparılması, hakimiyyət orqanları və biznes subyektlərinin sifarişləri əsasında layihələrin yerinə yetirilməsi istiqamətində elmi-pedaqoji məktəbin formalaşdırılması və inkişafı;

- tələbə, magistrant, doktorant və dissertantların, eləcə də peşəkar təhsil proqramları ilə təhsil alanların elmi - tədqiqat işlərinə cəlb edilməsi;

- elm, biznes və təhsilin inteqrasiyası və bu əsasda büdcədənkənar maliyyə mənbələri hesabına yerinə yetirilən ETİ-nin həcminin artırılması.

Univesitetin elmi-tədqiqat işlərinin tematikası respublikanın və regionun cari və perspektiv tələbinə istiqamətlənmişdir.

**4.1.6.Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti**

- bütün elmi-pedaqoji kollektivin daha geniş formatda universitetin tədqiqat və innovasiya fəaliyyətinə cəlb edilməsi və 2025-ci ilə qədər professor - müəllim heyətinin 70% - dən çoxunun elmi - tədqiqat işlərində aktiv iştirakının təmin edilməsi;

- elmi-tədqiqat laboratoriyalarının, mərkəzlərin müasir avadanlıqlarla təmin edilməsi;

- beynəlxalq və respublika səviyyəli elmi layihə və proqramlarda iştirak edilməsi;

- müxtəlif maliyyələşmə mənbələri (məsələn, ABŞ-nın Fulbrayt, Almaniya, Turkiyə, və digər universitetlərinin akademik mübadilə proqramlarında iştirak etmək) hesabına beynəlxalq elmi - tədqiqat işlərinin həcminin artırılması;

- fəlsəfə doktorluğu üzrə dissertasiya müdafiə edən universitet müəllimlərinin həvəsləndirilməsi;

- BMU-nun alimləri tərəfindən Web of Science və Scopus məlumatlar bazasında indeksləşdirilən resenziyalı beynəlxalq jurnallarda hər 100 müəllimə 10 ədəd hesabı ilə nəşrlərin sayının artırılması;;

- universitetin bazasında elm və texnilkanın prioritet inkişaf istiqamətləri üzrə hər il 5-10 beynəlxalq və ümumrespublika təyinatlı elmi-praktiki konfranslar, seminarlar, dəyirmi masaların təşkil edilməsi;

- xarici tərəfdaşlarla birgə nəşrlərin hazırlanması istiqamətində əməkdaşlığın aktivləşdirilməsi;

- elmi - tədqiqat işlərində iştirak edəcək tələblərin sayının ümumi tələbə kontingentinin 35 - 40% - i qədər artırılması;

- ali təhsil müəssisələri arasında tələbə biznes - inkubatorlarının yaradılması və onların işinin aktivləşdirilməsi;

- tələbələrin elmi tədbirlərə və maliyyələşdirilən elmi - tədqiqat işlərinə (proqram, təsərrüfat müqavilələri, qrantlar) cəlb edilməsi ilə onların arasında elmi tədqiqatların populyarlaşdırılması;

- gənclərin elmi - texniki yaradıcılığının təbliğ edilməsi, gənc alim və mütəxəssislərin elmi fəaliyyətinin stimullaşdırılması məqsədi ilə gənc alim və Tələbə Şuralarının işinin təkmilləşdirilməsi və peşəkar inkişaf üçün şəraitin yaradılması;

- ixtiraların keyfiyyətinin yüksəldilməsi, patent və şəhadətnamələrlə qorunan intellektual mülkiyyət obyektlərindən istifadəni nəzərdə tutan lisenziya müqavilələrinin sayının artırılması və s.

Elmi fəaliyyətlər istiqamətində BMU nun əsas problemi tədqiqatlara maliyyə vəsaiti ayırmaq üçün büdcəsinin məhdudluğudur. Universitetin büdcə xərclərinin 90% -dən çoxu cari xərclərə

ayrıldığından tədqiqatlar əsasən grant və müəlliflərin öz imkanları ilə reallaşır. Xaricdə keçirilən elmi konfranslara hər il müəyyən sayda əməkdaş göndərilsə də, bu büdcə məhduddur. Ali təhsilə ayrılan vəsaitin böyük hissəsi tələbələrin təhsil haqlarının və infrastruktur ehtiyaclarının qarşılanmasına xərclənir. Ali təhsilə dövlət tərəfindən ayrılan vəsaitin həcmi də nisbətən aşağı olaraq qalır. Azərbaycan üzrə Tədqiqat  və İnnovasiya xərclərin 86%-i dövlətə məxsus tədqiqat institutlarının, 9%-i ali təhsil müəssisələrinin və 5%-i özəl sektorun payına düşür. Beynəlxalq praktikada bu sıralama tərsinə olur. Bu mənada, dövlət, sənaye və ali təhsil müəssisələri arasında elmi tədqiqat və innovasiyalar sahəsində əməkdaşlığın genişləndirilməsinə ehtiyac var.

Dünya Bankının hesabatı Azərbaycanda 3 ümumi tendensiyanı müəyyən etmişdir:
1. Ali təhsil sahəsində (o cümlədən Tədqiqat və İnkişaf təyinatlı) dövlət investisiyaları hökumətin qarşıya qoyduğu inkişaf hədəflərinə uyğun şəkildə ayrılmır, ali təhsil müəssisələrinin inkişafını və investisiyaların səmərəli istifadəsini təşviq etmir.
2. Milli Kvalifikasiyalar Çərçivəsi, keyfiyyət təminatı normaları, doktorantura səviyyəsində təhsil və tədqiqatçıların karyera inkişafı beynəlxalq yaxşı təcrübələrə uyğun deyil.
3. Beynəlxalq tədqiqat şəbəkələri ilə əlaqəlilik (ing. “connectivity”) zəifdir.
Universitetin gələcək 5 illik  elmi tədqiqat strategiyasında  aşağıdakı istiqamətləri nəzərdə tutur:
1. Qısa vədədə, rəqabət əsaslı maliyyələşmə hesabına Tədqiqat və İnkişafın keyfiyyətini və aktuallığını artırmaq. Bu zaman diqqət xüsusilə ölkə iqtisadiyyatının inkişafı və diversifikasiyası üçün əhəmiyyət kəsb edən sahələrdə tədqiqatların dəstəklənməsinə yönəlməlidir.

2. Orta vədədə, Tədqiqat və İnkişaf sahəsində dövlət investisiyalarının ümumi həcmini artırmaq və bu vəsaitin daha böyük hissəsini ali təhsil müəssisələrinə və tətbiqini təmin etmək.

3. Tədqiqat sahəsində beynəlmiləlləşməni təşviq etmək. Beynəlxalq tədqiqat və innovasiya şəbəkələri ilə əməkdaşlıq ölkə sərhədlərindən kənarda yaradılan və təkmilləşdirilən yeni biliyə, texnologiyalara və **know-how** çıxışı təmin edə bilər. Bu mənada ölkə ali təhsil müəssisələrində heyət üzvləri və tələbələrin beynəlxalq mübadilə proqramlarında iştirakını təşviq etməli, beynəlxalq tədqiqat layihələrdə iştirak üçün tələb olunan bacarıq və imkanları formalaşdırmağa dəstək olmalı, ali təhsil və Tədqiqat və İnkişaf sahəsində beynəlmiləlləşmə strategiyasını hazırlamalıdır.
4. Akademik karyera sisteminə yenidən baxmaq və beynəlxalq yaxşı təcrübələrə uyğun olaraq təşviq və mükafatlandırma mexanizmləri tətbiq etmək. Akademik heyət üzvləri arasında gender tarazlığını təmin etmək. Burada əsas diqqət tədqiqatçı vəzifəsini tutma və vəzifədə irəliləmə prosedurlarının təkmilləşdirilməsinə yönəlməli və aşağıdakı istiqamətlər üzrə dəyişikliyə nail olunmalıdır:
- Ali təhsil müəssisələrində istedadlı fərdlərin tədqiqatçı və/ya müəllim kimi müraciət edə biləcəyi başlanğıc vəzifələrin mövcud olması;
- Tədqiqatçılar üçün geniş karyera inkişaf yollarının olması;
- Tədqiqat performansının artırılması üçün təşviq və yayındırma strategiyalarının tətbiqi.

5. Ali təhsildə yüksək keyfiyyətli tədqiqatları təşviq etmək üçün səmərəli qiymətləndirmə praktikasını və keyfiyyət təminatı mexanizmlərini formalaşdırmaq. Bu ilk növbədə keyfiyyət, şəffaflıq və aşkarlıqla bağlı beynəlxalq standartlara cavab verən keyfiyyət təminatı sisteminin qurulmasını tələb edir. Beynəlxalq səviyyədə Azərbaycanın ali təhsil müəssisələri tərəfindən dərc olunan elmi-tədqiqat işlərinə inamın artırılması yollarından biri də beynəlxalq akkreditasiya normalarının (o cümlədən, elmi- tədqiqat fəaliyyətinin təşkili ilə bağlı) milli səviyyədə qəbul edilməsidir.

**4.1.7.Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti**

Strategiya akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatandır və aşağıdakı prinsiplər əsasındadır.

1. Ölkədə rəqabət apara biləcək səviyyədə qabaqcıl tədqiqat işləri yerinə yetirən müəllim və əməkdaşları real və effektiv həvəsləndirməyə imkan verən mexanizmin yaradılması.

2. Universitetin professor-müəllim heyəti və tədqiqatçılar üçün **course buy-out** siyasətinin tətbiq edilməsi.

3. Tələbə və magistrantlarda tədqiqat işlərinə həvəs yaradan tədbirlərin keçirilməsi: gənc alimlərin müsabiqə, konfrans, akademik mübadilə və təcrübələrdə iştirak üçün təqaüdlər, fərdi tədqiqat lahiyələrinin reallaşması üçün qrantların ayrılması.

4. Nüfuzlu elmi nəşrlərə həsr olunan dövrü mətbuat məlumatları, internet resursları ilə təmin edilməsi.

5. Texnoloji inkişaf prioritetlərinin formalaşması və biznes-elm-dövlət vəhdətinə nail olunması məqsədi ilə universitetin bazasında kollektiv istifadə mərkəzi və texnoloji platforma kimi digər maraqlı təşkilatlarla birgə müasir laboratoriyaların yaradılması.

6. Scopus, Web of Science - da indeksləşdirilən impact faktorlu elmi jurnallarda professor - müəllim heyətinin, tələbələrin, magistrantların və doktorantların məqalələrinin nəşr edilməsi ilə bağlı fəaliyyətin aktivləşdirilməsi.

4. Universitetdə sahibkarlıq ekosisteminin yaradılması məqsədilə professor - müəllim heyəti üçün təlim kursları, treyninqlərin təşkil edilməsi və keçirilməsi.

5. Azərbaycanın qabaqcıl dövlət və özəl qurumlarla birlikdə biznes layihələrin reallaşdırılması.

**4.1.8.Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

Strategiyanın hazırlanması zamanı müvafiq işçi qrup yaradılmış, universitetin müvafiq kafedra, institutlarının fikirləri alınmış, dəfələrlə elmi şura və işçi iclaslarda müzakirə edilmiş əmək bazarı və sənayenin fikirləri diqqətdə saxlanılmış, universitet-sənaye əməkdaşlığına məxsusi əhəmiyyət verilmiş, tələbələrin maraqları nəzərə alınmış, həmçinin bütün maraqlı tərəflərin iştirakına şərait yaradılmışdır.

Universitetin mövcud 21 kafedrasında 42 problem və 84 mövzu üzrə 252 elmi-tədqiqat işləri yerinə yetirilmiş və 25 mövzu üzrə 34 iş tamamlanmışdır. Web of Science platfomasında 2017-ci ildə 12, 2018-ci ildə 19, 2019-cu ildə 29 və 2020 -ci ildə 41 və 2021-ci ildə 29, 2022-ci ildə isə 39 olmaqla cəmi 169 nəşr (Ümumiyyətlə sistemdə BMU adından 219 nəşr daxil edilib) və onlara mindən çox istinad qeyd edimişdir. Universitetin H-indexsi 16 və məqalə başına istinad 5.01 olmuşdur və bu Azərbaycan universitetləri arasında ən yaxşı üçüncü göstəricidir. Ümumiyyətlə universitetdə impakt faktorli elmi jurnalllarda nəşrləri dəstək mexanizmi var və əməkdaşlara hər il bu bazalardan effektiv istifadə təlimi verilir.

Bu il beynəlxalq səviyyədə ilk dəfə nəşr olunan Azerbaijan National H-index Ranking nəşr olunmuşdur“. National H-index Ranking” tərəfindən 2023-cü ilin ikinci rübünün elmi nəticələri əsasında Azərbaycanda fəaliyyət göstərən elmi qurumların və universitetlərin Hirş indeksinə (H-index) görə reytinq sıralaması - “Azerbaijan National H-index Ranking-2023” açıqlanıb.

Reytinq siyahısı hazırlanarkən 20 mindən çox alim və mütəxəssisin profili, eləcə də 150 minə yaxın elmi nəşr təhlil olunub. “Web of Science”, “Scopus” və “Google Scholar” göstəriciləri əsasında hesablanmış Hirş indeksinə (H-index) görə, Azərbaycanın 83 elmi təşkilatının və universitetinin elmi fəaliyyəti analiz edilib.

Bakı Mühəndislik Universitetinin H-indeksi (National H-index) 18 olmaqla ali təhsil müəssisələri arasında ilk yerlərdə qərarlaşıb. BMU-nun “Scopus” üzrə H-indeksi 18, “Web of Science” üzrə 20, “Google Scholar” üzrə isə 29-a bərabər olub. Bu sistemdə Azərbaycanın Scopus və Google Scholar göstəricilərinə görə ən məhsuldar 1000 alim siyahısında BMU-dan Scopus göstəricilərinə görə 9, Google Scholar göstəricilərinə görə 13 əməkdaş yer almışdır.

https://az.h-index.com/en/baku-engineering-university

https://az.h-index.com/en/scopus1000?ScopusAuthorsSearch%5Buniversity_id%5D=23&ScopusAuthorsSearch%5Bname%5D=&ScopusAuthorsSearch%5Bindex%5D=

Universitet əməkdaşlarının impakt faktorlu elmi jurnallarda resenzistlik göstəriciləri də kifayət qədər yaxşıdır. Ona yaxın BMU əməkdaşı impakt faktoru yüksək olan yüzə yaxın elmi jurnalda redaktor köməkçisi və rəyçi kimi fəaliyyət göstərmişdir.

Umumiyyətlə, universitetin elmi tədqiqat strategiyasında nəzərdə tutulmuşdur ki gələcəkdə elmi məhsuldarlığına görə tədqiqatçı alim statusu və diferensial əməkhaqqı sistemi qurulsun.

Elmi fəaliyyətlər istiqamətində BMU-nun əsas problemi tədqiqatlara maliyyə vəsaiti ayırmaq üçün büdcəsinin məhdudluğudur. Universitetin büdcə xərclərinin 90%-dən çoxu cari xərclərə ayrıldığından tədqiqatlar əsasən grant və müəlliflərin öz imkanları ilə reallaşır. Xaricdə keçirilən elmi konfranslara hər il müəyyən sayda əməkdaş göndərilsə də, bu büdcə məhduddur. Ali təhsilə ayrılan vəsaitin böyük hissəsi tələbələrin təhsilhaqlarının və infrastruktur ehtiyaclarının qarşılanmasına xərclənir. Ali təhsilə dövlət tərəfindən ayrılan vəsaitin həcmi də nisbətən aşağı olaraq qalır. Azərbaycan üzrə Tədqiqat və İnnovasiya xərclərin 86%-i dövlətə məxsus tədqiqat institutlarının, 9%-i ali təhsil müəssisələrinin və 5%-i özəl sektorun payına düşür. Beynəlxalq praktikada bu sıralama tərsinə olur. Bu mənada dövlət, sənaye və ali təhsil müəssisələri arasında elmi tədqiqat və innovasiyalar sahəsində əməkdaşlığın genişləndirilməsinə ehtiyac var.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur

4.2. Tədqiqat resursları

**4.2.1.ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti**

Universitet Təhsil Nazirliyinin müqaviləsi əsasında ölkəmizdə fəaliyyət göstərən Web of Science Platformuna abunədir və 2017-ci ildən bu platformda və Scopus bazasında nəşrləri olan əməkdaşlara birdəfəlik pul mükafatı verilmişdir. Eyni zamanda hər il fevral ayında universitet əməkdaşlarına Elmi İşlər üzrə prorektorluğun təşkilatçılığı ilə iki günlük elmi resurs bazalarından effektiv istifadə və elmi məqalə yazma təlimləri verilir və bu sahədə təcrübəli mütəxəssislər universitetə dəvət edilir. Universitetin internet səhifəsində akademik işçilər tərəfindən nəşr olunan dərsliklərin, dissertasiyaların və dərs vəsaitlərinin elektron (pdf) versiyası yerləşdirilmiş, habelə üzv olduğumuz elektron resurslara pulsuz giriş imkanı yaradılmışdır.

**4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti**

Universitetin mövcud 21 kafedrasında 42 problem və 84 mövzu üzrə 252 elmi-tədqiqat işləri yerinə yetirilmiş və 25 mövzu üzrə 34 iş tamamlanmışdır. Web of Science platfomasında 2017-cı ildə 12, 2018-ci ildə 19, 2019-cu ildə 29 və 2020 -ci ildə 41 və 2021-ci ildə 29, 2022-ci ildə isə 39 olmaqla cəmi 169 nəşr (Ümumiyyətlə sistemdə BMU adından 219 nəşr daxil edilib) və onlara mindən çox istinad qeyd edimişdir. Universitetin H-indexsi 16 və məqalə başına istinad 5.01 olmuşdur və bu Azərbaycan universitetləri arasında ən yaxşı üçüncü göstəricidir. Ümumiyyətlə universitetdə impakt faktorli elmi jurnalllarda nəşrləri dəstək mexanizmi var və əməkdaşlara hər il bu bazalardan effektiv istifadə təlimi verilir.

BMU da illər üzrə impact faktorlu elmi jurnallarda nəşr statistikası

Web of Science üzrə

| No | İllər | Nəşr olunan məqalə sayı |
|---|---|---|
| 1 | 2017 | 12 |
| 2 | 2018 | 19 |
| 3 | 2019 | 29 |
| 4 | 2020 | 41 |
| 5 | 2021 | 29 |
| 6 | 2022 | 39 |

**Scopus Üzrə**

| No | İllər | Nəşr olunan məqalə sayı |
|---|---|---|
| 1 | 2017 | 10 |
| 2 | 2018 | 15 |
| 3 | 2019 | 32 |
| 4 | 2020 | 42 |

| | | |
|---|---|---|
| 5 | 2021 | 32 |
| 6 | 2022 | 34 |

**https://www.scopus.com/affil/profile.uri?afid=60120887**







**https://www.scopus.com/results/results.uri?sort=plf-f&src=s&sid=a91af27745182b9d703f504f50a0d8b0&sot=aff&sdt=a&sl=15&s=AF-ID%2860120887%29&origin=AffiliationProfile&editSaveSearch=&txGid=af839fff53015540371df33a2d59b7f3**

## 4.2.3.Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Bakı Mühəndislik Universitetində Tələbə Elmi Cəmiyyətinin hər fakültə üzrə mütəmadi olaraq elmi tədqiqat işinin aparılması ilə bağlı elmi praktiki seminarlar keçirilir. Hər ay boyunca

nəzərdə tutulan müəyyən mövzularda tələbələrə təcrübəli müəllimlər tərəfindən seminarlar təşkil olunur. Bu təlim-seminarların əsas məqsədi tələbələrdə elmi tezislərin hazırlanması və təqdimatı bacarıqlarını formalaşdırmaqdır. Həmçinin Universitet konfransları keçirilir.

BMU-nun maliyyə təminatı əsasən tələbələrin təhsilhaqqı hesabına formalaşır. Daxil olmuş gəlirlər universitetin maddi-texniki bazasının, infrastrukturunun güclənməsinə və kadr potensialının inkişafına sərf olunur. Son 5 ildə 1 tədris korpusunun tikilib istifadəyə verilməsi və 10-a yaxın laboratoriyaların qurulması universitetin infrastrukturunun və maddi-texniki bazasının yüksəlməsinə səbəb olmuşdur

**4.2.4.Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti**

Universitetin internet səhifəsində akademik işçilər tərəfindən nəşr olunan dərsliklərin, dissertasiyaların və dərs vəsaitlərinin elektron (pdf) versiyası yerləşdirilmiş, habelə üzv olduğumuz elektron resurslara pulsuz giriş imkanı yaradılmışdır.
Universitetin internet səhifəsində universitetdə keçirilmiş elmi konfransların nəşrləri, akademik işçilər tərəfindən nəşr olunan dərsliklərin, dissertasiyaların və dərs vəsaitlərinin elektron (pdf) versiyası yerləşdirilmiş, habelə üzv olduğumuz elektron resurslara pulsuz giriş imkanı yaradılmışdır.http://beu.edu.az/az/pages/Electronic-Library-122.html

linki ilə Cambridge University Press, JSTOR , Directory of Open Access Journals (DOAJ), ULAKBİM, Scientific Journals , World Bank Open Data və digər yüzə yaxın ellmi resurs bazasından pulsuz istifadə imkanları var. Eyni zamanda Azerbaijan Libraries Catalog, Turkey Libraries, Bibliotheca Alexandrina : Library of Alexandria, Egypt, COPAC :University Research Library Catalogue,ECLAS : European Commission Library Catalogue, Goethe-Institut Library Portal, Germany, Libdex : Worldwide İndex of Library Catalogues, Web Sites and Friends of Libraries Pages, Military Education Research Library Network, OhioLINK : The Ohio Library and Information Network, UN Documentation Centre, UNESCO LİbrarIes Portal, UNESCO SOCIAL AND HUMAN SCIENCES DOCUMENTATION CENTRE, Universitats- und Stadtbibliothek Köln, World Bank & IMF Libraries daxil olmaqla Almaniya, Avstriya, İsveçrə, Fransa, İngiltərə, Şotlandiya, İtaliya, Norveç, Portuqaliya, Isveç, İspaniya kitabxanaları və Amerikan Konqres kitabxanasından axtarış imkanları mövcuddur. Kitabxanadan elektron olaraq yüzə yaxın dünyanın əsas ensiklopediya nəşr portallarına da giriş mövcuddur.
Professor-müəllim heyətinin və elmi işçilərin elmi-tədqiqat işlərinin nəticələri nəşr edilmiş monoqrafiya, dərslik, dərs vəsaiti, metodik vəsait və metodik göstərişlərdə, ölkəmizdə və xaricdə dərc olunan toplu və məcmuələrdə öz təsdiqini tapır. Müxtəlif mövzularda keçirilən elmi konfranslarda professor-müəllim heyəti ilə yanaşı magistrant, doktorant və gənc tədqiqatçılar da fəal iştirak edirlər. Universitetdə elmi-tədqiqat işləri dinamik inkişaf edir, elmi potensialdan səmərəli istifadə olunur. BMU-da aparılan elmi-tədqiqat işlərinin mövzu planlarını biznes və hökumət qurumlarının tələbləri əsasında formalaşdırmaq, tədqiqatın nəticələrinin tətbiqi və yayılması sistemini təkmilləşdirmək, elmin maddi-texniki bazasını və kadr potensialını gücləndirmək əsas məqsədlərdən biri kimi qəbul edilmiş və bununla əlaqədar tədqiqatların planlaşdırılması və maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Elmin İnkişafı Fondu və Elmlər Akademiyasının grantı ilə ona yaxın layihə maliyyələşməkdədir.

**4.2.5. Nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti**

Universitet əməkdaşlarının impakt faktorlu elmi jurnallarda resenzistlik göstəriciləri də kifayət qədər yaxşıdır. Ona yaxın BMU əməkdaşı impakt faktoru yüksək olan yüzə yaxın elmi jurnalda redaktor köməkçisi və rəyçi kimi fəaliyyət göstərmişdir. Umumiyyətlə, universitetin elmi tədqiqat strategiyasında nəzərdə tutulmuşdur ki, gələcəkdə elmi məhsuldarlığına görə

tədqiqatçı alim statusu və diferensial əməkhaqqı sistemi qurulsun. Tədqiqatların dəstəklənməsinə yönəltmək. İnvetisiyaların istiqamətini fundamental tədqiqatlardan tətbiqi tədqiqatlara dəyişərək tədqiqatları sənaye üçün daha aktual etmək olar. Son beş ildir ki hər il impakt faktorlu elmi jurnallarda nəşri olan əməkdaşlara təşəkkürnamə və pul mükafatı verilməkdədir.

**4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası**

Konfranslarda professor-müəllim heyəti ilə yanaşı magistrant, doktorant və gənc tədqiqatçılar da fəal iştirak edirlər. Universitetdə elmi-tədqiqat işləri dinamik inkişaf edir, elmi potensialdan səmərəli istifadə olunur. BMU-da aparılan elmi-tədqiqat işlərinin mövzu planlarını biznes və hökumət qurumlarının tələbləri əsasında formalaşdırmaq, tədqiqatın nəticələrinin tətbiqi və yayılması sistemini təkmilləşdirmək, elmin maddi-texniki bazasını və kadr potensialını gücləndirmək əsas məqsədlərdən biri kimi qəbul edilmiş və bununla əlaqədar tədqiqatların planlaşdırılması və maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Elmin İnkişafı Fondu və  Elmlər Akademiyasının grantı ilə ona yaxın layihə maliyyələşməkdədir.

**4.2.7.Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetinin tədqiqatçılarının digər birgə tədqiqatlar aparması məqsədilə Respublikanın və xarici ali təhsil və elmi-tədqiqat müəsisələri ilə 2017-2023-cü illərdə 30-a yaxın  müqavilə imzalanmışdır. Bu müqavilələrdən 21-i xarici ölkələrin ali təhsil və elmi-tədqiqat müəssisələri ilə olmuşdur. Bu müqavilələr imkan verir ki, tədqiqatçılar digər elmi müəssisələrlə əməkdaşlıq şəklində tədqiqat aparsınlar.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

4.3. Elmi-tədqiqat fəaliyyəti

**4.3.1.Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti**

Bakı Mühəndislik Universitetində elmi-tədqiqat fəaliyyətinin idarə edilməsindən ötrü “Elm və İnnovasiya” şöbəsi fəaliyyət göstərir. Burada universitetin və ölkənin inkişaf strategiyası nəzərə alınmaqla elmi-tədqiqat fəaliyyətinin illik və 5 illik planlar tərtib olunur. Tədqiqatçılar bu plana uyğun olaraq elmi-tədqiqat işlərini aparır və hər ilin sonunda hesabat verirlər. Verilən hesabatlar əsasında “Elm və İnnovasiya” şöbəsində “Universitetin elmi-fəaliyyəti haqqında hesabatı” hazırlanır və Elm və Təhsil Nazirliyinə təqdim edilir.

**4.3.2.Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti**

Bakı Mühəndislik Universitetində Elmi-tədqiqat xarakterli beynəlxalq və respublika konfransları mütəmadi olaraq təşkil olunmaqdadır. Beləki, 2017-2023-cü illərdə universitetdə 20-dən çox beynəlxalq konfrans keçirilmişdir. Universitetdə ənənəvi olaraq «Azərbaycan Beynəlxalq nəqliyyat sistemində: hədəflər və perspektivlər», «İqtisadiyyat və idarəetmədə davamlı inkişaf: problemlər və perspektivlər», “Beynəlxalq Elm və Texnologiya Konfransı”, «Gənc Tədqiqatçıların Beynəlxalq Konfaransı» keçirilir. 2022 və 2023-cü illərdə Türkiyənin İKSAD tədqiqat mərkəzi ilə birlikdə Memarlıq və Ekologiya sahəsində iki beynəlxalq konfrans keçirilmişdir.

1. II Beynəlxalq Memarlıq Elmləri və Tətbiqi Konfrası

   9 -11 sentyabr 2022

https://www.izdas.org/mimarlik

9-11 sentyabr 2022-ci ildə Bakı Mühəndislik Universitetində (BMU) Türkiyənin memarlıq sahəsində aparıcı ali təhsil ocaqları ilə birgə “IArcSAS” “2-ci Beynəlxalq memarlıq elmləri və təcrübələri” hibrid formada təşkil olunan simpozium İKSAD (İqtisadi İnkişaf və Sosial Araşdırmalar) təşkilatı, Türkiyənin Texniki və Politexnik Tədqiqatlar ………., İnkişaf və Tətbiq Assosiasiyası (TP.RDiA), Ankara Dizayn və Planlaşdırma Akkreditasiya Dərnəyi (TAPLAK), Sekizgen Akademiyası, Türkiyənin “Netcad” şirkəti, Memarlar Palatasının İsparta nümayəndəliyinin dəstəyi, Türkiyənin "Arxitektura bilikləri və proqramları" jurnalının təşkilatçılığı ilə keçirildi.

Memarlıq və arxitektura elmləri sahəsində qabaqcıl tədqiqatların təqdim edilməsi, qarşılıqlı təcrübələrin bölüşdürülməsi məqsədilə təşkil olunan “IArcSAS” beynəlxalq səviyyəli platformadır. 37 sessiyadan ibarət simpozium proqramına 24 ölkənin 100-ə yaxın universitetindən 200-ə yaxın məruzə daxil edildi.

Tədbirdə bir çox sahələr üzrə mövzular, o cümlədən planlaşdırma, dizayn, sosiologiya, turizm, iqlim dəyişikliyi, ağıllı və ekoloji şəhərlər, texnologiya, memarlıq elmlərinin gələcəyi, iqtisadiyyat və s. istiqamətləri əhatə edən məruzələr dinlənildi.

2. Beynəlxalq Ekologiya və Ətraf Mühit konfransı 1-2 May 2023

Azərbaycan, Türkiyə, Pakistan, Əlcəzair, Mərakeş, Malayziya, İndoneziya, Hindistan, İran, Ukraynanın ali təhsil müəssisələrindən olan mütəxəssislərin qatıldığı beynəlxalq tədbirin əsas istiqamətlərinə “İqlim böhranı”, “Ətraf mühit siyasətləri”, “Covid-19 pandemiyasının ekoloji aspektləri”, “Suyun çirklənməsi və idarəedilməsi”, “Havanın çirklənməsinə və qoxu emissiyalarına nəzarət”, “Çirkab suların epidemiologiyası”, “Ətraf mühitin idarəetmə sistemləri, tətbiqləri və alətləri” daxildir. Tədbirdə bu istiqamətlərlə yanaşı, “Ətraf mühit mühəndisliyində rəqəmsal həllər: ölçmə, təhlil. monitorinq və qiymətləndirmə”, “Ətraf mühit mühəndisliyi təhsili”, “Ətraf mühit mühəndisliyində təşkilat və fənlərarası əlaqələr”, “Ətraf

mühit və mühəndislik etikası” və s. mövzular üzrə mühazirələr dinlənilib, müzakirələr aparılıb.

.https://www.iensci.org/ecology?lang=tr

Konfrans proqramına 15-dən artıq ölkədən yüzə yaxın məqalə daxil edilmişdir.

Eyni zamanda Scopus və Web of Science platfomasına daxil edilən **International Conference on Thermal Engineering** konfransının 13-üncüsü Kanadanın Ryerson Universiteti ilə birgə 10-12 iyun 2020 ci ildə koronaviris pandemiyasından dolayı onlayn, 2022-ci ildə isə Bakı Mühəndislik Universitetində **(**https://www.ictea.ca/) üz-üzə və onlayn keçirilmişdir. Konfransa 50-dən çox ölkədən iki yüzə yaxın tədqiqatçı iştirak etmişdir.

Fransanın Lorraine Univeritetinin keçirdiyi “Materiallar və enerji konfransı”nın (http://www.icome.ecam-epmi.fr/) təşkilat komitəsi BMU-da təşkil edilən bu konfransın (İCTEA) mevafiq seksiyada məruzə edərək konfransa daxil olmuşlar.

Eyni zamanda, Elmi işlər üzrə prorektorluğun təşkilatçılığı, Fakültə Elmi heyətləri və TEC əməkdaşlığı ilə hər il ənənəvi olaraq aprel ayının son həftəsində Ummumilli liderimiz Heydər Əliyevin anadan olması ildönümünə həsr olunan Gənc Tədqiqatçıların Beynəlxalq Konfransı (http://yric.az/), dekabr ayının son həftəsində isə universitet tələbələri və orta məktəb şagirdləri arasında layihə yarışması, “Qış Elm Festifalı” və may ayının ilk həftəsində tələbələrin elmi fəaliyyətlərinin sərgiləndiyi(nümayiş edildiyi) Bahar şənliyi keçirilir. Bununla yanaşı bütün fakültələrdə aylıq seminarlar və elmi müzakirələr müntəzəm keçirilir. Universitetdə professor-müəllim, magistrant və doktorantların iştirakından əlavə Tələbə Elmi Cəmiyyətinin üzvü olan tələbələr üçün də konfranslar təşkil edilir. Beləliklə, hesabat dövründə təşkil edilmiş nüfuzlu beynəlxalq elmi konfransların sayı üzrə göstəricini yaxşı hesab etmək olar. Bundan əlavə, hesabat dövründə universitetdə respublika səviyyəli çoxsaylı konfranslar da təşkil olunmuşdur.

Bütövlükdə isə universitet əməkdaşları tərəfindən 2017-2022-ci illərdə elmi-tədqiqat işlərinin nəticələri 18 monoqrafiya, 13 dərslik, 42 dərs vəsaiti, 268 adda xarici və 448 adda respublikada elmi məqalə və 91-i xaricdə olmaqla 183 elmi konfrans nəşri, 2 müəlliflik şəhadətnaməsi və 3 patent də öz əksini tapmışdır.

Hər il fevral ayının ilk həftəsi universitetin professor-müəllim heyətinə “Elmi resurs bazalarından effektiv istifadə” təlimi keçirilir. Eyni zamanda ənənəvi olaraq hər il aprel ayının son həftəsi Gənc Tədqiqatçılar Beynəlxalq Konfransı və dekabr ayinda ali məktəb tələbələri və orta məktəb şağirdləri arasında “Qış Elm Festifalı” keçirilir.

2021-ci ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kibertəhlükəsizlik magistratura ixtisasının tədris planı və tədris resurslarını formalaşdırması məqsədi qrantını və Avtomatika kafedrasının tədris tədqiqat potensialının artırılması qrantı olmaqla iki grant BMU-ya təltif edilmişdir.

Beləliklə, hesabat dövründə təşkil edilmiş nüfuzlu beynəlxalq elmi konfransların sayı üzrə göstəricini yaxşı hesab etmək olar. Bundan əlavə, hesabat dövründə universitetdə respublika səviyyəli çoxsaylı konfranslar da təşkil olunmuşdur. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə yüzdən çox müəssisə və 30- dan çox xarici ölkələrdən ümumilikdə beş minə yaxın tədqiqatçılar iştirak etmişdirlər. Konfranslarda xarici ölkələrdən iştirakçıların sayının artırılmasına ehtiyac duyulur.

**4.3.3.Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti**

Bakı Mühəndislik Universitetində keçirilən elmi konfranslarda ölkənin digər ali təhsil müəssisələrinin tədqiqatçıları rəsmi şəkildə dəvət olunur və onların konfranslarda iştirakı üçün şərait yaradılır.

Təkcə 2022-ci ildə keçirilən beynəlxalq konfranslarda 30-dan çox müxtəlif xarici ölkədən tədqiqatçılar məruzələrlə çıxışlar etmişdirlər. Ölkə daxilində isə əksər ali təhsil məktəblərindən və AMEA-nın nəzdində olan institutlardan tədqiqatçılar konfransda iştirak etmişdirlər.

**4.3.4.Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti**

Bakı Mühəndislik Universitetində Tələbələrin elmi-tədqiqat işinin təşkilini əsasən Tələbə Elmi Cəmiyyəti həyata keçirmişdir.

Universitetdə Tələbə Elmi Cəmiyyətinin konfransı hər il mütəmadi olaraq təşkil olunur (pandemiya dönəmində bu mümkün olmamışdır). Keçirilən hər konfransın işində yüzlərcə gənc tələbə-tədqiqatçılar iştirak edir və elmi nəşrləri konfrans materiallarında çap olunur. Elmi işlər üzrə prorektorluğun təşkilatçılığı ilə TEC və İnnovasiya şöbəsi 50-dən artıq onlayn seminar keçirmiş və bu tədbirlərə əlli mindən artıq iştirakçi qoşulmuşdur. BMU tələbələri və digər universitet tələbələrinin **COVİD-19 pandemiya** ilə bağlı maarifləndirmə işlərinin aparılması, ona qarşı birgə mübarizənin məqsədyönlü şəkildə təşkil olunması, gənclərin təşəbbüskarlıq hissinin formalaşması, müxtəlif problemlərin həlli istiqamətində yeni ideyaların təqdim olunması və onların kommersiyalaşdırılmasının sürətləndirilməsi, startap eko sisteminin inkişafı məqsədilə BMU Texnoparkı və İnnovasiya Mərkəzi pandemiya dövründə https://www.facebook.com/beutechnopark/ Facebook səhifəsində silsilə onlayn tədbirlər təşkil etmişdir.

**4.3.5.Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti**

BMU-da beynəlxalq proqramlar vasitəsilə akademik və inzibati heyətin mübadiləsi həyata keçirilir.BMU Erasmus+ mübadilə proqramı çərçivəsində Avropanın 13 universiteti ilə əməkdaşlıq edir. Universitet maddi və insan resurlarını ən optimal şəkildə istifadə edir.

BMU, beynəlmiləlləşmə prosesində ehtiyac duyulan maliyyə resurslarının bir qismini beynəlxalq qrant proqramları çərçivəsində əldə edir və eyni zamanda, bu layihələr çərçivəsində Avropanın ali təhsil məkanının ən yaxşı təcrübəsini öyrənərək universitetin potensialının artırılmasına dəstək olur. BMU 2017-2022-ci illərdə 9 beynəlxalq qrant layihəsinə tərəfdaş kimi cəlb olunmuşdur. Bunlardan biri isə **HORIZON** proqramı çərçivəsində həyata keçirilir. Layihələr çərçivəsində elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə ən yaxşı Avropa təcrübəsi öyrənilir, elmi əməkdaşlıq sahələri müəyyən edilir və geniş əməkdaşlıq şəbəkəsi qurulur.

1. **“PAWER - Təhsildə regionlararası mobillik, keyfiyyət, uyğunluq və hər kəsə açıq sistemin qurulması”** Erasmus+ KA2 layihəsi

2.**“PROMIG - Ali təhsil müəssisələrində miqrasiya təhsilinin təşviqi**” Erasmus+ KA2 layihəsi

3.**“CRENG - Nəqliyyat xidmətləri üçün böhran və risklər mühəndisliyi”** Erasmus+ KA2 layihəsi

4. “**MAGNUS - Tərəfdaş universitetlərdə Mobil Tətbiqlərin və Oyun Dizaynı magistr proqramlarının hazırlanması”** Erasmus+ KA2 layihəsi

**5. “ITACA - Azərbaycanda İnnovativ Tədris Mərkəzinin qurulması”** Erasmus+ KA2 layihəsi

**6. “ECAR - Azərbaycanda Rektorlar Konfransının yaradılması”** Erasmus+ KA2 layihəsi Qrant sahibi/koordinator: Bakı Biznes Universiteti (Azərbaycan)

Ətraflı məlumat üçün: http://ecar.net.az/

**7. “STM (Slow Turism Management) - Davamlı Turizm Menecmenti”** Erasmus+ KA2 layihəsi

**Layihənin məqsədi:** 6 ölkədən 7 universitet tərəfindən təklif olunan inteqrasiya olunmuş transmilli magistr təhsili proqramını inkişaf etdirmək.

**8. “CAMPAIGNers - Vətəndaşlar hədəf müəyyənləşdirmə şəbəkəsindən aktiv istifadə etmək vasitəsi ilə yumşaltma yolları ilə hərəkət edir”** adlı HORIZON 2020 layihəsi

**Layihənin məqsədi**: İnsanların həyat tərzindəki dəyişiklik üçün əngəlləri aydınlaşdıracaq, yeni həyat tərzi nümunələri müəyyən edərək sınaqdan keçirəcək və əldə etdiyi nəticələrin yayılması üçün planlar hazırlayacaqdır.

**4.3.6.Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti**

Bakı Mühəndislik Universiteti tərəfindən patentlərin əldə edilməsi və mövcud potensialın stimullaşdırılması istiqamətində işlər həyata keçirilir.Son beş ildə ikisi beynəlxalq və 7-si respublika daxili olmaqla 9 patent alınmışdır.

Nümunə olaraq qeyd edə bilərik ki, Bakı Mühəndislik Universitetinin (BMU) Kimya mühəndisliyi kafedrasının müdiri, dosent Yusif Abdullayevin “Əvəzedicilərin elektrokimyəvi reduksiyası üçün metodlar və sistemlər” adlı ixtirasına 9 yanvar 2020-ci il tarixində ABŞ-ın Patent və Əmtəə Nişanları Ofisi tərəfindən US 2020/0010964A1 nömrəli patent verilib. Bu ixtiraya eyni zamanda Ümumdünya Patent Təşkilatı tərəfindən də patent verilib.

- ABS patent ofisi: Abdullayev, Yusif; Hasanov, Zafar; Methods of and systems for electrochemical reduction of substrates From U.S. Pat. Appl. Publ. (2020), US 20200010964 A1 20200109

- Dunya patent ofisi: Abdullayev, Yusif; Hasanov, Zafar; Methods of and systems for electrochemical reduction of substrates From PCT Int. Appl. (2020), WO 2020008267 A2 20200109

**4.3.7.İnstitusional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti**

Bakı Mühənsislik Universiteti milli və beynəlxalq təşkilatlarla 2017-2023-ci illərdə müqavilə imzalanmışdır. Bu müqavilələrdə birgə tədqiqatların aparılması və bigə proqramların həyata keçirilməsi də xüsusi yer almışdır. Hazırda xüsisiylə İnha Universiteti ilə olan ikili diplom proqramı çərçivəsində Koreyalı elm adamları ilə birgə tədqiqatlar və elmi tədqiqat təcrübəsi nəzərdə tutulur.

**4.3.8.Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti**

BMU  xarici ölkələrin univesitetləri və elmi-tədqiqat müəssisələri ilə ikitərəfli müqavilələr və beynəlxalq proqramlar çərçivəsində də əməkdaşlıq edir. Amerika Dövlət Departamentinin Fulbright , Almaniyanın GİZ, DAAD, Koreyanən KOİKA,  Avropa Komissiyasının TEMPUS, ERASMUS MUNDUS, "Erasmus +" proqramı çərçivəsində Avropa ölkələrindən 30-a yaxın universiteti ilə tədqiqat və təcrübə mübadiləsi həyata keçirilir və bu proqramlarda universitetin 60-dan çox əməkdaşı istirak edib.

BMU-da mübadilə və qrant proqramları çərçivəsində tələbə və müəllimlərin, o cümlədən inzibati heyətin mübadiləsi, elmi-tədqiqat proqramları çərçivəsində tələbə və əməkdaşların qısamüddətli təcrübə keçmələri, müxtəlif vaxtlarda əcnəbi müəllimlərin tədrisə cəlb olunmaları, ikili diplom proqramları çərçivəsində tələbələrin yarı təhsilini xaricdə alma imkanı əldə etmələri ilə beynəlmiləlləşmə siyasətinin icrasına insan resursları cəlb olunur.

Scopus üzrə BMU nəşrlərinin 30% yaxını Elmin İnkişafı Fondu və bir neçə beynəlxalq elm fondları tərəfindən maliyyələşdirilib.




https://www.scopus.com/term/analyzer.uri?sid=6e8f2e57ea88e368bd3eb83f2007f07a&origin=resultslist&src=s&s=AF-ID%2860120887%29&sort=plf-f&sdt=a&sot=aff&sl=15&count=181&analyzeResults=Analyze+results&txGid=81d873a09543c77a157276d4aa825eab

### 4.3.9.Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Bu il beynəlxalq səviyyədə  ilk dəfə nəşr olunan "Azerbaijan National H-index Ranking nəşr olunmuşdur". "National H-index Ranking" tərəfindən 2023-cü ilin ikinci rübünün elmi nəticələri əsasında Azərbaycanda fəaliyyət göstərən elmi qurumların və universitetlərin Hirş indeksinə (H-index) görə reytinq sıralaması - "Azerbaijan National H-index Ranking-2023" açıqlanıb. Reytinq siyahısı hazırlanarkən 20 mindən çox alim və mütəxəssisin profili, eləcə də 150 minə yaxın elmi nəşr təhlil olunub. "Web of Science", "Scopus" və "Google Scholar" göstəriciləri əsasında hesablanmış Hirş indeksinə (H-index) görə, Azərbaycanın 83 elmi təşkilatının və universitetinin elmi fəaliyyəti analiz edilib. Bakı Mühəndislik Universitetinin H-indeksi (National H-index) 18 olmaqla ali təhsil müəssisələri arasında ilk yerlərdə qərarlaşıb. BMU nun  "Scopus" üzrə H-indeksi 18, "Web of Science" üzrə 20, "Google Scholar" üzrə isə 29-a bərabər olub. Bu sistemdə Azərbaycanın Scopus və Google Scholar göstəricilərinə görə ən məhsuldar 1000 alim siyahısında BMU-dan Scopus göstəricilərinə görə 9, Google Scholar göstəricilərinə görə 13 əməkdaş yer almışdır.

https://az.h-index.com/en/baku-engineering-university
Umumiyyətlə Scopus bazasında 80 və Google Scholar bazasında yüzə yaxın əməkdaşımızın profili yaradılıb.

**4.3.10.Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti**

Universitet əməkdaşları tərəfindən 2017-2023-cü illərdə elmi-tədqiqat işlərinin nəticələri 18 monoqrafiya, 13 dərslik, 42 dərs vəsaiti, 268 adda xarici və 448 adda respublikada elmi məqalə və 91-i xaricdə olmaqla 183 elmi konfrans nəşri, 2 müəlliflik şəhadətnaməsi və 3 patentində öz əksini tapmışdır

**4.3.11.Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti**

BMU-da hər biri ildə iki dəfə nəşr olunan altı istiqamətdə `**Journal of Baku Engineering University**` elmi jurnalları nəşr olunur.

1. Mechanical and Industrial Engineering
2. Chemistry and Biology
3. Mathematics and Computer Science
4. Physics
5. Philology and Pedagogy
6. Economics and Administration

Jurnalların hamısı AAK tərəfindən tövsiyyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

http://journal.beu.edu.az/

Eyni zamanda son beş ildə 30-a yaxın beynəlxalq konfrans keçirilmişdir ki onların nəşrlərində əməkdaşlarımız öz tədqiqatlarını çap etdirəbilir.

**4.3.12.Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası**

Ümumiyyətlə sistemdə BMU adından “Web of Science” bazasına daxil olan 181 nəşrə minə yaxın istinad qeyd edimişdir. Hər il istinad sayı əvvəlki ilə görə 20-30 faiz artmaqdadır.

Universitet əməkdaşları tərəfindən son 5 ildə xarici ölkələrin mətbuatında iki yüzə yaxın elmi məqalənin təxminən 30%-i sahəsində nüfuzlu olan Q1 kateqoriyalı elmi jurnallarda nəşr olunmuşdur.

Universitetin əməkdaşı 2017-ci ildə impact faktoru **16.779** olan energi sahəsində dünyanın ən məşhur elmi jurnallarından Oksford nəşri “**Renewable and Sustainable Energy Reviews”** jurnalında bir ildə iki **icmal (review)** məqalə nəşri Ali Təhsil muəsisələri arasında Tomson Reuters impakt faktorlu **ən yuksək nəşrlərdəndir. Eyni zamanda bir əməkdaşımız** nəşr aktivliyi və istinadların sayına görə 6 oktyabr 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (EİF)tərəfindən ilk dəfə keçirilən **“Ən Layiqli Alim-Ə.L.A.”** məqsədli qrant müsabiqəsi çərçivəsində **”2016-cı ilin alimi”** mükafat müsabiqəsində Humanitar və ictimai elmlər sahəsinin əsas nominasiya üzrə qalibi olmuşdur.

**4.3.13.Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqatyönümlü fənlərin nəzərə alınması vəziyyəti**

Magistraturada tədris Elm və Təhsil Nazirliyi tərəfindən hər bir ixtisas üçün təsdiq olunmuş tədris planına uyğun şəkildə aparılır.

**4.3.14.Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti**

-Hər il fevral ayının ilk həftəsində fakültələr üzrə elmi hesabat və əməkdaşlara Elmi Tədqiqat Bazalarından effektiv istifadə təlimləri keçirilir.

**4.3.15.Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu**

2016-2022-ci illərdə 36 nəfər fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul edilmişdir. Bunlardan 14 nəfəri təhsil aldıqları müddətdə universitetdə işə cəlb edilmişdir.2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı çərçivəsində universitetimiz tərəfindən razılıq məktubu verilən 11 namizəd- 8 nəfər mühəndislik ixtisası və iki nəfər iqtisadiyyat ixtisası və bir doktorant təhsilin idarəedilməsi ixtisası üzrə gələcəkdə universitetimizdə akademik fəaliyyət göstərməsi şərti ilə dünyanın qabaqcıl universitetlərinə PhD təhsilini dövlət təqaüdü ilə oxuyur . Bu proqram iştirakşıları ilə mütəmadi əməkdaşlıq edilir. 2022-2023 tədris ilində 4 doktorant əyani beş doktorant da onlayn olaraq öz tədqiqatları barədə seminar vermiş və bu fəaliyyət Təhsil Nazirliyinin Dövlət Proqramı İdarəetmə Qrupu tərəfindən müsbət nümunə kimi digər ali məktəblərə tövsiyə edilmişdir.

**4.3.16.Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti**

Hal-hazırda tədris prosesində 14 elmlər doktoru və professor iştirak edir. Eyni zamanda son illərdə 2 nəfər elmlər doktoru, 1 nəfər isə professor elmi adı almışdır. Eləcə də 2017-2023 illərdə universitetdə çalışan ondan çox əməkdaş Respublikanın nüfuzlu universitetlərində müxtəlif sahələr üzrə elmlər doktoru proqramı üzrə məqsədli yerlərə qəbul olunmuşdur.

**4.3.17.Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**

Bakı Mühəndislik Universitetində tədris fəaliyyəti ilə birgə elmi-tədqiqat işi yerinə yetirən 180 əməkdaşdan 105-nin müvafiq elmi dərəcəsi vardır, 75 nəfər isə elmi dərəcəsi olmayan əməkdaş isə əsasən doktorantura və ya dissertantlıq yolu ilə tədqiqat aparmaqdadır.. Son illərdə Universitetin doktorant və dissertantlarının dissertasiya işlərinin müdafiəsində artım dinamikası olmuşdur. Bu da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinə müsbət təsirini göstərməkdədir.

**4.3.18.Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu**

Bakı Mühəndislik Universitetində Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərancamlarına eləcə də ölkənin strateji inkişaf planlarına uyğun olaraq universitetin prioritet istiqamətləri üzrə fəlsəfə doktorluğu proqramları üzrə elmi-təqdiqat işləri aparılır.

**4.3.19.Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

Bakı Mühəndislik Universitetinin elmi tədqiqat işi ilə məşğul olan professor-müəllim heyətinin görəcəkləri işlər haqqında illik və 5 illik elmi-tədqiqat işlərinin planı uyğun olaraq hər il və hər 5 ildən bir təsdiq edilir. Universitetin professor-müəllim heyətindən təsdiq olunmuş plana uyğun olaraq hər ilin sonunda gördükləri elmi-tədqiqat işləri haqqında hesabatları alınır və Elm və Təhsil Nazirliyinə təqdim edilir. Universitetə yeni qəbul olunmuş magistr tələbələrinə veriləcək dissertasiya mövzuları kafedra iclaslarında və fakültə Elmi şuralarında müzakirə olunduqdan sonra universitet rəhbərliyi tərəfindən təsdiq edilir.

Universitetə yeni qəbul olunmuş doktorant və dissertantlara veriləcək dissertasiya mövzuları kafedra iclaslarında və fakültə Elmi şuralarında eləcə də universitetin Elmi Şurasında müzakirə edilərək universitet rəhbərliyi tərəfindən nəzarət edilir. Universitetin magistrant və doktorantları gördükləri elmi-tədqiqat işləri haqqında mütəmadi olaraq bağlı olduqları kafedra və fakültəyə eləcə də universitetin Elmi hissəsinə hesabatlar tədqim edirlər.

**4.3.20.Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili**

Son 5 ildə Bakı Mühəndislik Universitetində 12 doktorant və dissertantın dissertasiya işinin ilkin müzakirəsi keçirilmiş və işlər müvafiq "Müdafiə şuraları"na təqdim edilmişdir. "Müdafiə şuraları"na təqdim edilən işlərin böyük əksəriyyətinin müdafiəsi artıq uğurla keçirilmiş və yekun qərarın verilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Kommisiyasına təqdim edilmişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

**4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu**

Bakı Mühəndislik Universitetində Antiplagiat və akademik dürüstlük siyasəti mövcuddur və bu siyasəti Respublikanın digər ali təhsil müəssisələri ilə birgə korporativ şəkildə (hər sənəd üçün ödəniş etməklə) həyata keçirir.2017-cı ildən "Plagiat.pl" Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikasındakı filialı arasında müqavilə imzalanıb. Sistem informasiya xidmətləri sahəsində işləyir və digər sənədlərin də yer aldığı strikeplagiarism.com antiplagiat sistemi bazasında və internet-kontentlə çalışan məlumat bazasındaki sənədlərin məzmununun muqayisəsinin aparılmasını həyata keçirir. Bu missiyaya qoşulmaqda əsas məqsəd intellektual mülkiyyətin qorunması və akademik düzgünlüyün optimal standartlarının təbliğidir. Sistem iki oxşarlıq əmsalından (1-ci oxşarlıq əmsalı və 2-ci oxşarlıq əmsalı) ibarət olan antiplagiat yoxlanışlarının nəticələrini təqdim edir. Yoxlama nəticəsində 1-ci oxşarlıq əmsalı 20%-dən (hər 5 sözün uyğunluğuna görə), 2-ci oxşarlıq əmsalı isə 5%-dən (hər 25 sözün uyğunluğuna görə) çox olmadığı halda sənəd plagiat sayılmır.

Bağlanan müqaviləyə əsasən StrikePlagiarism.com veb-sayıtının Antiplagiat İnternet-Sistemi vasitəsilə universitetin kafedralarında diplom işlərinin, magistr və doktorluq dissertasiyalarının, həmçinin məqalələrin, monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin və digər sənədlərin yoxlanması üçün sistem administratoru, sistem operatorları və nəticələrin oxşarlıq hesabatını təhlili edərək orijinallığı qiymətləndirən komissiya yaradılıb. Antiplagiat İnternet-Sistemi vasitəsi yoxlanılan sənədlərin məlumatlar bazası formalaşdırılıb, saytın məlumatlar bazasına qoşulmaqla məlumatlar orada arxivləşdirilib, nəticələrin oxşarlıq hesabatı təhlil edilərək orijinallığı qiymətləndirilib. Antiplagiat İnternet-Sistemi vasitəsilə yoxlanılmış elmi-pedaqoji işlərin oxşarlıq əmsalları normadan çox olarsa, qiymətləndirmə komissiyası tərəfindən müvafiq qərar qəbul edilir.

**4.4.2.Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu**

Bununla bağlı olaraq həm dissertasiya işlərində, həm elmi metodiki işlərdə, həm də məqalə qəbulu proseduralarında mövcud qaydalara uyğun şəkildə Universitet müvafiq qanunvericiliklə qabaqlayıcı tədbirlər həyata keçirir.

**4.4.3.ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi**

Bakı Mühəndislik Universitetində elmi-tədqiqat işi ilə məşğul olan bütün professor müəllim heyyətini, eləcə də magistrant və doktorantların dissertasiya işlərini əhatə edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 5. İDARƏETMƏ SİSTEMİ

5.1. İdarəetmə orqanları

**5.1. İdarəetmə orqanları**

**5.1.1. Bakı Mühəndislik Universitetinin Nizamnaməsi ilə müəyyən edilmiş ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şurası və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetinin Nizamnaməsinin 4.2.2. yarımbəndinə əsasən idarəetmə orqanlarının yaradılması təsisçinin səlahiyyətlərinə aid edilir. Nizamnamənin 4.2.3.

yarımbəndinə əsasən rektor istisna olmaqla idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi də təsisçinin səlahiyyətlərinə aid edilir. Universitetə münasibətdə təsisçinin səlahiyyətlərini (4.2.2-ci yarımbəndində nəzərdə tutulmuş səlahiyyətlər istisna olmaqla) Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir.

a. Universitetin ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10.10.1997-ci il tarixli 792 saylı əmri ilə təsdiq olunmuş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə və Bakı Mühəndislik Universitetinin Nizamnaməsinə əsasən həyata keçirilir. Universitet Elmi Şurasının hazırkı tərkibi müvafiq Əsasnamənin tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 14.04.2023-ci il tarixli 3-29/3-2-163F/2023 saylı əmri və həmin əmr əsasında verilmiş Bakı Mühəndislik Universitetinin 19.04.2023-cü il tarixli 0216 saylı əmri ilə təsdiq edilmişdir.

b.Universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasıdır. Himayəçilər Şurasının tərkibini azı 3 (üç) nəfər olmaqla, Azərbaycan Respublikasının Təhsil Nazirliyi təsdiq edir. Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə və Bakı Mühəndislik Universitetinin Nizamnaməsi ilə müəyyən olunur. Himayəçilər Şurası Universitetdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir.

Bakı Mühəndislik Universitetinin Himayəçilər Şurasının tərkibi Azərbaycan Respublikası Elm və Təhsil nazirliyinin 07.07.2017-ci il tarixli, 188 nömrəli əmri ilə təsdiq edilmişdir (07.03.2019-cu il tarixli, F-123 nömrəli, 27.01.2021-ci il tarixli, F-18 nömrəli əmrlərlə Şuranın tərkibinə dəyişiklik edilmişdir). Hal-hazırda BMU-nun Himayəçilər Şurasının tərkibində Elm və Təhsil naziri və aparat rəhbərinin müavini ilə yanaşı işəgötürənlər də təmsil olunur. Belə ki, AMEA-nın Fizika İnstitutunun baş direktoru, "Azərkimya" İstehsalat birliyinin baş direktoru, Azərbaycan Respublikası Səhiyyə nazirinin müşaviri Şuranın üzvləridir.

c. Universitetin cari fəaliyyətinə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi rektor rəhbərlik edir. Rektorun fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə və Bakı Mühəndislik Universitetinin Nizamnaməsi ilə müəyyən olunur. Rektor Universitetin cari fəaliyyəti ilə bağlı digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən məsələləri həll edir. Elmi Şuranın sədridir. Elmi Şuranın qərarlarını təsdiq edir, onun və digər idarəetmə orqanlarının qərarlarını həyata keçirir. Elmi Şura qarşısında elm və tədris məsələlərinə, Himayəçilər Şurası qarşısında isə Universitetin cari fəaliyyətinə dair hesabat verir. Universitetin 5 (beş) prorektoru vardır. Universitetin prorektorlarının sayı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla dəyişdirilə bilər. Prorektorları Universitet rektorunun təqdimatı əsasında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi təyin edir. Rektor olmadıqda Universitetin fəaliyyətinə rəhbərliyi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi prorektor həyata keçirir.

**5.1.2. İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti**

Universitet Elmi Şurasında Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Tələbə Gənclər Təşkilatının sədri, Tələbə Elmi Cəmiyyətinin sədri səsvermə hüquqlu üzv kimi iştirak edirlər. İşəgötürənlərin ali idarəetmə orqanlarında təmsili Himayəçilər Şurası səviyyəsində təmin edilir.

**5.1.3. İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti**

a. Elmi Şura tədris ili və hər semestr üçün nəzərdə tutulmuş iş planı üzrə işləyir. Hər il üçün iş planı müəyyənləşdirildikdən sonra həmin iş planına müvafiq olaraq ayda 1 dəfə olmaqla Elmi Şura iclası təşkil olunur.

Elmi Şuranın iş planları hər semestr üçün öncədən – əvvəlki yarımilin sonuncu Elmi Şura iclasında müzakirə olunaraq müəyyənləşdirilir və səs çoxluğu ilə təsdiq edilir.

2022-2023-cü tədris ilinin I semestri üçün Elmi Şuranın iş planı 05 iyul 2022-ci il tarixli iclasında (BMU- Nömrə: 07/2022), II semestr üçün Elmi Şuranın iş planı 31 yanvar 2023-cü il tarixli iclasında (BMU- Nömrə: 01/2023) qəbul edilmişdir.

b. BMU-nun Himayəçilər Şurası, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiya qərarı ilə təsdiq edilmiş "Dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin Himayəçilər Şurası" haqqında Əsasnaməyə əsasən fəaliyyət göstərir. Şura tərəfindən hər il təsdiq edilən fəaliyyət planına əsasən iclaslar keçirilir. Fəaliyyət planı isə Əsasnamədən irəli gələn fəaliyyət istiqamətləri əsasında tərtib edilir.

Əsasnamənin 6.2 bəndinə əsasən Şura sədrinin müəyyən etdiyi tarixdə ildə 2 (iki) dəfədən az olmayaraq iclaslar keçirilir. Fəaliyyət planına əsasən iclasların sayı daha çox olur (4-5). ). Şuranın fəaliyyət planı hər ilin ilk iclasında (adətən yanvar-fevral aylarında olur) Şura tərəfindən təsdiq edilir.

**5.1.4. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti**

Elmi Şuranın gündəliyi əvvəlcədən müəyyən olunur. Gündəliyə çıxarılacaq məsələlər üç istiqaməti əhatə edir: Birincisi, fəaliyyət planında həmin ay üçün nəzərdə tutulan hesabat xarakterli gündəlikər. İkincisi, cari məsələlərlə bağlı gündəliklər - müəyyən seçkilər kimi. Üçüncüsü, strukturlardan daxil olan məsələlər. Qeyd olunan məsələlər strukturlardan daxil olur, rəhbərlikdə müzakirə edilərək gündəliyə çıxarılır.Gündəliyə daxil edilən məsələlərin layihəsi Elmi Şuranın sədri – rektor tərəfindən təsdiq edildikdən sonra Elmi Şuranın üzvlərinə elan edilir. İclasın əvvəlində reqlamentə uyğun olaraq əvvəlcə yetərsayın olması müəyyən edilir. Daha sonra gündəlikdə olan məsələlər iclas iştirakçılarının nəzərinə çatdırılır. (Daha sonra) Gündəliyə əlavə və təkliflər olarsa, onlar dinlənilir və uyğun olan məsələlər gündəliyə daxil edilir. Müzakirəyə çıxarılan məsələlər açıq səsverməyə qoyulur və səs çoxluğu ilə təsdiq edildikdən sonra iclas başlayır. Gündəlikdəki məsələlərdən asılı olaraq reqlament üzrə müvafiq vaxt müəyyən edilir. Gündəlikdəki hər məsələnin müzakirəsindən sonra varsa, suallar və gündəlikdəki məsələlərlə bağlı çıxışlara vaxt ayrılır. Sonda məsələ ilə bağlı qərar layihəsinin qəbulu üçün səsvermə keçirilir və səs çoxluğu ilə qərar layihəsi təsdiq olunur.Elmi Şura iclaslarını maksimum 3 (üç) saatdan artıq olmayan müddətdə başa çatdırılması nəzərdə tutulur.

Müstəsna hallarda rektorun və ya üvlərin təklifi əsasında Elmi Şuranın növbədənkənar iclası çağrılır. İclas zamanı bütün danışıqlar qeydə alınır və səs yazısı formasında saxlanılır. İclasın gedişatı Elmi Şuranın katibi tərəfindən protokollaşdırılır, Elmi Şuranın sədri və katibi tərəfindən imzalanır və Elmi katibdə saxlanılır.

Himayəçilər Şurasında məsələlərin müzakirəsi, qərarların qəbul edilməsi, reqlament və prosedurla bağlı digər məsələlər Şuranın əsasnaməsində qeyd edilib (Əsasnamənin 5-6-cı bəndləri).

**5.1.5. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti**

- Elmi Şurada təsdiq olunan qərarlar ancaq Elmi Şura protokolunun rektor tərəfindən imzalanmasından sonra qüvvəyə minir və qərarlardan çıxarışlar rektorun və elmi katibin imzasından sonra əlaqədar şöbələrə göndərilir. Zəruri hallarda Elmi Şurada qəbul edilən qərarlar məsələlərin icrasını təmin etmək məqsədi ilə əmrləşdirilir və icra üçün aidiyyatı strukturlara göndərilir.
- Hər hansı şöbə icrasının tələb olunduğu məsələ ilə bağlı qərarın çıxarışını istədiyi zaman Elmi Şuranın təsdiq olunmuş protokolundan həmin məsələ ilə bağlı çıxarış elmi katib tərəfindən hazırlanır, rektor və elmi katibin imzasından sonra aidiyyatı şöbəyə göndərilir.
- Himayəçilər Şurasının fəaliyyətinin təşkili universitetin Nizamnaməsinə və Şuranın Əsasnaməsinə əsasən həyata keçirilir. Bütün iclaslar protokollaşdırılır və gündəlikdə olan məsələlərlə bağlı qərarlar qəbul edilir. Protokol yazılandan sonra bütün üzvlər tərəfindən imza atılır və bir nüsxəsi hər bir üzvə təqdim edilir.

**5.1.6. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

İdarəetmə orqanları arasında qarşılıqlı əlaqə xüsusi ilə aşağıdakı istiqamətlər üzrə həyata keçirilir.

- Universitet Elmi Şurası Staretejik plan layihəsini hazırlayır və ilkin müzakirədən sonra Himayəçilər Şurasının təsdiqinə təqdim edir. Himayəçilər Şurası Stratejik Planı müzakirə edib təsdiq etdikdən sonra icrasına nəzarət edir. Şura iclaslarında görüşülən məsələlərdən biri də illik olaraq Stratejik planda nəzərdə tutulan məsələlərin icra vəziyyəti olur. Rektorun Stratejik planın icra vəziyyəti barədə hesabatı dinlənilir, icra edilə bilməyən məsələlərin səbəbləri barədə müzakirələr aparılır və müvafiq qərarlar qəbul edilir.
- Universitetin müvafiq səlahiyyətli strukturları tərəfindən illik büdcə layihəsi hazırlanır və ilkin müzakirədən sonra təsdiq üçün Himayəçilər Şurasına təqdim edilir. Himayəçilər Şurası maliyyə vəziyyətini də nəzərə alaraq büdcə layihəsinə əlavə və düzəlişlər etməklə və ya eyni ilə təsdiq edir və icrasına nəzarəti həyata keçirir.
- Universitet Elmi Şurası tərəfindən daxili audit bölməsi yaradılır. Himayəçilər Şurası tərəfidən Audit şöbəsinin rəhbəri təyin edilir. Şöbənin digər əməkdaşları univeristetin rektoru tərəfindən vəzifəyə təyin edilir. Həmçinin şöbənin Əsasnaməsi də Elmi Şura tərəfindən təsdiq edilir. Audit şöbəsi daxili monitoronq fəaliyyyətlərini həyata keçirir, Audit şöbəsinin əsasnaməsinə uyğun olaraq mütəmadi Himayəçilər Şurasına hesabatlar, təkliflər verir.
- Universitetin Ali idarəetmə orqanı olan Elmi Şuranın sədri və Universitetin cari fəaliyyətlərinə rəhbərliyi həyata keçirən Rektor Himayəçilər şurasına universitetin cari fəaliyyəltəri ilə bağlı hesabatlar təqdim edir. Himayəçilər Şurası hesabatları dinləyir, çatışmazlıqların aradan qaldırılması ilə bağlı üzərinə düşən məsələlərin həlli istiqamətində tədbirlər planı hazırlayır və qərarlar qəbul edir.
- Bundan başqa cari fəaliyyətlərin həyata keçirilməsi zamanı qarşılaşılan əhəmiyyətli problemlərin həlli istiqamətində də mütəmadi olaraq Elmi şura sədri və Himayəçilər Şurasının sədri qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyətləri davam etdirir.

**5.1.7. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

Himayəçilər Şurası daxilində səlahiyyət və vəzifə bölgüsü Əsasnamənin müvafiq bəndlərinə əsasən aparılır (5-6).

Elmi Şurada universitetin rektoru Elmi Şuranın sədridir. Elmi şuranın katibi Elmi Şura üzvləri arasından şuranın ilk iclasında seçilir.

Şurada zəruri hallarda Elmi Şura üzvləri arasından müxtəlif təyinatlı komissiyalar yaradılır, müəyyən işlərin icrası, hesabatların hazırlanması və təqdim edilməsi və digər tapşırıqlar verilir. Komissiyaların yaradılması və görüləcək işlərlə bağlı Şura qərarları rektor əmriylə rəsmiləşdirilir. Komissiyaların səlahiyyət müddəti əvvəlcədən müəyyən edilir və komissiya nəzərdə tutulan müddətdə nəzərdə tutulan məslə barədə təkliflərini, yekun hesbatını və ya tapşırılan işlərin nəticəsi barədə arayışını şuraya təqdim edir.

**5.1.8. İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

Bakı Mühəndislik Universitetinin Nizamnaməsinə uyğun olaraq Himayəçilər Şurası tərəfindən universitetdə Daxili Audit Şöbəsi yaradılmışdır. Şöbənin fəaliyyətinə Himayəçilər Şurası nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır. Hesabatlar yarımillik və illik hazırlanır və Himayəçilər Şurasının iclasında məruzə olunur.
Daxili Audit Şöbəsi tərəfindən Universitetin strukturlarında Daxili Audit Şöbəsinin Əsasnaməsi ilə verilən səlahiyyətlər çərçivəsində daxili nəzarət tədbirləri həyata keçirilir.
Bakı Mühəndislik Universitetinin daxili idarəetmə orqanlarının montorinqi və qiymətləndirilməsi Himayəçilər Şurasının və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin səlahiyyətlərinə aiddir.

**5.1.9. İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

Universitet əməkdaşlarının fəaliyyətlərini dəyərləndirmək eyni zamanda idarəetmə strukturlarının fəaliyyətlərinin qiymətləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə Keyfiyyətin təminatı şöbəsi tərəfindən "Əməkdaşların məmnuniyyəti anketinin" keçirilməsi qərara alınmışdır. Əməkdaşların fəaliyyətinin dəyərləndirilməsi üçün Keyfiyyəti təminatı şöbəsinin əməkdaşları beynəlxalq təcrübələri, üsulları və prinsipləri araşdırmış və qərar vermə, nəticəyönümlülük və ATM-in digər vacib konsepsiyalarını əhatə edən suallar toplusu hazırlanmışdır. Həmin suallar keyfiyyət komissiyası tərəfində iclasda müzakirə olunmuş, suallarla bağlı komissiya üzvləri tərəfindən lazımi əlavə və düzəlişlər edilmiş, təsdiq edildikdən sonra universitetin çoxşaxəli və innovativ EMS sisteminə yerləşdirilmişdir.

Ümumlikdə Personal məmnuniyyəti anketində 134 əməkdaş iştirak etmişdir. Respondentlərin ortalama məmnuniyyət göstəricisi 68.46% təşkil edir. Anketin nəticələrinə Keyfiyyətin təminatı şöbəsi tərəfindən monitorinq aparılmış, nəticələr təhlil edilərək yekun hesabat hazırlanmışdır. Respondentlərin nəticələri ilə bağlı EMS sistemində tanış olmaq mümkündür.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

5.2. İnsan resurslarının idarə edilməsi

**5.2.1. ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

Bakı Mühəndislik Universitetinin İnsan Resursları Şöbəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərar və Sərəncamlarını, Azərbaycan Respublikasının Əmək məcəlləsini, Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimatı, Azərbaycan Respublikasının müfaviq qanunlarını və normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əsasnaməsini, Nazirliyin Kollegiyasının qərarlarını, Azərbaycan Respublikası Təhsil Nazirinin əmr və sərəncamlarını, Universitetin Nizamnaməsini və onun fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktları, habelə şöbənin əsasnaməsini rəhbər tutaraq işini təşkil edir.

Tədris illərində tələbə qəbulunun nəticələrinə əsasən dərs yükünün dəyişdirilməsi, universitetə perspektivli kadrların, o cümlədən, professor və müəllimlərin işə qəbulunun təmin olunması işinin şəffaf icra edilməsi məqsədi ilə vətəndaşlara e-mail (hr@beu.edu.az) və poçt vasitəsi ilə öz ərizə və CV müraciətlərinin edilməsi üçün imkanlar yaradılıb, həmçinin vakant yerlər barədə Abşeron – Xızı regional məşğulluq şöbəsinə məlumatlar verilmişdir.

Seçkili yerləri tutacaq vakant vəzifələr barəsində "Ali təhsil müəsissələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları" haqqında Əsasnaməyə uyğun olaraq müsabiqələr keçirilmişdir. 2022-ci ilin noyabr ayında 37 ştat üzrə müsabiqə keçirilmiş. 2023-cü ilin yanvar ayında 25 şatat üzrə müsabiqə keçirilmiş. Müsabiqədən keçmiş akademik heyətlə 5 illik əmək müqaviləsi bağlanmışdır. Əmək qanunvericiliyinə, BMU-nun Nizamnaməsinə, təlimat və qaydalara, rektorun əmrlərinə müvafiq olaraq işçilərin qəbulunun vaxtında rəsmiləşdirilməsi həyata keçirilir.

**5.2.2.ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

Bakı Mühəndislik Universitetinin akademik və inzibati heyəti onun strateji inkişaf planına uyğun şəkildə tənzimlənir. Onlara əməkhaqqı və digər əlavələrin ödənilməsi universitrtin maliyyə resurslarına proporsional şəkildə həyata keçirilir.

Hesabat dövründə illər üzrə 2018 - 2 nəfər fəlsəfə doktoru, 2019 - 2 nəfər fəlsəfə doktoru, 2020 - 4 nəfər fəlsəfə doktoru, 2021 - 4 nəfər fəlsəfə doktoru, 1 nəfər elmlər doktoru, 2022 - 3 nəfər fəlsəfə doktoru, 2023 - 3 nəfər fəlsəfə doktoru, 1 nəfər elmlər doktoru elmi dərəcəsi və 2018-ci il 1 nəfər dosent, 2019-cu il 10 nəfər dosent, 2020-ci il 1 nəfər dosent, 2021-ci il 3 nəfər dosent, 2022-ci il 6 nəfər dosent, 2023-cü il 1 nəfər dosent elmi adı almışdır.

Həmçinin BMU üzrə əmək haqqı 2019-cu ildə 10%, 2022-ci ildə 15%, 2023-cü il 10% artmışdır.

Eyni zamanda BMU-nun iştirak etdiyi layihələr aşağıdakı kimidir:

1. "PAWER - Təhsildə regionlararası mobillik, keyfiyyət, uyğunluq və hər kəsə açıq

sistemin qurulması" Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Aquila Universiteti (İtalya) / Layihənin müddəti: 3 il

(2016-2019 + 6 ay vaxtı uzadılıb və 2020-ci ilin aprelində yekunlaşıb) .

2.“PROMIG - Ali təhsil müəssisələrində miqrasiya təhsilinin təşviqi” Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Tbilisi Dövlət Universiteti (Gürcüstan)

Layihənin müddəti: 3 il (2016-2019 + 6 ay vaxtı uzadılıb və 2020-ci ilin aprelində yekunlaşıb).

3.“CRENG - Nəqliyyat xidmətləri üçün böhran və risklər mühəndisliyi” Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Varşava Politexnik Universiteti (Polşa)

Layihənin müddəti: 3 il (2018-2021)

4. “MAGNUS - Tərəfdaş universitetlərdə Mobil Tətbiqlərin və Oyun Dizaynı magistr proqramlarının hazırlanması” Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Linkopings Universiteti (İsveç)

Layihənin müddəti: 3 il (2018-2021)

5. “ITACA - Azərbaycanda İnnovativ Tədris Mərkəzinin qurulması” Erasmus+ KA2 layihəsi

Qrant sahibi / koordinatoru: Roma Universiteti La Sapienza (İtalya)

Layihənin müddəti: 3 il (2019-2022)

6. “ECAR - Azərbaycanda Rektorlar Konfransının yaradılması” Erasmus+ KA2 layihəsi

Qrant sahibi/koordinator: Bakı Biznes Universiteti (Azərbaycan)

7. “STM (Slow Turism Management) - Davamlı Turizm Menecmenti” Erasmus+ KA2 layihəsi

Layihənin məqsədi: 6 ölkədən 7 universitet tərəfindən təklif olunan inteqrasiya olunmuş transmilli magistr təhsili proqramını inkişaf etdirmək.

8. “CAMPAIGNers - Vətəndaşlar hədəf müəyyənləşdirmə şəbəkəsindən aktiv istifadə etmək vasitəsi ilə yumşaltma yolları ilə hərəkət edir” adlı HORIZON 2020 layihəsi

Layihənin məqsədi: İnsanların həyat tərzindəki dəyişiklik üçün əngəlləri aydınlaşdıracaq, yeni həyat tərzi nümunələri müəyyən edərək sınaqdan keçirəcək və əldə etdiyi nəticələrin yayılması üçün planlar hazırlayacaqdır.

**5.2.3.ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əməkhaqqı sisteminin mövcud olması**

Bakı Mühəndislik Universitetində işçilərə əməkhaqqının ödənilməsi müvafiq qanunvericiliyə uyğun olaraq ödənilir. İşçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq təsdiq olunmuş ştat cədvəlinə uyğun olaraq əmək haqqı sistemi tətbiq edilir. Bundan əlavə Universitet Elmi Şurasının Qərarı ilə ingilis dilində tədris aparan müəllimlərin əməkhaqqına və ingilis dilində saathesabı ilə dərs deyən müəllimlərin əməkhaqqına əlavə ödəniş forması müəyyən edilmişdir.

Eyni zamanda, Bakı Mühəndislik Universitetinin "Elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan elmi dərəcəsi və elmi adı olan şəxslərin vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə ödənilən əlavələrin məbləğinin müəyyən edilməsi" haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına uğun olaraq əlavə ödənişlər edilir. Hal-hazırda 101 akademik heyyətə peşakarlıq səviyyəsinə və elimi adına görə əlavə ödənişlər həyata keçirilir.

**5.2.4.ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması**

BMU-da əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində yerinə yetirən, intizam qaydalarına əməl edilməsində fərqlənən əməkdaşların həvəsləndirilməsi, mükafatlandırılması və təltif edilməsi müvafiq sərəncamlar və əmrlər vasitəsilə həyata keçirilir. Milli və beynəlxalq bayram günləri ilə əlaqədar universitet əməkdaşlarının mükafatlandırılması prosesi sistemli həyata keçirilir. Həmçinin təlim-tədris işinin təşkili və aparılmasında, universietin tədris prosesinin təşkilində və digər tapşırıqların yerinə yetirilməsində peşəkarlığı və intizamı ilə fərqlənən əməkdaşlar müvafiq olaraq Azərbaycan Respublikasının Əmək məcəlləsinin 185-ci maddəasına əsasən mükafatlandırılır.

**5.2.5.ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti**

Bakı Mühəndislik Universitetinin İntizam Komissiyası tərəfindən mütəmadi olaraq şöbə və struktur bölmələrdə təhlil işləri aparılır. Təhlillərin nəticələrinə əsasən işçilərin fəaliyyəti qiymətləndirilir.

**5.2.6.ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti**

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2018-ci il tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Bakı Mühəndislik Universiteti ilə İNHA Universiteti arasında həyata keçirilən BMU-İNHA beynəlxalq İkili Diplom Proqramı icra edilməkdədir. Qeyd olunan ikili diplom proqramının icrası ilə bağlı BMU-nun professor müəllim heyəti Cənubi Koreyanın İnçon şəhərində təlimlərdə iştirak etmiş, həmçinin Cənubi Koreyadan gələn İNHA layihə direktoru Hyunjin Yang və digər İNHA nümayəndələri BMU-ya gələrək təlimlər vermişdilər. Hazırda bu layihə davam etməkdədir.

Eyni zamanda, BMU əməkdaşları və müəllimlərinin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə hər il bir çox xarici ölkələrdə təcrübə mübadiləsində iştirakı təmin edilmişdir. Həmçinin, professor-müəllim heyətinin elmi fəaliyyətlərini stimullaşdırmaq məqsədi ilə ölkəmizdə təşkil edilmiş beynəlxalq əhəmiyyətli təlimlərdə də iştirakı təmin edilmişdir. Bundan əlavə, Web of Science və Scopus platformalarında elmi

məqalələri çap olunmuş əməkdaşlarımıza müxtəlif məbləğlərdə mükafatlar verilmişdir. (2018-ci ildə 46 nəfər, 2019-cu ildə 60 nəfər, 2020-ci ildə 10 nəfər, 2021-ci ildə 12 nəfər, 2022-ci ildə 77 nəfər). Erasmus+ layihəsi çərçivəsində Beynəlxalq Əməkdaşlıq Şöbəsi əməkdaşları, o cümlədən akademik heyət Rektorlar Konfransının yaradılması (ECAR) qrant layihəsi çərçivəsində bir çox təlimlərdə iştirak etmişlər.

**5.2.7.ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti**

BMU-da ölkəmizin sosial, iqtisadi və mədəni inkişafına daima öz dəyərli töhfəsini verən tədbirlər, bayramlar və görüşlər keçirilir. Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və yeni il tədbiri, Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən 20 Yanvar şəhidlərinin anım günü, 8 Mart Beynəlxalq Qadınlar Günü, Novruz bayramı, Ulu Öndər Heydər Əliyevin anadan olması ilə əlaqəli tədbirlər, Müstəqillik Günü, 15 iyun Milli Qurtuluş Günü, 26 iyun Silahlı Qüvvələr Günü, Qurban bayramı ilə əlaqədar keçirilmiş tədbirlər, mükafatlandırmalar, Məzun günü, 15 sentyabr Bilik Günü, Dövlət Müstəqilliyi Günü, 8 Noyabr Zəfər Günü, Bilik yarışları, İdman yarışları, Musiqi festivalı, Ulu Öndər Heydər Əliyevin Anım Günü ilə əlaqədar tədbirlər, müharibədə iştirak etmiş həmkarların ailələri ilə görüşlər təşkil edilir.

**5.2.8.Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti**

Qeyri-akademik heyətə (inzibati, texniki və köməkçi işçilər) işə qəbulun təmin olunması işinin şəffaf icra edilməsi məqsədi ilə müraciət edənlərin işə qəbulu prosesi vətəndaşların e-mail (hr@beu.edu.az), poçt və öz ərizələri ilə müraciətlərinin daxil olması yolu ilə aparılır. Əmək qanunvericiliyinə, BMU-nun Nizamnaməsinə, təlimat və qaydalara, rektorun əmrlərinə müvafiq olaraq işçilərin qəbulu rəsmiləşdirilməsi həyata keçirilir. Həmçinin, vakant yerlər barədə Abşeron – Xızı Regional məşğulluq şöbəsinə müvafiq qaydada məlumatlar verilir.

**5.2.9.Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti**

Bakı Mühəndislik Universitetinin İntizam Komissiyası və aidiyyəti struktur bölmələrin tabe olduğu rəhbər şəxslər tərəfindən mütəmadi olaraq qeyri-akademik heyətin fəaliyyəti ilə bağlı təhlil işləri aparılır və işçilərin fəaliyyəti qiymətləndirilir.

**5.2.10. Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

Bakı Mühəndislik Universitetinin İnsan resursları şöbəsi Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərar və sərəncamlarını, Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair təlimatı, Azərbaycan Respublikasının müfaviq qanunlarını və normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Əsasnaməsini və Kollegiyasının qərarlarını, Azərbaycan Respublikası Elm və Təhsil nazirinin əmr və sərəncamlarını, BMU-nun Nizamnaməsini və onun fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktları, eyni zamanda şöbənin əsasnaməsini rəhbər tutaraq rektorun əmrlərinə müvafiq olaraq işçilərin işə qəbulu, başqa vəzifəyə keçirilməsi və işdən azad edilməsi proseslərini rəsmiləşdirməklə həyata keçirir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

5.3. Maliyyə resurslarının idarə edilməsi

**5.3.1. ATM-in maliyyə reurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

Bakı Mühəndislik Universiteti maliyyə resurslarının daxilolma mənbələrini nizamnaməyə uyğun təşkil edir. Dövlət büdcəsindən maliyyələşən tələbələrin təhsilhaqqı “Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli 120 nömrəli Qərarına əsasən hər bir təhsilalana düşən illik təhsil xərcinə uyğun hesablanır.

Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarına əsasən dövlət sifarişi və aşağıda qeyd olunan kateqoriyalara uyğun olan tələbələrin təhsilhaqqı Dövlət büdcəsi hesabına ödənilir.

I. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” 22 iyun 1999-cu il tarixli 693-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (maddə 5) və “Təhsil haqqında ” 19 iyun 2009-cu il tarixli 833-IIIQ Azərbaycan Respublikasının Qanununa əsasən Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər 23 yaşınadək illik təhsil haqqı ödənişindən azad edilirlər.

II. “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 14 sentyabr 2011-ci il tarixli Sərəncamına əsasən məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları illik təhsil haqqı ödənişindən azad edilirlər.

III. “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 18 mart 2014-cü il tarixli Sərəncamına əsasən 2014/2015-ci tədris ilindən etibarən Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların övladları, həmçinin Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların övladları təhsil alan övladları illik təhsil haqqı ödənişindən azad edilirlər.

IV. “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 3 may 2019-cu il tarixli Sərəncamına əsasən bu kateqoriyalardan olan şəxslər illik təhsil haqqı ödənişindən azad edilirlər.

Ödənişli təhsil qəbul planı verilərkən hər ixtisas üzrə təhsil haqqı müəyyən olunur.

Akademik borc üzrə hesablamada hər bir kredit üzrə təhsil haqqı, illik təhsil haqqı semestr üzrə nəzərdə tutulan kreditə bölməklə hesablanır.

Universitet müxtəlif qrant layihələrində iştirak edir və bu da qarşılıqlı müqaviləyə əsasən nizamlanır.

**5.3.2.Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi**

Universitetin maliyyə resurslarının planlaşdırılması strateji inkişaf planının müddəaları əsas götürülməklə həyata keçirilir. Universitetin maliyyə dayanaqlılığının təmin edilməsi məqsədilə müvafiq dövrlər ərzində gəlirlərin proqnozlaşdırılması, eyni zamanda müxtəlif gəlir mənbələri üzrə daxilolmaların gəlirlərin tərkibində xüsusi çəkisinin təhlili, həmin gəlirlərin universitetin fəaliyyətinin təşkili və inkişaf dinamikasının artımını təmin edəcək şəkildə aidiyyəti üzrə xərc istiqamətlərinə yönləndirilməsi kimi əhəmiyyətli məsələlər maliyyə resurslarının planlaşdırılması prosedurlarının mühim tərkib hissəsidir. Bakı Mühəndislik Universitetində hər il üçün büdcə tərtib olunarkən daxil olan illik maliyyə resursları nəzərə alınır.

**5.3.3.Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti**

Universitetin maliyyə resurslarının planlaşdırılması, maliyyə resurslarının strateji inkişaf planına uyğunluğunun təmin edilməsi, istifadəsi, gəlir və xərclərinin proqnozlaşdırılaraq büdcəsinin tərtib edilməsi, gəlir və xərclərin icrası, icra edilmiş gəlir və xərclər üzrə maliyyə və mühasibatlıq hesabatlarının tərtib edilməsi, həmçinin, müvafiq hesabatlarda qeyd edilmiş göstəricilərin və maliyyə resurslarından istifadənin təhlili, eləcə də maliyyə resurslarına nəzarətin və monitorinqin təşkil edilməsi əsas prinsipləridir. Qeyd olunanlar nəzərə alınmaqla maliyyə resurslarının cəlb edilməsi və istifadəsi ilə bağlı hər il illik büdcə smetası tərtib olunur və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonar icra olunur. Gəlir və xərclərin icrasına cari nəzarət isə Universitetin Himayəçilər Şurasının birbaşa tabeçiliyində olan Daxili Audit Şöbəsinin səlahiyyətlərinə aiddir.

**5.3.4. Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti**

Bakı Mühəndislik Universiteti bir sıra qrantlarda iştirak edir. Amma gəlir əsasən təhsil haqqından formalaşır, şəffaf və keyfiyyətli təhsilin təşkili nəticəsində tələbələrin sayının artırılması Universitetin maliyyə resurslarının cəlb olunmasına təkan verir.

**5.3.5. Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi**

Əldə olunan maliyyə resurslarının il ərzində təsdiq olunmuş smetaya uyğun icrası şəffaf şəkildə təmin olunur və nəzarəti Universitetin Himayəçilər Şurasının birbaşa tabeçiliyində olan Daxili Audit Şöbəsi həyata keçirir.

**5.3.6. Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu**

Maliyyə resursları Bakı Mühəndislik Universitetinin nizamnaməsinə uyğun, tədris və elmi işlərin təşkil olunmasına sərf olunur.

**5.3.7.Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu**

Hər il dekabr ayında növbəti təqvim ilinin gəlir və xərclər smetası aidiyyəti şəxslərlə müzakirə olunur və razılaşdırma üçün yanvar ayında təsdiq olunaraq (razılaşdırılmaq üçün) Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim olunur. Elm və Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonar təsdiq olunmuş smetanın bir nüsxəsi banka təqdim olunur. Smeta Universitetin qüvvədə olan Nizamnaməsinə uyğun olaraq tərtib olunur.

**5.3.8. Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi**

Universitetin hər il üçün büdcəsi tərtib edilərkən müvafiq il ərzində nəzərdə tutulan xərc istiqamətləri strateji inkişaf planınına uyğun şəkildə müəyyənləşdirilir. Maliyyə resurslarının təyinatı üzrə istifadəsi mövcud qanunvericiliyə uyğun olaraq hər bir xərc istiqamətinin aid olduğu iqtisadi təsnifat üzrə təsnifləşdirildikdən sonra icra edilməklə həyata keçirilir. Hesabat dövrü üzrə sərf edilmiş vəsaitlərin təyinatı ilə istifadə edilməsinə cari nəzarət müvafiq hesabatlar formasında təşkil edilir. Tərtib edilmiş maliyyə və mühasibatlıq hesabatları aidiyyəti üzrə mərkəzi icra hakimiyyəti orqanına təqdim edilərək təsdiqlənməsi həyata keçirilir.

**5.3.9. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Malların alınması, işlərin görülməsi və xidmətlərin həyata keçirilməsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunun tələblərinə uyğun olaraq satınalma proseduruna uğun təşkil olunur. Bakı Mühəndislik Universitetində satınalma proseduru daha çox iki üsul ilə aparılır Açıq tender və Kotirovka üsulu ilə. Kotirovka və Açıq tender proseduru Bakı Mühəndislik Universiteti rektorunun əmri ilə yaradılan tender komissiyası tərəfindən həyata keçirilir. Satınalma Şöbəsi tərəfindən tender elanı verilməsi üçün ilkin olaraq ən azı 3 şirkətə qiymət təklifi üçün sorğu göndərilir. Alınan qiymətlər əsasında işlərin, xidmətlərin və malların ehtimal olunan orta bazar dəyəri müəyyən olıunur. Sonra isə tender komissiyası tərəfindən açıq tender protokolu tərtib edilir, bütün komissiya üzvləri tərəfindən imzalandıqdan sonar tenderin şərtlər toplusu hazırlanır və etender.gov.az elektron portalında elan verilir.

Müvafiq satınalma proseslərindən sonra tenderdə iştirak etmiş şirkətlərin təklifləri tender komissiyası tərəfindən qiymətləndirilir və şərtlər toplusunda qeyd olunan tələblərə uyğun olan şirkət qalib seçilir. Açıq tender prosedurunun yekun protokolu Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Dövlət Nəzarət Xidmətinə göndərilir. ARİNAİBDNX tərəfindən qanunvericiliklə müəyyən olunmuş vaxtda məsələyə baxılır və Azərbaycan Respublikası Dövlət Satınalmaları haqqında qanuna əsasən müqavilə baglanması ilə bağlı məktub göndərilir. Qalib seçilən təşkilat ilə müqavilə bağlanıldıqdan sonra etender.gov.az portalına yerləşdirilir.

**5.3.10.Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə əməliyyatlar qanunvericiliyə uyğun hesabatı aparılır.

**5.3.11.Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

Maliyyə və mühasibat hesabatları nəzərdə tutulan qrafik üzrə aylıq, rüblük və illik təqdim olunaraq aidiyyatı üzrə qurumlara elektron formada təqdim edilir.

**5.3.12.Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

Maliyyə və mühasibat hesabatlarının aidiyyatı orqanlara tələb olunan qaydada təqdim olunur.

**5.3.13.Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

Maliyyə resurslarının əldə olunması və istifadəsi üçün daxili audit nəzarəti Universitetin Himayəçilər Şurasının birbaşa tabeçiliyində olan Daxili Audit Şöbəsi tərəfindən həyata keçirilir.

**5.3.14.Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu**

Universitetin maliyyə resurslarının əldə olunmasına və istifadəsinə cari nəzarət Universitetin Himayəçilər Şurasının birbaşa tabeçiliyində olan Daxili Audit Şöbəsinin səlahiyyətlərinə aiddir. Audit yoxlamasının həyata keçirilməsi üçün tələb olunan zəruri sənəd və hesabatlar universitetin müvafiq struktur bölmələri tətəfindən hazırlanaraq mütəmadi olaraq Audit Şöbəsinə təqdim edilir.

**5.3.15.Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti**

Maliyyə resursları əsasən tələbələrin təhsil haqqı hesabına formalaşır. Universitetdə tələbə sayının artırılması ilə əlaqədar, tədrsin keyfiyyətinin yüksəlməsi üçün professor-müəllim heyətinin əməkhaqqlarının artırılması və Universitetin maddi və texniki bazanın formalaşdırılması istiqamətində işlər həyata keçirilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

5.4. İnformasiya idarəetmə sistemi

**5.4.1. ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu**

Bakı Mühəndislik Universitetində İİS-dən idarəetmə proseslərinin elektronlaşdırılması məqsədi ilə geniş istifadə edilir. 2017-ci ildən Elektron Universitet (https://pms.beu.edu.az/index.php) layihəsi uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır.

Bunlardan əlavə, pandemiya dövründə onlayn dərslərin təşkili MS Teams proqramı üzərindən aparılmış və imtahan sessiyalarının keçirilməsi üçün BMU tərəfindən yaradılmış onlayn imtahan sistemi uğurla tətbiq edilmişdir.

**5.4.2.İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti**

BMU-da İnformasiya idarəetmə sistemi elektron tədrisin təşkilini əhatə edir, funksional imkanları çox genişdir. Sistem üzərində olacaq dəyişikliklərə açıqdır. Universitetin rəhbər strukturlarının qərarları və digər qərarların nəticəsi daim olaraq sistemə tətbiq edilir. Sistemlərin qarşılıqlı əlaqələndirilməsi işinin daha da təkmilləşdirilməsi, müxtəlif təyinatlı server kompüterlərin sazlanması, onların proqram və texniki təminatının və bölmələr üzrə elektron bazaların daimi yenilənməsi və müşayiəti məqsədi ilə işlər davam etdirilir.

**5.4.3. İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu**

BMU-da İnformasiya idarəetmə sistemində alt sistem olan inzibatçılıq sistemi mövcuddur. Bu alt sistem vasitəsilə səlahiyyət bölgüsü strukturlar və vəzifələr üzrə təmin edilir. İİS-dən istifadə zamanı yarana biləcək problemlərin dərhal və yerində həll olunması məqsədi ilə ixtisaslı mütəxəssislər ayrılmış, universitetin bir-birindən uzaq məsafədə yerləşən binalarının internetlə normal təmin olunması məqsədi ilə yaradılmış optik intranet şəbəkədə informasiya mübadiləsinin fasiləsiz və düzgün aparılması məqsədi ilə elektron sistem üzrə məsul şəxs təyin edilmişdir.

**5.4.4. Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti**

Bakı Mühəndislik Universitetində 2017-ci ildən Elektron Universitet (https://pms.beu.edu.az/index.php) layihəsi uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır.

**5.4.5. İnformasiya idarəetmə sisteminə əlçatanlıq və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi**

Universitetdə İnformasiya idarəetmə sistemi qlobal şəbəkəyə açıqdır. Bununla da tələbələr həm universitet ərazisində, həm də digər yerlərdən hər an sistemə daxil ola bilir. İstifadə səviyyəsi isə yüksəkdir. Tələbə sistem vasitəsilə dərs qeydiyyatı edir, qiymətlərinə və elektron jurnala baxa bilir, kitabxanadan kitab sifariş edə bilir, onlayn olaraq arayış və digər sənədləri sifariş edə bilir, universitet tərəfindən təşkil edilən anket sorğularında iştirak edə bilir, rəhbərlik tərəfindən yazılmış elanlara baxa bilir və s. bu tipli fəaliyyətlər həyata keçirir.

**5.4.6.İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi**

Bunun üçün universitetdə anketlər modulu yerləşdirilmişdir. Modul vasitəsilə tələbələr və habelə işçilər də anketdə iştirak edərək sorğuları cavablandırır. Bununla da universitetdə göstərilən iradlar və təkliflər araşdırılır və həll edilir. Universitetdə sənədlər modulu mövcuddur. İşçilər öz şəxsi kabinetlərinə daxil olaraq hüquqi sənədləri və formaları yükləyib istifadə edə bilərlər. Bütün bu sadalananlar universitetdə keyfiyyətə töhfə verir, tədrisin təşkilində, həm də inzabati idarəetmə strukturlarının işinin təşkilində mühüm rolu vardır və universitetin idarəolunmasında mühüm rol oynayır

**5.4.7.İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi**

Universitetin informasiya idarəetmə sistemində ATİS ilə inteqrasiya mövcuddur. Belə ki, ATİS-ə daxil olunan məlumatlara əlçatanlıq sistem tərəfindən avtomatik olaraq təmin edilir. Daim yeni məlumatlar üçün sistemdə hesabatlar hazırlanır. Bundan başqa sistemdə tələbələrin təhsil haqqı, akademik borc və yataqxana borclarını ödəməsi üçün onlayn ödəniş imkanı mövcuddur və Kapital bank tərəfdaşlığı ilə həyata keçirilir. Tələbə ödəniş etdiyi anda avtomatik olaraq sistemdən müvafiq borc silinir.

**5.4.8.İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti**

Hazırda BMU-nun İnformasiya İdarəetmə sistemlərinin təhlükəsizliyinin qorunması, informasiyaların məxfiliyinin və etibarlılığının təmin olunmasını qənaətbəxş hesab etmək

olar. Belə ki, təhlükəsizlik üzrə proqramlaşdırma tərəfindən kodların yazılışında bütün təhlükəsizlik qaydlarına əməl edilməklə həssas məlumatlar sistemdə şifrələnmiş şəkildə saxlanılır. Universitetin İnformasiya hesabalama mərkəzi tərəfindən məlumatların nüsxəsi mütəmadi olaraq əldə olunur və saxlanılır. Eyni zamanda, Universitetin İnformasia İdarəetmə sistemi üçün SSL sertifikatları təmin edilmişdir ki, bu da informasiyanın qorunması üçün təhlükəsizlik tədbiridir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

5.5. İctimaiyyətlə əlaqələr

**5.5.1. ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti**

Universitetin yeni internet saytı Azərbayan və ingilis dillərində aktiv fəaliyyət göstərir. Saytın proqram təminatı sistemi müvafiq dövlət qurumlarının müəyyən etdiyi elektron təhlükəsizlik meyarlarına uyğun olaraq yaradılıb.

**5.5.2. ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti**

Saytın dizaynı modern üsluba uyğun olaraq hazırlanıb, eyni zamanda saytın yüksək texniki imkanları, geniş funksionallığı var. Universitetin idarəetmə strukturuna daxil olan sahələrin fəaliyyətləri ilə bağlı məlumatlar daha dolğun, əlçatan şəkildə sayta yerləşdirilib. Ali təhsil ocağının fəaliyyətində şəffaflığın daha da təmin edilməsi, vətəndaş məmnunluğuna nail olmaq məqsədilə saytda rektorla əlaqə, Personal Məlumat Sistemi, Tələbə Məlumat Sistemi kimi yeni bölmələr də fəaliyyət göstərir.

**5.5.3. ATM-in ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti**

İctimaiyyətlə əlaqələrin digər istiqaməti kimi yeni dövrün tələblərinə uyğun olaraq sosial şəbəkələrlə iş intensivləşdirilib. Universitetin feysbuk, tviter, instaqram, yutub səhifələrində istifadəçilərin və izləyicilərin sayının artırılması, nəticə etibarilə həyata keçirilən işlərin daha geniş auditoriyaya çatdırılması üçün addımlar atılıb. Son bir ildə feysbuk səhifəsini ziyarət edənlərin sayında 43,9 faiz, bəyənənlərin sayında 67 faiz, həmçinin tviter üzrə 19,5 faiz, instaqram üzrə 52 faiz, yutub üzrə isə 11,3 faiz artım qeydə alınıb. Bununla yanaşı, yeni teloqram kanalı yaradılıb.

Universitetdə BMU TV fəaliyyət göstərir. TV universitetdə təşkil olunan sosial-mədəni tədbirlərdən xəbərlərin hazırlanması ilə yanaşı, yeni ixtisasların tanıtım videolarının, yüksək nəticələrə malik tələbələrdən müsahibələrin təşkili, reklam videolarının hazırlanması işini həyata keçirir.

İctimaiyyətlə əlaqələrin başqa bir mühüm istiqaməti kimi, media orqanarı ilə əlaqələr də yeni müstəvidə qurulub, müvafiq KİV-lərlə əməkdaşlıq yaradılıb. Ölkə miqyasında tanınmış və böyük oxucu auditoriyasına malik 5 media orqanı ilə əməkdaşlıq müqaviləsi imzalanıb.
Şöbə universitetin tanıdılması üçün ümumi orta təhsil məktəbləri, lisey və gimnaziyalarla əlaqələrin qurulması, valideynlərin, şagirdlərin universitetlərə ekskursiyalarının təşkili istiqamətində də müvafiq tədbirlər həyata keçirir. Son bir ildə məktəblilərin universitetlə tanışlığı çərçivəsində 500-dən artıq şagirdin BMU-da ekskursiyası təşkil olunub.

**5.5.4.ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti**

Son illər universitetin ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətinin yenidən təşkili ilə bağlı mühüm tədbirlər həyata keçirilib. Universitetin Mətbuat xidmətinin bazasında İctimaiyyətlə əlaqələr şöbəsi yaradılıb. Şöbə rəhbərliyin təsdiq etdiyi fəaliyyət planına uyğun olaraq fəaliyyət göstərir.

**5.5.5. ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti**

Universitetin sosial şəbəkələrdəki hesablarında maraqlı tərəflərin birbaşa və məhdudiyyətsiz müraciət etmək, müzakirə aparmaq, rəy və təkliflər vermək, rəhbərliyə birbaşa müraciət etmək imkanları yaradılıb. Əməkdaşlıq etdiyimiz KİV-lərlə bu istiqamətdə sistematik müzakirələr aparılır.

**5.5.6.ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti**

ATM-in məlumatlandırma fəaliyyəti ilə bağlı ildə bir dəfə müvafiq prorektorluq tərəfindən İctimaiyyətlə əlaqə şöbəsi ilə birgə əsaslı təhlillər aparılaraq universitetin Elmi Şurası qarşısında hesabat verilir. Mütəmadi olaraq, müvafiq struktur bölmələrdən, KİV və ictimaiyyət nümayəndələrindən, abituriyent, tələbə və valideynlərdən daxil olmuş rəy və təkliflər əsasında mütəxəssislərlə birgə təhlillər aparılır, zəruri təkmilləşdirilmə işləri həyata keçirilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 6. İNFRASTRUKTUR

6.1. Tədris infrastrukturu

**6.1.1.Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetinin maddi texniki bazası dövlət standartlarına tam uyğundur. Universitetin ərazisi 20 hektar olmaqla tədris binaları və yataqxanalar və digər texniki yardımçı binalar olmaqla nizamlı şəkildə inşa edilmişdir. Həmçinin, təhsilalanların zəruri hallarda idmanla məşğuliyyətinin təmin olunması üçün universitetin həyətyanı sahəsində suni ot örtüklü idman meydançası və digər idman növləri üzrə meydançalar vardır. Son illər Universitetin maddi texniki bazasının daha da yaxşılaşdırılması istiqamətində xeyli işlər görülməkdədir. Belə ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə 2018-ci ildən yeni 5 mərtəbəli tədris binasının inşasına başlanılmış və hazırda tam hazır vəziyyətə gətirilərək universitet əməkdaşlarının və təhsialanların istifadəsinə verilmişdir. Eyni zamanda, yeni tikilmiş bina yeni zəruri avadanlıq və mebellə təchiz edilmişdir.

**6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti**

Hazırda Bakı Mühəndislik Universitetinin kitabxana fondunda 110360 ədəd kitab mövcuddur. O cümlədən, kitabxana fondunda müxtəlif xarici dillərdə elmi ədəbiyyatın, dərslik və dərs vəsaitlərinin sayı 5850 ədəddir. Onlardan 3379 ədədi Azərbaycan dilində, 1849 ədədi ingilis dilində, 151 ədədi türk dilində, 57 ədədi ərəb dilində, 47 ədədi rus dilində, 36 ədədi fransız dilində, 180 ədədi alman dilində, 151 ədədi digər dillərdə olan ədəbiyyatdır. BMU kitabxanasında 2018-ci ilin əvvəlində ümumilikdə 106807 ədəd kitab mövcud olmuşdur. O cümlədən, xarici dillərdə həmin tarixdə 1471 ədəd kitab mövcud olmuşdur. 2018-cı ildə 6 ədəd, 2019-cu ildə ildə 327 ədəd, 2020-ci ildə ildə 316 ədəd, 2021-ci ildə ildə 270 ədəd, 2022-ci ildə ildə 206 ədəd Azərbaycan dilində və xarici dillərdə kitab

alınmışdır. Eyni zamanda, BMU-nun Elmi Kitabxanasında əməkdaşların və təhsilalanların sərbəst formada istifadəsi üçün zəruri şərait yaradılmışdır.

**6.1.3. Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti**

Universitetdə təchiz olunmuş tədris laboratoriyaları, akt zalı, təhsilalan və təhsilverənlər ücün mebel avadanlığı, informasiya-kommunikasiya texnologiyaları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitləri, təlimin texniki vəsaitləri, dərslik və elmi-bədii ədəbiyyat fondu mövcuddur.

**6.1.4. Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetində Elmi-tədqiqat işlərinin aparılmasında istifadə edilən avadanlıq və cihazların maddi texniki təminatı daim diqqət mərkəzində saxlanılır. Universitet üzrə 42 ədəd ümumi sahəsi 3332 kv.m. olan müasir avadanlıq və kompüterlərlə təchiz olunmuş tədris və elmi-tədqiqat işlərinin aparılması üçün yararlı laboratoriyalar mövcuddur.

**6.1.5.İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universiteti istehsalat-təcrübə bazası yoxdur. Universitetin kimya mühəndisliyi, mexanika mühəndisliyi, robototexnika, İT və s. təcrübə laboratoriyaları vardır. Bakalavr buraxılış kurs tələbələrinin istehsalat təcrübəsinin təşkili ilə əlaqədar müvafiq ixtisaslar üçün baza müəssisələrin müəyyənləşməsi istiqamətində işlər aparılır. Bununla əlaqədar, müəssisələrlə uzun müddətə (əsasən 3 illik) müqavilələr bağlanılır. Bəzi müəssisələrlə uzun illərdir əməkdaşlıq etməyimizə baxmayaraq müəssisələr müqavilələri hər tədris ili üçün bağlayırlar. Baza müəssisələrə misal olaraq aşağıdakı müəssisələri qeyd etmək olar:

Aztelekom MMC, Selnet MMC, Sinam MMC, Code Academy, Unicer Qrup, Kapital Bank ASC, Azərtürkbank ASC, Yapıkredibank ASC, A.R. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Bank of Baku, Azintelekom MMC, A.R. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, SOCAR-ın müəssisələri, Veysəloğlu Şirkətlər Qrupu, Ram LTD, Hilton Hotel, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Aqrar Sığorta Fondu, STP Global Cable Zavodu, SOCAR-STP MMC, Abşeron Logistika Mərkəzi, Abşeron Rayon İcra Hakimiyyəti, İntertek MMC, Azərbaycan Supermarket MMC, Azərsu ASC-nin müəssisələri, Evrascon QSC, Azərsun Holding, A.R. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərtexnolayn MMC, Norm ASC və s.

**6.1.6. ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti**

Pandemiya dövründə universitet üzrə distant təhsil təşkil olunub. Hazırda distant təhsilə ehtiyac olmadığı üçün dərslər ənənəvi şəkildə təşkil olunur.

**6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti**

Hazırda BMU-da 7 minik, 2 sərnişindaşıma və 1 yük maşını fəaliyyət göstərir. Eyni zamanda, Universitetin əməkdaşlarının və təhsilalanların gediş-gəlişini təmin etmək üçün BMU rəhbərliyinin təşəbbüsü ilə 2 xət üzrə hərəkət edən iri tutumlu ictimai nəqliyyat təşkil edilmiş və həmin marşrutların son dayanacağı universitetin ümumi giriş hissəsinin yaxınlığıdır.

**6.1.8. Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti**

BMU-nun tələbələrinin hər bir tədris binasında yerləşən kitabxanalar, laboratoriyalar, tədris-təcrübə bazalarından və s. infrastrukturundan istifadə etmələri üçün şərait yaradılmışdır.

**6.1.9. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetində əlilliyi olan tələbələr üçün bütün imkanlar səfərbər edilmiş, əsas tədris binasına və digər iki tədris binalarına əlil arabaları ilə maneəsiz girişi üçün ən zəruri şərait yaradılmışdır. Eyni zamanda, universitetimiz bu sahədə yerli və dünya təcrübəsindən geniş istifadə edir.

**6.1.10. Yeməkxanaların mövcudluğu vəziyyəti**

Hazırda, BMU-nun əsas tədris binasında ümumi sahəsi 552 kv. metr olan yeməkxana, digər tədris binalarının hər birində isə bütün zəruri avadanlıqlarla təchiz edilmiş 5 bufet fəaliyyət göstərir. Yeməkxanaların fəaliyyəti sanitar-gigiyena qaydalarına və dövlət standarlarına tam uyğundur.

**6.1.11. Yataqxanaların mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetində qızlar üçün 166 nəfərin, oğlanlar üçün isə 128 nəfərin qala biləcəyi müasir tələblərə uyğun 2 yataqxana mövcuddur. Tələbələr yataqxanalarda 1 otaqda 2-4 nəfərlik olmaqla yerləşdirilmiş və bütün lazımi şəraitlə təmin olunmuşdurlar.

**6.1.12. Tibbi xidmətin mövcudluğu vəziyyəti**

BMU-da tibbi xidmətin təşkili məqsədi ilə 2 otaqlı tibb otağı ayrılmış və burada universitetin ştat cədvəlinə daxil edilmiş bir ştat vahidi həkim xidmət göstərir. Həmçinin, tibb məntəqəsi əməkdaşlara və təhsilalanlara ilkin tibbi yardımın göstərilməsi üçün zəruri inventar və avadanlıqlarla təchiz olunmuş, bununla yanaşı mütəmadi olaraq ilkin tibbi yardım üçün dərman və sarğı ləvazimatları ilə təmin olunur.

Universitetdə tibbi xidmətin müvafiq ərazi üzrə Səhiyyə təşkilatı ilə ikili tabeçilik prinsipi əsasında yenidən təşkil olunması üçün aidiyyəti qurmlara müraciət olunmuş, lakin bu məsələnin həlli ilə bağlı hələ ki, müsbət nəticə əldə edilməmişdir.

**6.1.13. İT xidmətinin mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetində İİS-dən idarəetmə proseslərinin elektronlaşdırılması məqsədi ilə geniş istifadə edilir. 2017-ci ildən Elektron Universitet (https://pms.beu.edu.az/index.php) layihəsi uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır.

Bunlardan əlavə, pandemiya dövründə onlayn dərslərin təşkili MS Teams proqramı üzərindən aparılmış və imtahan sessiyalarının keçirilməsi üçün BMU tərəfindən yaradılmış onlayn imtahan sistemi uğurla tətbiq edilmişdir.

**6.1.14. Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti**

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-17 nömrəli 16 iyul 2013-cü il tarixli Qərarı ilə təsdiq edilmiş “Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydaları”na uyğun olaraq Bakı Mühəndislik Universitetində aktivlərin və öhdəliklərin inventarizasiyası həyata keçirilir. Mövcud qaydalara uyğun olaraq müəyyənləşdirilmiş tələblər və müddətlər nəzərə alınaraq rəsmiləşdirilməklə inventarizasiyanın həyata keçirilməsi ilə bağlı tədbirlər görülür. İnventarizasiyanın yekun nəticəsi barədə cari ilin sonunadək Elm və Təhsil Nazirliyinə məlumat verilir. Universitetin maddi-texniki bazası mütəmadi araşdırılır və tədris prosesinə uyğun təkmilləşdirilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

6.2. Elmi-tədqiqat infrastrukturu

**6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyət**

Bakı Mühəndislik Universitetində Elm və innovasiya şöbəsi yaradılmışdır. Eyni zamanda, gələcəkdə universitetdə innovasiya istiqamətində bir neçə mərkəzin yaradılması da nəzərədə tutulur.

**6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti**

BMU-nun tədris laboratoriya bazası müasir standartlara uyğun olaraq qurulmuş və bu istiqamətdə xeyli işlər görülmüşdür. Məsələn, tədrisin yüksək səviyyədə aparılması üçün labaratoriyalar, zəngin kitabxanamızda dünyanın aparıcı universitetlərində tədris olunan dərsliklər, autoriyalarda istifadə edilən ağıllı lövhələr və proyektorlar mövcuddur. Ali təhsil müəssisəsi elmi-tədqiqat laboratoriyası haqqında Əsasnamənin (AR NK-nin 06.11.1995-ci il tarixli 242 nömrəli qərarı ilə təsdiq olunmuşdur) tələblərinə uyğun olaraq fəaliyyət göstərən laboratoriyalar tələbələrin praktik-təcrübi işlərin yerinə yetirliməsi üçün nəzərdə tutulmuş, eyni zamanda treyninq-seminarların və müxtəlif sahələrə uyğun tədqiqatların həyata keçirilməsinə uyğun formatda dizayn olunmuşdur. Laboratoriyalarımız müasir avadanlıq və təcrübə komplektləri ilə təchiz olunmuş, xüsusi işıqlandırılma, mərkəzi elektrik təchizatı sistemi, rəflərin dizaynı və komplektlərin yerləşməsi praktiki məşğələlərin səmərəliliyini təmin edir. Kimya, biologiya, fizika, informatika, sinxron tərcümə və s. laboratoriyalarında olan cihazlar, maddələr və dərsin təşkili üçün lazım olan hər bir vəsait tələbələrin sayına uyğun olaraq onların rahat, sərbəst və yetərli imkanlarla dərslərdə iştirak etməsinə şərait yaradır:İnformasiya Kommunikasiya Texnologiyaları Elmi Tədqiqat Laboratoriyası (İKTETL) 2016-cı ildən Bakı Mühəndislik Universitetinin Kompüter mühəndisliyi və İnformasiya texnologiyaları kafedrasının nəzdnində fəaliyyət göstərməkdədir. Laboratoriya, əsasən Bakı Mühəndislik Universitetində olan potensialı istifadə edərək və inkişaf etdirərək İKT sahəsində qabaqcıl yenilikləri Azərbaycanda tətbiq etmək və həmçinin tədqiqata meylli olan tələbələrə dəstək məqsədilə yaradılmışdır. İKTETL-nın iş prinsipi İKT sahəsində – elektronika və robot texnologiyaları mövzularında elmi araşdırmalar aparmaqdır. İKTETL-nın üstünlük verdiyi sahələrdən biri də Robot Texnologiyası və Süni İntellektdir. Bu sahənin inkişafı üçün Laboratoriyada “Robotics & Süni İntellekt” elmi tədqiqat qrupları yaradılmışdır. İKT Laboratoriyasının tədqiqat apardığı digər sahələr isə böyük həcmli vərilənlərin idarə edilməsi, verilənlərin emailı, elektron idarəetmə və s. İKT yönümlü sahələrdir. Həmçinin, İKTETL mütəxəssislər və geniş auditoriya üçün nəzərdə tutulmuş milli və beynəlxalq səviyyədə elmi tədbirlər (yığıncaqlar, konfranslar, simpoziumlar, müsabiqələr, seminarlar, kurslar və sərgilər) həyata keçirir və davamlı olaraq bu növ tədbirlərdə iştirak edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

7.1. Beynəlmiləlləşmə siyasəti

**7.1.1. ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti**

Ali təhsil sisteminin beynəlmiləlləşməyə başladığı dövrdə Bakı Mühəndislik Universiteti beynəlxalq standart və meyarlara uyğun tədris proqramları və metodları əsasında tədrisin təşkil olunmasına, rəqabətədavamlı məzun və kadr hazırlığının aparılmasına və təkmilləşdirilməsinə xüsusi önəm verir. BMU həm bakalavariat, həm magistratura, həm də doktorantura səviyyələrində təhsil alanlara beynəlxalq standartlara uyğun keyfiyyətli təhsil vermək, akademik və administrativ mobillik imkanlarını araşdırmaqla universitet əməkdaşlarının daimi inkişafı yollarını öyrənmək və yaymaq, beynəlxalq proqram və layihələrdə rəhbər və tərəfdaş qismində iştirak etmək, beynəlxalq standartlara uyğun kadr hazırlığı, tədris-metodiki vəsaitin təminatı və elmi-tədqiqat işləri sahəsində beynəlxalq əməkdaşlıq imkanları yaratmaqla beynəlxalq əlaqələrin inkişafını həyata keçirməkdir.

Bakı Mühəndislik Universitetində (BMU) son 5 ildə bir sıra işlər həyata keçirilmiş, o cümlədən Himayəçilər Şurasının 11 fevral 2020-ci il 4 saylı iclas protokolu ilə təsdiqlənmiş universitetin strateji inkişaf proqramı (SİP) təsdiqləndikdən sonra beynəlmilləşmə siyasətini müəyyən edən sənəd hazırlanıb təsdiqlənmişdir. Bu sənəd BMU-nun strateji inkişaf planında göstərilən hədəflərin hər birini dəstəkləyir və aşağıdakı yanaşmaları özündə ehtiva edir:

- BMU-nu beynəlxalq məkanda tanıtmaq, dünyanın və regionun nüfuzlu universitetləri, tədqiqat mərkəzləri və sənaye müəssisələri ilə əlaqələri genişləndirmək məqsədilə, xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrin sayını artırılması;
- BMU-da tədris və təlim metodlarından istifadənin genişləndirilməsi, beynəlxalq elm və təhsil məkanının imkanlarından yararlana bilən mühitin qurulması məqsədilə əcnəbi mütəxəssis və ekspertlərin tədris prosesinə cəlb edilməsi;
- Rəqabətədavamlı məzun və kadr hazırlığının beynəlxalq standartlara uyğun aparılması və təkmilləşdirilməsi üçün beynəlxalq mübadilə proqramlarında tələbələrin iştirak sayının artırılması;
- BMU-nun elm və innovasiya potensialının artırılması məqsədilə dünya bazarının tələblərini öyrənmək, tədqiqat aparmaq, tərəfdaşlarla bərabər birgə tədqiqat işlərini həyata keçirərək beynəlxalq elmi-tədqiqat gücünün artırılması;
- Beynəlxalq standartlara uyğun tədris mühitinin formalaşması üçün beynəlxalq əlaqələrin genişləndirilməsi və beynəlxalq proqramlara cəlb olunması məqsədilə xarici tərəfdaş universitetlər ilə birlikdə yay məktəblərinin təşkili və İkili diplom proqramların həyata keçirilməsi;
- Universitetin beynəlxalq arenada tanınması və əcnəbi tələbələrin cəlb olunması məqsədilə beynəlxalq təhsil sərgilərində iştirak;
- Beynəlxalq təcrübəyə əsaslanaraq, tədqiqat fəaliyyətlərinin təşkili, birgə tədris proqramlarının planlaşdırılması, akademik və inzibati heyətin beynəlxalq təlimlərdə iştirakı məqsədilə beynəlxalq mübadilə proqramlarında iştirak sayının artırılması;
- Beynəlxalq tədqiqat şəbəkələrinin gücləndirilməsi vasitəsilə tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi, xarici təcrübənin öyrənilməsi məqsədilə, beynəlxalq layihələrdə qrant qalibi və tərəfdaş kimi iştirak sayının artırılması.

Eyni zamanda, BMU-nun 11 fevral 2020-ci il tarixində təsdiqlənmiş strateji inkişaf proqramı universitetin beynəlmilləşmə siyasəti ilə tam üst-üstə düşərək bir çox məsələlərə yer vermişdir. Bunlar, akademik heyətin və tələbələrin xarici dil biliklərinin artırılması, beynəlxalq reytinq cədvəllərində yer tutması, 23 ixtisas üzrə ingilis dilində tam tədris həyata keçirilməsi, nüfuzlu universitet ilə ikili diplom proqramının həyata keçirilməsi kimi məsələlər öz əksini tapmışdır.

**7.1.2. Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti**

Universitetdə tələbə və müəllimlərin beynəlxalq proqramlarda fəal iştirakını təmin etmək, həmçinin, onların mövcud mexanizmlərdən istifadə etmələri üçün təşviqat və təbliğat işləri aparılır. BMU Avropa İttifaqının Erasmus+ KA1 Mübadilə Proqramı, Erasmus+ KA2 Ali Təhsildə Potensialın Gücləndirilməsi Layihələri, Tvinninq layihəsi, Yerli Qrant Layihələri, Alman Akademik Mübadilə Xidməti (DAAD), Fulbright kimi beynəlxalq proqramların təqdim etdiyi imkanlardan yararlanır, bu proqramlar çərçivəsində xarici universitetlərlə əməkdaşlıq edir və mübadilə həyata keçirir.

**7.1.3. Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti**

Əcnəbi vətəndaşların təhsilə cəlb olunması Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin prioritet istiqamətlərindən biridir. Ölkənin ali təhsil müəssisələri əcnəbi tələbələrin təhsilə cəlb olunmasında maraqlıdırlar. Bu səbəbdən, rəqabətədavamlı olmaq üçün BMU təhsilin bütün səviyyələri üzrə dünya standartlarına uyğun təhsil, tədqiqat və innovasiya sahəsində fundamental biliklərə, tədqiqat vərdişlərinə yiyələnmiş, milli və beynəlxalq əmək bazarında yüksək ixtisaslı məzun və kadr hazırlamasına əhəmiyyət verir.

2017-2022-ci illər üzrə BMU-ya 36 ölkədən 122 tələbə qəbul olmuşdur. Strateji inkişaf proqramının 4.7 bəndinə əsasən əcnəbi tələbələrin təmsil etdiyi ölkələrin sayı dinamikaya uyğundur.

Tədris illəri üzrə BMU-da təhsil alan əcnəbi tələbələrin sayı aşağıdakı kimidir:

- 2017/18-ci tədris ili – 121 nəfər
- 2018/19-ci tədris ili – 98 nəfər
- 2019/20-ci tədris ili – 84 nəfər
- 2020/21-ci tədris ili – 88 nəfər
- 2021/22-ci tədris ili – 92 nəfər
- 2022/23-cü tədris ili – 94 nəfər




2020-ci ildə əcnəbi tələbələrin BMU-ya daha çox qəbul olması üçün illik təhsil haqqında dəyişikliklərin edilməsi üçün Elmi Şuraya təkliflər verilmişdir. Qəbul edilmiş qərara görə yeni təhsil haqqı aşağıdakı kimidir: Dil hazırlıq kursu üçün illik 1000 ABŞ dolları, Bakalavr

təhsili üçün 1500 ABŞ dolları, Magistr təhsili üçün 1700 ABŞ dolları və Doktorantura təhsili üçün 2000 ABŞ dolları.

BMU-ya qəbul olan əcnəbi vətəndaşlar universitetin yataqxanasında qala bilərlər, həmçinin kirayə evlər və özəl hostellərdə yerləşdirilmələri üçün mütəmadi köməklik göstərilir.

**7.1.4. Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti**

Ali təhsil sisteminin beynəlmiləlləşməyə başladığı dövrdə Bakı Mühəndislik Universiteti beynəlxalq standart və meyarlara uyğun tədris proqramları və metodları əsasında tədrisin təşkil olunmasına, rəqabətədavamlı məzun və kadr hazırlığının aparılmasına və təkmilləşdirilməsinə xüsusi önəm verir.

Əcnəbi mütəxəssis, ekspert və professor-müəllim heyətinin tədris prosesinə və dünyanın aparıcı elmi tədqiqat mərkəzlərinin və əcnəbi mütəxəssis, ekspert və professor-müəllim heyətinin elmi-tədqiqata cəlb edilməsi BMU-nun beynəlmiləlləşmə strategiyasının məqsədlərindəndir.

**7.1.5. Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti**

BMU-nun bir çox akademik heyəti xarici universitetlərin professor-müəllim heyəti ilə birlikdə elmi tədqiqat işləri aparmışdır.

2021-ci ildə Bakı Mühəndislik Universiteti (BMU) Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tərəfdaşlığı və Polşanın Varşava Texnologiya Universitetinin koordinatorluğu ilə Avropa Birliyinin maliyyələşdirdiyi “Nəqliyyat xidmətləri üçün böhran və risklər mühəndisliyi (Crisis and Risks Engineering for Transport Services” ) Erasmus+ KA2 layihəsində iştirak etmişdir.

Layihə çərçivəsində Mühəndislik fakültəsinin nəzdində BMU-da CRENG laboratoriyası, həmçinin servis ofis üçün otaqlar və ofis avadanlıqları ayrılaraq quraşdırılmışdır. Magistrlərə nəqliyyat modelləşməsi ilə bağlı nəzərdə tutulmuş fənlərin keçilməsi üçün kompüterlərə ofis proqramları ilə yanaşı Matlab, Anylogic proqramları da yazılmışdır.

Bakı Mühəndislik Universitetinin (BMU) tərəfdaşı olduğu, Avropa İttifaqının maliyyələşdirdiyi və İsveçin Linkopinqs Universitetinin rəhbərliyi ilə icra olunan “Tərəfdaş universitetlərdə mobil tətbiqlərin və oyun dizaynı magistr proqramlarının hazırlanması (MAGnUS)” adlı Erasmus+ KA2 layihəsi çərçivəsində “Mobil Tətbiqlər və Oyun Dizaynı” ixtisası üçün laboratoriya təşkil edilmişdir. Fəaliyyətə başlayan laboratoriyanın yaradılmasında məqsəd universitetin informasiya texnologiyaları və yaxın fənlərin tədrisi ilə məşğul olan müəllimlərin, eləcə də BMU-da bu sahədə təhsil alan tələbələrin bilik və bacarıqlarının artırılmasıdır. Həmçinin sözügedən layihə çərçivəsində BMU tələbələrinə 20-24 iyul 2020-ci il tarixlərində onlayn yay məktəbi təşkil edilmişdir.

Bakı Mühəndislik Universiteti (BMU) 22.10.2020-cu il tarixində İtaliyanın Roma Sapienza Universiteti ilə Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən İnnovativ Təlim Mərkəzi (ITACA) adlı və “609758-EPP-1-2019-1-IT-EPPKA2-CBHE-JP” nömrəli Erasmus+ KA2 qrant layihəsi çərçivəsində tərəfdaşlıq müqaviləsi imzalamışdır.

BMU-nun Sənayə Mühəndisliyi kafedrasının elmi fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədi ilə Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən İnnovativ Təlim Mərkəzi (İTM) qurmaqdır. Layihənin icrası müddətində Bakı Mühəndislik Universiteti (BMU), sənaye və universitet

arasındakı əlaqələrin möhkəmlənməsinə töhfə vermək üçün Avropa İttifaqı (Aİ) ölkələrinin bəzi seçilmiş universitetlərin və yerli Azərbaycan qurumların, eləcə də ətraf mühitə təsir edən neft və qaz istehsalı sahəsində fəaliyyət göstərən müəssisələrin iştirakı ilə Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən İTM-in qurulmasında iştirak edir.

İTM-in fəaliyyəti zamanı sənaye ilə akademik qurumlar (ali təhsil və elmi-tədqiqat müəssisələri) arasında təşkil edilmiş əməkdaşlıq vasitəsilə magistraturadan sonrakı 3-cü dövr birillik təlim kursları hazırlanıb inkişaf edir. Onu da qeyd edək ki, hal-hazırda Azərbaycanın mövcud ali təhsil sistemində doktorantura proqramından fərqli olan magistraturadan sonrakı 3-cü dövr bir illik təlim-tədris proqramı mövcud deyil, halbuki bu cür proqramlar Aİ-nin ali təhsil müəssisələrində, xüsusilə ekologiya, ətraf mühit elmləri və mühəndislik sahəsində uzun illərdir mövcuddur.

Layihə çərçivəsində qurulan İTM, Aİ-nin universitetlərinin təcrübəsinə əsaslanaraq Azərbaycanın yerli ali təhsil sisteminin modernləşməsinə imkan verən innovativ tədris metodologiyası, elmi-tədqiqat işlərinin aparılması, proqramların hazırlanması ölkəmizdə tətbiq edilməsi nəticəsində təhsilin keyfiyyətinin artmasına da öz müsbət təsirini göstərir.

Qeyd olunanlarla yanaşı BMU-nun pedaqoji və inzibati vəzifələrdə çalışan bəzi əməkdaşları da Aİ-nin universitetlərinə müxtəlif vaxtlarda səfərlər edib onların ali təhsil sahəsindəki təcrübəsini öyrənərək, yeni tədris proqramlarının hazırlanması üçün lazım olan bütün pedaqoji materialların əldə olunması və birgə tədqiqat işlərinin aparılmasının tətbiqinə çalışırlar. Layihə çərçivəsində təhsilin keyfiyyətli təşkili, modernləşdirilməsinə, əlçatanlığına və beynəlxalqlaşdırılmasına nail olmaq üçün müxtəlif maarifləndirici tədbirlər keçirilir. Layihə çərçivəsində BMU üçün 57068 (əlli yeddi min altmış səkkiz) avroluq avadanlıqların alınması da nəzərdə tutulmuşdur. Layihə haqqında daha çox məlumat əldə etmək üçün fəaliyyət göstərən (https://www.itacaproject.eu/) internet saytından istifadə etmək olar.

**7.1.6. Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

2017-2022-ci illər ərzində Bakı Mühəndislik Universiteti 27 ölkədən 83 təhsil müəssisəsi ilə elm və təhsil sahəsində əməkdaşlıq müqaviləsi bağlamışdır.

Hal-hazırda 13 Avropa universiteti ilə Erasmus+KA1 mübadilə proqramı və 2 universitetlə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur.

2020-ci ildə BMU 6 xarici universitet ilə əməkdaşlıq müqavilələsi imzalayıb:

- Sankt-Peterburq Elektrotexniki Universiteti "LETI" (Rusiya)
- Dostoyevski Omsk dövlət universiteti (Rusiya)
- Xarkov Milli Radio-Elektron Universiteti (Ukrayna)
- Akaki Tseretelli Dövlət Universiteti (Gürcüstan)
- İnnovativ Avrasiya Universiteti (Qazaxstan)
- İnha Universiteti (Koreya)

2021-ci ildə BMU 5 xarici universitet ilə əməkdaşlıq müqaviləsi imzalayıb:

- Piteşti Universiteti (Rumıniya);
- Vitebsk Dövlət Texnologiya Universiteti (Belarusiya);
- Nəqliyyat və Telekomunikasiya Universiteti (Latviya);
- Şmalkalden Tətbiqi Elmlər Universiteti (Almaniya);
- Qingdao Texnoloji Universiteti (Çin).

2022-ci ildə BMU 8 xarici universitet ilə əməkdaşlıq müqaviləsi imzalayıb:

- Granada Universiteti (İspaniya);
- Milli Hanbat Universiteti (Cənubi Koreya);
- Vroslav Biznes Tətbiqi Elmlər Universiteti (Polşa)
- Tətbiqi Fizika Texniki Universiteti (Çex Respublikası);
- Seyfullin Universiteti (Qazaxıstan);
- Belarus Dövlət İnformatika və Radioelektronika Universiteti;
- Sivas Cumhuriyet Universiteti (Türkiyə);
- European Universiteti (Gürcüstan)

Bakı Mühəndsilik Universiteti dünyanın bir çox ölkəsindən olan tərəfdaşları ilə əlaqələri genişləndirir və inkişaf etdirir. Dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq etməklə yanaşı, həmçinin, BMU regional və beynəlxalq assosiasiyaları ilə əməkdaşlıq edir.

**7.1.7. İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

BMU-da son bir neçə ildə birgə təhsil proqramları istiqamətində bəzi işlər həyata keçirilib və ikili diplom proqramları çərçivəsində müqavilələr imzalanıb. Həmin proqramlar çərçivəsində müəyyən ixtisaslarda xarici universitetlərin tədris planları mənimsənilib.

2020-ci ildən etibarən BMU-nun bütün uyğun xarici tərəfdaşları ilə ikili diplom proqramlarının hazırlanması üçün danışıqlar Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi tərəfindən aparılır.

“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində 2020/2021-ci tədris ilindən Bakı Mühəndislik Universiteti ilə Cənubi Koreyanın **İnha Universiteti** arasında İkili Diplom Proqramının (İDP) icrasına başlanmışdır. İDP-nın təşkili və icrası üçün bir çox işlər və onlayn tədbirlər Koreyanın İnha Universitetinin əməkdaşları ilə birlikdə 4 ixtisasa (İnformasiya texnologiyaları, İnşaat mühəndisliyi, Elektrik mühəndisliyi və Elektronika mühəndisliyi) qəbul aparılmışdır. Sözügedən proqram çərçivəsində tələbələr 3 il BMU-da ingilis dilində, sonuncu kursun 1 ilini isə İnha Universitetində Koreya dilində davam edirlər.

2022-ci il qəbul qrupları üzrə hazırda ümumi 116 tələbə təhsil alır. Onların 2022-2023-cü il payız semestri üzrə əldə etdikləri nəticələrin statistik göstəricisi aşağıda sütun diaqramında qeyd olunmuşdur. Payız semestri nəticələrinə əsasən 35-dən çox tələbənin ortalaması 80-nin üzərində olmuşdur. 26 tələbə 87-nin üzərində ümumi orta müvəffəqiyyət göstəricisi əldə etmişdir. 32 tələbə 73-80 aralığında, 14 tələbə isə 66-73 aralığında ortlama nəticəsi əldə etmişdir. 4 nəfərin ümumi ortalama müvəffəqiyyət göstəricisi 60-dan aşağı, 1 nəfərin isə 20-dən aşağıdır.




2021-ci il qəbul qrupları üzrə hazırda 88 tələbə təhsil almaqdadır və 1 nəfər tələbə isə akademik məzuniyyət götürmüşdür. Ümumi 88 nəfərin 3 semestr ərzində əldə etdikləri ÜOMG-ləri (ümumi orta müvəffəqiyyət göstəricisi) aşağıda diaqramda öz əksini tapmışdır. 28 nəfər tələbə 71-78 aralığında ortalama müvəffəqiyyət göstəricisi, 22 nəfər 78-85 aralığında, 11 nəfər 85-dən, 2 nəfər isə 92-dən çox nəticə göstərmişdir. 17 nəfər 71-dən, 4 nəfər 63-dən, 3 nəfər isə 56-dan aşağı nəticə əldə etmişdir.




2020-2021-ci il qəbul qrupları hazırda 69 nəfər tələbə təhsil almaqdadır. Onların 5 semestr ərzində əldə etdikləri ÜOMG (ümumi orta müvəffəqiyyət göstəricisi) aşağıda diaqramda əks olunmuşdur.




Göstəricilərə əsasən 29 tələbənin ÜOMG 72-82 aralığında təşkil edir. 20-yə yaxın tələbənin ÜOMG 82-dən, və 6 nəfər tələbənin isə 92-dən çoxdur. 11 nəfər tələbənin ortalaması 62-72 aralığında olduğu halda, 5 nəfərdə isə 60-dan aşağı olduğu əks olunmuşdur.

Əlavə olaraq, 2022-ci ildə BMU və İnha Universiteti arasında icra olunan beynəlxalq ikili diplom proqramı (İDP) çərçivəsində ilk növbədə BMU-da, daha sonra isə İnha Universitetində "Yay məktəbi" təşkil edilmişdir. Həmin yay məktəbində ümumilikdə 155 nəfər tələbə iştirak etmiş və onlar "Yay məktəbi" proqramı üzrə tədbirlərə qatılmışlar. Həmçinin tələbələr proqram ixtisasları üzrə professorlarla görüşərək İnha Universitetinin laboratoriyaları ilə tanış olmuşlar.

2022-ci ildə magistratura təhsil səviyyəsində İnşaat mühəndisliyi ixtisası üzrə ABŞ-nin **Texas Texnologiya Universiteti** ilə ikili diplom müqaviləsi imzalanmışdır. Qəbul alan tələbələr təhsillərinin birinci ilini Texas Texnologiya Universitetində, ikinci ilini isə BMU-da davam etdirəcəklər. Tədris ingilis dilində aparılacaqdır.

Yuxarıda qeyd olunan əməkdaşlıqların qurulması universitetin beynəlmiləlləşmə prosesinə müsbət təsir göstərmişdir. Belə ki, xarici təcrübədən istifadə edərək beynəlxalq səviyyədə birgə tədqiqat işlərinin aparılmış, əmək bazarına cavab verən kurrikulumların metodikası və məzmunu hazırlanmış, bu prosesdə iştirak edən əməkdaşlar öz bilik və bacarıqlarını inkişaf etdirmişlər.

**7.1.8. Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti**

BMU-nun 2020-2023-cu illər üçün beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlliləşdirilməsi ilə bağlı inkişafı beynəlxalq akademik və peşəkar əməkdaşlıq, beynəlxalq təhsil xidmətləri bazarında aktiv iştirak, beynəlxalq simpozium və konfransların təşkili, eləcə də universitet əməkdaşlarının yüksək reytinqli beynəlxalq tədbir və konfranslarda iştirakının təmin edilməsi, əcnəbi tələbələrin və müvafiq ixtisaslar üzrə peşəkar kadrların cəlbi, beynəlxaq sərgilərdə fəal iştirak, beynəlxalq layihələr və proqramlar üçün kadr təchizatı əsasında iqtisadiyyatın biznes və sahibkarlıq, aqrar və hümanitar sahələrdə dünya səviyyəli bilik və kompetensiyaların inteqrasiyası və yayılmasını təmin edən bir elmi mərkəz-departament kimi nəzərdə tutur.

Beynəlmiləşmə siaysəti BMU-nun SİP-nə uyğun olaraq yenilənir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu

**7.2.1. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti**

Beynəlxalq təhsil təşkilatları ali təhsil müəssisələri üçün beynəlxalq proseslərin idarə edilməsi və təşkilati strukturun yaradılmasına kömək edir. BMU beynəlxalq təhsil təşkilatları və şəbəkələri vasitəsilə ortaq təhsil standartlarının təyin edilməsi, təhsil proqramlarının müqayisəsi, təhsil məlumatlarının mübadiləsi üçün əməkdaşlıqlar qurur.

BMU-nun beynəlxalq əməkdaşlıqla əlaqəli bütün struktur bölmələri universitetin beynəlxalq əlaqələr üzrə prorektoru tərəfindən koordinasiya olunur. BMU-nun beynəlxalq əlaqələri aşağıdakı istiqamətlər üzrə qurulmuşdur:

- Xarici universitet, təşkilat və mərkəzlərlə ilə əməkdaşlıq;
- Beynəlxalq layihələr və mübadilə proqramları;
- Əcnəbi tələbələrin qəbulu.

BMU-nun yeni hazırlanmış beynəlmiləlləşmə siyasətinin idarəedilməsi universitetin rektoru və beynəlxalq əlaqələr üzrə prorektorunun səlahiyyətlərinə daxildir, burada əsas icraçı struktur isə universitetin Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi, qismən də fakültələrdir.

**7.2.2. Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti**

BMU-nun beynəlmiləlləşmə siyasəti istiqamətində işlərin düzgün nəzarəti və idarə olunması üçün universitetin beynəlxalq əlaqələr üzrə prorektorluğunun nəzdində Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi fəaliyyət göstərir.

BMU-nun beynəlmiləlləşmə siyasətinin əsas icraçısı Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi 2020-ci ildən etibarən, Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsinin müdiri bir ştat, əcnəbi tələbələr işləri üzrə məsul şəxs bir ştat, miqrasiya işləri üzrə bir ştat vahidindən ibarət olmaqla ümumilikdə 3 əməkdaş fəaliyyət göstərir.

Şöbələr müvafiq olaraq otaqlar, kompüterlər və digər iş fəaliyyətinin səmərəliliyini təmin edəcək avadanlıqlarla təchiz olunub. 2023-ci ilin etibarən bu istiqamətdə fəaliyyətin səmərələliyinin artırılması üçün ştat vahidlərinin artırılması nəzərdə tutulur.

**7.2.3. Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

Mübadilə proqramları Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi tərəfindən koordinasiya edilir. Mübadilə proqramlarında tələbə seçimi və tədris planının uyğunluğu, həmçinin akademik heyət seçimi məsələləri fakültələrə və kafedralara yönləndirilir və bu proses izlənilir. Birgə təhsil proqramlarının həyata keçirilməsi prosesində müfaviq fakültə və kafedraların heyəti işə cəlb olunur, vaxtında və lazımi tələblərə uyğun yerinə yetirilməsi istiqamətində işlər Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi tərəfindən izlənilir. Həm tələbə, həm də müəllim seçimi tam şəffaf şəkildə - elan yerləşdirilməsi, namizədlərin lazımi sənədləri e-poçt ilə göndərmələri, namizəd sayına uyğun siyahı tərtib edilərək qarşı tərəf universitetə göndərilməsi və s. prosedurlar – ardıcıllıqla həyata keçirilir.

**7.2.4. Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti**

2017-2022-ci illərdə BMU-da xarici vətəndaşlığı olan 6 müəllim və 2 nəfər inzibati heyət tədris prosesinə cəlb edilmişdir. Belə ki, 3 nəfər İran vətəndaşından bir əməkdaş Avtomatika, telekommunikasiya və energetika kafedrasında baş müəllim, digəri Kompüter və informasiya texnologiyaları kafedrasında müəllim, 3-cüsü isə İnşaat mühəndisliyi kafedrasında çalışmışdır. 1 nəfər Albaniya vətəndaşı Memarlıq və şəhərsalma kafedrasında, 1 nəfər Rusiya vətəndaşı isə Dövlət və bələdiyyə idarəetmə kafedrasında dosent vəzifəsində, 1 nəfər Gürcüstan vətəndaşı isə Maliyyə kafedrasında çalışır. Əlavə olaraq 2 nəfər Cənubi Koreya vətəndaşı BMU-da yerləşən “King Sejong” İnstitutunun filialında ziyarətçi professor olaraq fəaliyyət göstərir.

**7.2.5. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti**

BMU beynəlxalq qrant layihələrində aktiv iştirak edir və layihələrin məqsədlərinə uyğun olaraq universitetin kadr potensialının artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələr əldə edir. Bu istiqamətdə universitetdə struktur islahatları aparılır, Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsinin işi təkmilləşdirilir.

**7.2.6. ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti**

BMU Cənubi Koreyanın Inha Universiteti və ABŞ-nin Texas Texnologiya Universiteti ilə ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimləyir.

**7.2.7. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası**

BMU-da beynəlxalq proqramlar vasitəsilə akademik və inzibati heyətin mübadiləsi həyata keçirilir.BMU Erasmus+ mübadilə proqramı çərçivəsində Avropanın 13 universiteti ilə əməkdaşlıq edir. Ümumilikdə 2017-2022-ci illər üzrə xarici təlim və konfranslarda iştirak edən professor-müəllim heyətinin sayı aşağıdakı kimidir:

- 2017-ci il – 47 nəfər;
- 2018-ci il – 44 nəfər;
- 2019-cu il –60 nəfər;
- 2020-ci il – 7 nəfər;
- 2021-ci il – 12 nəfər;
- 2022-ci il – 62 nəfər.

Həmçinin 2020-ci ildə Fulbright proqramı çərçivəsində 1 nəfər ABŞ-nin Texas Texnologiya Universitetindən ziyarətçi professor qismində BMU-ya gəlmişdir.

**7.2.8. Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti**

Mübadilə proqramlarında akademik və inzibati heyətin seçimi haqqında məlumat mövcud layihə üzrə xarici tərəfdaş universitetin təqdim etmiş olduğu tələb və ya mövcud olan müqavilədə göstərilən ixtisas sahələri üzrə kafedralara yönləndirilir, universitetin veb səhifəsi və sosial mediasında elan verilir. Mübadilədə iştirak edəcək akademik vəya inzibatı heyətin seçimi müvafiq struktur bölmələrinin rəhbərlərinin dəstəyi ilə Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi tərəfindən qoyulan tələblərə uyğun olaraq seçilir. Seçim

haqqında məlumat tərəfdaş universitetə təqdim edilir və daha sonrakı prosedurların icrası Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi tərəfindən koordinasiya edilir.

**7.2.9. ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTS-in tələblərinə uyğun təşkili vəziyyəti**

Mübadilədə iştirak edən tələbələrin kreditlərinin tanınması əsasən mübadilə proqramlarının normativ qaydalarına uyğun aparılır və universitet də bu xüsusda lazımi dəstəyi göstərir. Beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin mübadilənin baş tutacağı semestr fənlərinin uyğunluğu BMU-nun FR-033AKTS - Avropa Kredit Transferi və Yığım Sistemi Tanınma Vərəqi adlı sənədlə təsdiqlənir. Bu sənəd mübadilədən əvvəl razılaşdırılaraq imzalanır, mübadilədən sonra tələbənin müvəffəqiyyətlə başa vurduğu fənlərin kreditləri göndərən universitet tərəfindən tanınır.

2017-2023-cü illər ərzində BMU-nun mübadilədə iştirak etmiş tələbələrinin sayı aşağıdakı kimidir:

- 2017/18-ci tədris ili – 12 nəfər;
- 2018/19-cu tədris ili – 8 nəfər;
- 2019/20-ci tədris ili – 7 nəfər;
- 2020/21-ci tədris ili – 8 nəfər;
- 2021/22-ci tədris ili – 16 nəfər;
- 2022/23-cü tədris ili – 8 nəfər.




**7.2.10. Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti**

BMU QS (Quacquarelli Symonds), THE (Times Higher Education) kimi reytinq sıralamasında yer almaq üçün əməkdaşlıqlara başlanılmışdır. Belə ki, Böyük Britaniyanın "QS World University Rankings" nəşrinin Avropa və Mərkəzi Asiyanın inkişaf etməkdə olan ölkələrinin 2022-ci il üzrə reytinq cədvəlində Azərbaycandan ümumilikdə 7 universitet yer alıb. Belə ki, ən yaxşı universitetlərin reytinq cədvəlində **Bakı Mühəndislik Universiteti** 401-450 aralığında qərarlaşıb. Reytinq müəllimlərin təcrübəsi, xarici

tələbələrin nisbəti, həmçinin işəgötürənlər arasında nüfuz və akademik nüfuz istifadə olunmaqla tərtib olunub.




Bakı Mühəndislik Universiteti (BMU) Böyük Britaniyanın "Times Higher Education Impact Rankings 2023" reytinq cədvəlində növbəti dəfə dünyanın ən yaxşı universitetləri sırasında yer alıb.

"Times Higher Education Impact Rankings"- Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması və DİM üzrə öhdəliklərin uğurlu icrasında universitetlərin rolunun qiymətləndirilməsi ilə bağlı dünyada yeganə qlobal effektivlik cədvəli hesab edilir. Cədvəl tərtib edilərkən ali təhsil müəssisələrinin fəaliyyətləri DİM-in 17 istiqamətinin hamısı üzrə qiymətləndirilir.

BMU-nun artıq üçüncü dəfədir daxil olduğu adıçəkilən reytinq cədvəli 112 ölkə və regiondan 1591 universiteti əhatə edir. Reytinqin müəyyənləşdirilməsində tədqiqat, idarəetmə, təbliğat və tədris kimi dörd geniş sahə üzrə hərtərəfli və balanslaşdırılmış müqayisəni təmin etmək üçün diqqətlə kalibrlənmiş göstəricilərdən istifadə olunub. Bununla yanaşı, reytinq seçimləri üçün reputasiya sorğusu, işçi-tələbə nisbəti, doktorantura və bakalavr dərəcələrinin nisbəti, doktorluq dərəcələrinin akademik heyətə nisbəti, institusional gəlir kimi parametrlər əsas götürülüb.




(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

**7.3.1. Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti**

BMU-da beynəlmiləlləşmə siyasətinin icrası çərçivəsində həyata keçirilən proqramlara beynəlxalq və yerli layihələrdən qazanılan qrantlarla yanaşı, həmçinin universitetin

maliyyəsi hesabına resurslar ayrılır. Universitetdə xarici ezamiyyələrə ayrılan vəsaitlər ildən-ilə artırılır, beynəlmiləlləşmə prosesinin daha da inkişaf etməsi üçün universitet maddi və insan resurlarını ən optimal şəkildə istifadə edir.

BMU, beynəlmiləlləşmə prosesində ehtiyac duyulan maliyyə resurslarının bir qismini beynəlxalq qrant proqramları çərçivəsində əldə edir və eyni zamanda, bu layihələr çərçivəsində Avropanın ali təhsil məkanının ən yaxşı təcrübəsini öyrənərək universitetin potensialının artırılmasına dəstək olur.

BMU 2017-2022-ci illərdə 9 beynəlxalq qrant layihəsinə tərəfdaş kimi cəlb olunmuşdur. Bunlardan biri isə **HORIZON** proqramı çərçivəsində həyata keçirilir. Layihələr çərçivəsində elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə ən yaxşı Avropa təcrübəsi öyrənilir, elmi əməkdaşlıq sahələri müəyyən edilir və geniş əməkdaşlıq şəbəkəsi qurulur.

**1. "PAWER - Təhsildə regionlararası mobillik, keyfiyyət, uyğunluq və hər kəsə açıq sistemin qurulması"** Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Aquila Universiteti (İtalya) / Layihənin müddəti: 3 il (2016-2019 + 6 ay vaxtı uzadılıb və 2020-ci ilin aprelində yekunlaşıb) və BMU-ya layihə çərçivəsində 3 ədəd notbuk/kompüter alınıb.

**2."PROMIG - Ali təhsil müəssisələrində miqrasiya təhsilinin təşviqi**" Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Tbilisi Dövlət Universiteti (Gürcüstan)

Layihənin müddəti: 3 il (2016-2019 + 6 ay vaxtı uzadılıb və 2020-ci ilin aprelində yekunlaşıb) və BMU-ya layihə çərçivəsində 3 ədəd notbuk/kompüter alınıb.

**3."CRENG - Nəqliyyat xidmətləri üçün böhran və risklər mühəndisliyi"** Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Varşava Politexnik Universiteti (Polşa)

Layihənin müddəti: 3 il (2018-2021)

Qeyd: Layihə çərçivəsində BMU-ya 27200 AVRO dəyərində avadanlıq alınacaq ki, bunlar da "Nəqliyyat xidmətləri üçün böhran və risklər mühəndisliyi" adlı tədris laboratoriyası qurulur. Tədris materialları hazırdır və avadnlıqlar sıfarış edilmişdir.

**4."MAGNUS - Tərəfdaş universitetlərdə Mobil Tətbiqlərin və Oyun Dizaynı magistr proqramlarının hazırlanması"** Erasmus+ KA2 layihəsi

Qrant qalibi / koordinator: Linkopings Universiteti (İsveç)

Layihənin müddəti: 3 il (2018-2021)

Qeyd: Layihə çərçivəsində BMU-ya 36050 AVRO dəyərində avadanlıq alınacaq ki, bunlar da "Mobil Tətbiqlərin və Oyun Dizaynı" adlı tədris laboratoriyası qurulub.

**5."ITACA - Azərbaycanda İnnovativ Tədris Mərkəzinin qurulması"** Erasmus+ KA2 layihəsi

Qrant sahibi / koordinatoru: Roma Universiteti La Sapienza (İtalya)

Layihənin müddəti və daha ətraflı məlumat: 3 il (2019-2022)

Qeyd: Layihə çərçivəsində BMU-ya 57068 AVRO dəyərində avadanlıq alınacaq ki, bunlar da "İnnovativ Tədris Mərkəzi" üçün istifadə olunub.

**6."ECAR - Azərbaycanda Rektorlar Konfransının yaradılması"** Erasmus+ KA2 layihəsi

Qrant sahibi/koordinator: Bakı Biznes Universiteti (Azərbaycan)

Ətraflı məlumat üçün: http://ecar.net.az/

**7."STM (Slow Turism Management) - Davamlı Turizm Menecmenti"** Erasmus+ KA2 layihəsi

**Layihənin məqsədi:** 6 ölkədən 7 universitet tərəfindən təklif olunan inteqrasiya olunmuş transmilli magistr təhsili proqramını inkişaf etdirmək.

**8."CAMPAIGNers - Vətəndaşlar hədəf müəyyənləşdirmə şəbəkəsindən aktiv istifadə etmək vasitəsilə yumşaltma yolları ilə hərəkət edir"** adlı HORIZON 2020 layihəsi

**Layihənin məqsədi**: İnsanların həyat tərzindəki dəyişiklik üçün əngəlləri aydınlaşdıracaq, yeni həyat tərzi nümunələri müəyyən edərək sınaqdan keçirdəcək və əldə etdiyi nəticələrin yayılması üçün planlar hazırlayacaqdır.

İlk toplantı: 7-8 iyun 2021-ci il tarixində təşkil olunacaq.

Qeyd: Layihə çərçivəsində BMU-ya  71,250 avro BMU üçün ayrılıb.

**9."BMU-nun nəzdində King Sejong İnstitutunun Xırdalan filialının təsis edilməsi"** layihəsi 2020-ci ildə BMU ilə İnha Universitetinin birgə fəaliyyəti nəticəsində ortaq bir layihədə hazırlanıb və həmin layihənin icrası davam etdirilir. Layihənin məqsədi BMU-nun nəzdində King Sejong İnstitutunun Xırdalan filialının təsis edilməsi və Koreya dili və mədəniyyətinin tədrisini təşkil etməkdir.

Layihənin maliyyələşdirməsi: Sözügedən layihə Cənubi Koreya hökumətinin Kral Sejong Fondu tərəfindən dəstəklənir və maliyyələşdirilir. BMU isə texniki dəstək (iş otağı, sinif otağı, Koreyalı müəllimlərə viza almaqda dəstək) göstərmək üçün razılıq verir. Layihənin icrası nəticəsində BMU-nun nəzdində təsis olunmuş King Sejong İnstitutunun Xırdalan filialında Koreya dili və mədəniyyətinin tədrisi koreyalı müəllimlər tərəfindən həyata keçirilir və kursu uğurla bitirən tələbələrə sertifikat verilir. BMU tələbələri üçün kurslar ödənişsizdir.

**10. Beynəlxalq imtahanların təşkil edilməsi - (TOEFL, GRE, GMAT, IELTS, SAT və s.).** BMU-da müxtəlif beynəlxalq sertifikat proqramlarının imtahanları təşkil olunur. Onu da qeyd edək ki, hər bir imtahan üçün maliyyə vəsaiti beynəlxalq şirkətdən imtahan təşkil etməklə bağlı BMU-nun büdcəsinə xidmət haqqı ödənilir.

2023-cü ildən rəqəmsal SAT imtahanlarının keçirilməsi nəzərdə tutulur.

Bu layihələr universitetə beynəlxalq birgə proqramların hazırlanması üzrə təcrübə qazandırır. Eyni zamanda müvafiq hazırlanan birgə təhsil proqramları üzrə xarici universitetlərin beynəlxalq əmək bazarına cavab verən peşəkar vərdişlərin mənimsənilməsinə imkan yaradır.

**7.3.2. Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti**

BMU-da mübadilə və qrant proqramları çərçivəsində tələbə və müəllimlərin, o cümlədən inzibati heyətin mübadiləsi, elmi-tədqiqat proqramları çərçivəsində tələbə və əməkdaşların qısamüddətli təcrübə keçmələri, müxtəlif vaxtlarda əcnəbi müəllimlərin tədrisə cəlb olunmaları, ikili diplom proqramları çərçivəsində tələbələrin yarı təhsilini xaricdə alma imkanı əldə etmələri ilə beynəlmiləlləşmə siyasətinin icrasına insan resursları cəlb olunur.

2017-2022-ci illər ərzində akademik və inzibati heyətdən beynəlmiləlləşmə siyasətinin icrasına 232 nəfər cəlb edilmişdir. 2017-2023-cü illər ərzində beynəlmiləlləşmə siyasətinin icrasına 59 tələbə cəlb edilmişdir.

**7.3.3. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti**

BMU beynəlxalq qrant layihələrində aktiv iştirak edir və layihələrin məqsədlərinə uyğun olaraq universitetin kadr potensialının artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələr əldə edir. BMU-da son dövrlərdə birgə təhsil proqramları istiqamətində uğurlu işlər həyata keçirilib və ikili diplom proqramları çərçivəsində müqavilələr imzalanıb. Həmin proqramlar çərçivəsində Kompüter və İnformasiya texnologiyaları kafedrasında, Avtomatika, telekommunikasiya və energetika kafedrasında laboratoriyalar yaradılmışdır. Bu laboratoriyalarda quraşdırılan avadanlıqlar təhsil proqramlarına uyğundur.

**7.3.4. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti**

Beynəlmiləlləşmə siyasətinin icrasından irəli gələn, ehtiyac duyulan istər maddi, istərsə də insan resurslarının artırılması məsələlərinin 2023-2024-cü tədris ilindən etibarən dövri olaraq həyata keçirilməsi nəzərdə tutulan siyasətin idarəedilməsinin monitorinqində qeydə alınması və müvafiq islahatların keçirilməsi planlaşdırılır.

2022/2023-cü tədris ilində keçirilən tələbə sorğularına əsasən BMU-nun Xarici Əlaqələr və Layihələrin İdarə olunması şöbəsinin fəaliyyəti ilə bağlı məmnunluq göstəricisi 71.26%-dir. Tələbələrin BMU-da mübadilə proqramları ilə bağlı məlumatlılığı 61.69%-dir.

| 9 | **Universitetin xarici əlaqələrlə bağlı fəaliyyətlərindən məmnunam.** | | | |
|---|---|---|---|---|
| 3525 cavab | Tamamilə razıyam | | 31% | 71.26% ortalama |
| | Razıyam | | 37% | |
| | Cavab verməkdə çətinlik çəkirəm | | 23% | |
| | Razı deyiləm | | 5% | |
| | Qətiyyən razı deyiləm | | 4% | |

| 10 | **Universitetdəki tələbə mübadilə proqramlarından xəbərdarsınızmı?** | | | |
|---|---|---|---|---|
| 3524 cavab | Bəli | | 44% | 61.69% ortalama |
| | Xeyr | | 35% | |
| | Maraqlanmıram | | 21% | |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

7.4. Beynəlmiləlləşmə performansı

**7.4.1. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetinin beynəlmiləlləşməsi istiqamətində görülən işlərə demək olar ki, bütün struktur bölmələri cəlb olunur. Bu istiqamətdə həm birbaşa, həm də izləmə və vasitəçilik etmə funksiyası universitetin Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsinin üzərinə düşür. Belə ki, universitetin Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi tərəfindən beynəlxalq əməkdaşlıqların qurulması; dünya ali təhsil bazarında davamlı mövqeyə malik olmaq; tədris proqramının bir tərkib hissəsi kimi müəllim və tələbələrin mübadiləsi; xarici ali təhsil müəssisələri ilə ortaq tədqiqat işlərinin aparılması; xarici ali təhsil müəssisələri ilə birgə təhsil proqramları və konfransların həyata keçirilməsi; əcnəbi tələbələrin cəlb edilməsi və s. istiqamətlərində ya bir başa işlər görülür, ya da müvafiq strukturlara yönləndirilərək icra müddəti və nəticələri izlənilir.

**7.4.2. Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti**

Ali təhsil sisteminin beynəlmiləlləşməyə başladığı dövrdə Bakı Mühəndislik Universiteti beynəlxalq standart və meyarlara uyğun tədris proqramları və metodları əsasında tədrisin təşkil olunmasına, rəqabətədavamlı məzun və kadr hazırlığının aparılmasına və təkmilləşdirilməsinə xüsusi önəm verir. **Bakı Mühəndislik Universiteti Elmi Şurasının** “ 16.05.2023 ”-cü il tarixli, “ 05/2023 ” nömrəli qərarı ilə təsdiq edilmiş Beynəlmilləşmə strategiyasının məqsədləri çərçivəsində beynəlmiləlləşmə prosesi ilə əlaqədar fakültə və kafedra əməkdaşları ilə sıx əlaqə yaradır və mübadilə proqramlarında iştirak edərək beynəlxalq təcrübənin öyrənilməsini təşviq edir. Beynəlmiləlləşmə prosesi çərçivəsində beynəlxalq təcrübəyə əsaslanaraq, tədqiqat fəaliyyətlərinin təşkili üçün universitetdə uyğun infrastrukturun yaradılması və ya mövcud olanların məzmununun yenilənməsi; beynəlxalq tədqiqat şəbəkələrinin gücləndirilməsi vasitəsilə tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi; beynəlxalq mübadilə proqramlarında tələbələrin iştirakı; beynəlxalq mübadilə proqramlarında PMH-nin iştirakı; akademik və inzibati heyətin beynəlxalq təlimlərdə iştirakı və s. kimi BMU-nun Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi beynəlmiləlləşmənin inkişafı üçün müəyyən olunmuş əsas fəaliyyət göstəricilərinin təkmilləşdirilməsinə, nəticələnməsinə nəzarət edir və digər struktur bölmələrin bu istiqamətdə fəaliyyətlərinə dəstək olur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 38 | | | | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 12 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **50** | | | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 31 | | | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 10 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **53** | | | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 10 | | | | |
| 3.2 Təhsil proqramları | 27 | | | | |
| 3.3 Tədrisin təşkili | 58 | | | | |
| 3.4 Tədris metodları və üsulları | 19 | | | | |
| 3.5 Təlim və tədris resursları | 39 | | | | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 30 | | | | |
| 3.7 Professor-müəllim heyəti | 28 | | | | |
| 3.8 Tələbəyönümlü tədris | 22 | | | | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 10 | | | | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 11 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **254** | | | | |
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 21 | | | | |
| 4.2 Tədqiqat resursları | 14 | | | | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 48 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.4 Elmi-tədq iqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 7 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **90** | | | | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 27 | | | | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 28 | | | | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 41 | | | | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 22 | | | | |
| 5.5 İctimaiyyətlə əlaqələr | 17 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **135** | | | | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 40 | | | | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 6 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **46** | | | | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 18 | | | | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 23 | | | | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 10 | | | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 4 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **55** | | | | |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **683** | | | | |

**6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər**

**Qeyd:** Təşkilat komissiyasının özünütəhlilin nəticəsi olaraq gəldiyi nəticələr və təhsil müəssisəsinə tövsiyyələri əks olunur.

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla); MD şöbəsi və Tədris hissəsi,
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərs dənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.